Bu bir xalq qəzetidi
ƏDALƏT

## "Vaxtında təklif edərdiniz, hazıra gələrdim"



**"Hansısa deputatın komitəyə, beynəlxalq parlamentlərarası dostluq qrupuna üzv olması Milli Məclisdə qaldırılmamalıdır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, bu məsələlərlə bağlı iclasda səsvermə olmasın: "Kim hansı komitəyə üzv olmaq istəsə bununla bağlı komitəyə müraciət etsin. Siz sadəcə bunu iclasda elan etsəniz yaxşı olar.

Doğrudur, bu daxili Nizamnamənin tələbidir. Amma düşünürəm ki, bunu dəyişməliyik".

Spiker Sahibə Qafarova isə bildirib ki, bu daxili Nizamnamənin tələbidir: "Bunu vaxtında təklif edərdiniz. Mən də hazıra gələrdim. Bir dəfə dedim ki, 30 il niyə susmusunuz, hamı yazdı. İndi bunu da yazacaqlar".

## BAYDENDƏN ZELENSKİYƏ MÜDRİK MƏSLƏHƏT



**Deyib ki, gördün rus tankları Kiyevə yaxınlaşır qaç Lvova. Yəni asta qaçan namərddir.**

## GÜRCÜSTAN COVİD 19-a DEDİ, GET HOPPAN



**Və ölkənin bütün sərhədlərini açdı.**

Hamıya məlumdur ki, Gürcüstanın əsas gəlir mənbəyi turizmdir və artıq iki ildir ki, Gürcüstan bu gəlir mənbəyindən məhrum olunub. Ona görə də belə bir qərar verib. Təbii ki, şərtləri də var, gələnlər iki doza vaksin vurdurmalıdırlar və testdən keçməlidirlər.

**Bütün dünya yorulub, elə biz də yorulmuşuq, amma Gürcüstan lap yorulubmuş. İndi qaldı bizim Gürcüstanla sərhədimizi açmağımız.**

## UNESCO XOŞ GƏLİB SƏFA GƏTİRİR

**Bildiyimiz kimi ermənilər UNESKO-ya şikayət ediblər ki, guya Azərbaycanda onların məbədlərini, tarixi abidələrni dağıdırlar. İndi UNESKO da bir komissiya təşkil edib gəlib ermənilərin şikayətini yoxlayacaq. Baxıram, sosial şəbəkələrdə və saytlarda buna etiraz edirlər. Təbii ki, etiraz edənlər haqlıdırlar.**

Amma eybi yox, qoy gəlsinlər Düzdür, bizim məscidlərimizi, tarixi abidələrimizi ermənilər dağıdanda kar olmuşdular, kor olmuşdular.

Gələrlər və görərlər ki, Azərbaycan bir dənə də xristian abidəsini nəinki dağıtmayıb, əksinə təmir edib. Gəzərlər, öz gözləriylə görərlər, sonra da həm azad olunmuş ərazilərə səfərləri təşkil edərik, eləcə də sülhməramlıların nəzarət etdiyi əraziləri gəzərlər və bütün erməni vəhşiliklərinin şahidi olarlar.

Görək ondan sonra UNESKO nə deyəcək və ermənilərin nə sözü olacaq?



**Görün Müdafiə Nazirliyimiz necə varlıdır ki, hamı yeyir, amma pul qurtarmır. Allah daha varlı eləsin!**

## Vilayət Eyvazov əməliyyat müşavirəsi keçirdi



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin (DİN) Əlahiddə Çevik Polis Alayında əməliyyat müşavirəsi keçirib.**

Bu barədə Adalet.az-a DİN-in Mətbuat Xidmətindən məlumat verilib.

Tədbirdə çıxış edən nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf və tərəqqi strategiyasının uğurla davam etdiyini, ölkəmizdə mövcud olan sabitliyin, təhlükəsizlik şəraitinin, ümumən ictimai asayişin etibarlı qorunduğunu vurğulayıb, görülən işlərdə, əldə edilən müsbət nəticələrdə Əlahiddə Çevik Polis Alayının şəxsi heyətinin də böyük əməyi olduğunu diqqətə çatdırıb.

Nazir V.Eyvazov xidməti fəaliyyətdə əsas diqqəti vətəndaşların təhlükəsizliyinin daha etibarlı qorunmasına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının qətiyyətlə alınmasına, insan hüquq və azadlıqlarının qorunmasına, eyni zamanda şəxsi heyət arasında nizam-intizamın gücləndirilməsinə yönəltməyi tələb edib.

General-polkovnik V.Eyvazov xidməti funksiyaların səmərəli həyata keçirilməsi üçün ölkə rəhbərliyi tərəfindən daxili işlər orqanlarına hərtərəfli şəraitin yaradıldığını, şəxsi heyətin dövlət qayğısı ilə əhatə olunduğunu qeyd edərək əmin olduğunu bildirib ki, Nazirliyin mühüm struktur qurumlarından olan Əlahiddə Çevik Polis Alayının şəxsi heyəti qanunla müəyyən edilmiş vəzifələri, qarşıya qoyulan bütün tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaqdır.

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 8 (5945) 26 fevral 2022-ci il | Qiyməti 30 qəpik

## Əhməd İsmayılov Dan Maysonla görüşdü



**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov beynəlxalq media mütəxəssisi və təlimçisi Dan Maysonu qəbul edib.**

Adalet.az xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələrək ölkədə media sahəsində həyata keçirilən islahatlar və "Media haqqında qanun" barədə fikir mübadiləsi aparılıb, həmçinin peşəkarlığın artırılması istiqamətində təşkil olunan layihələrə xarici ekspertlərin cəlb olunması imkanları müzakirə olunub.

## Asta qaçana imam yox, Putin qənim



***Hamı, daha dəqiq desək, qeyri-ukraynalılar şələ-şüləsini yığıb, səfirliklərini də bellərinə şəlləyib Ukraynadan qaçır.***

***Birinci qaçan da ABŞ səfirliyi və vətəndaşları olub. Deyəsən ABŞ öz səfirini Çexiyaya köçürüb.***

# Azərbaycan iki böyük qonşu dövlətlə müttəfiqlik münasibətlərindədir



Bax:səh-2

## Milli Məclis Xocalı soyqırımı ilə bağlı bəyanat verdi



**Milli Məclis Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar bəyanat veririb.**

Bəyanatda soyqırımın bəşəriyyətə qarşı ağır cinayət olduğu qeyd edilib.

Bildirilib ki, Xocaı soyqırımının törədilməsində məqsəd Azərbaycan xalqının əzmini qırmaq, əraziləri işğal etmək olub.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər əhalisi deportasiya olundu, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qaldı (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri aldı, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu, 8 ailə tamamilə məhv edildi, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərdən hər ikisini itirdi, 613 nəfər, o cümlədən 63 uşaq, 70 qoca, 106 qadın işgəncə verilməklə vəhşicəsinə öldürüldü.

## Elə bir ölkədə vətəndaş müharibəsi gedir

***Qəzetləri, saytları sosial şəbəkədə açmaq mümkün deyil: "Vəzifəli şəxsin qardaşı adam güllələdi", "İş adamını güllələdilər", "Ana və iki uşağının başını kəsdilər", "Uşaqların başını kəsən əmisi imiş", "Uşaqların başını kəsənin fotosu", "Uşaqların başını kəsənin ən son fotosu", "Ölümünə döydülər və qulağını kəsdilər", "Döyülənin qulağı kəsilmiş fotosu", "Qulağı kəsəni nə üstdə döyüblər?", "Arvadını bıçaqlayıb öldürdü", "Arvadını öldürənin qət təzə fotosu", "Arvad ərini baltaladı", "Qadın ərinin cinsi orqanını kəsdi". At gəldi ölkəni apardı, it gəldi çarxı. Elə bil özümüzə söz vermişik ki, camaatı həmişə stresdə saxlayaq.***

## Nə qədər istəyirsən bəyanat göndərək



***Ukraynanın Xarici İşlər naziri deyib ki, Rusiyanı dayandırmaq üçün qəti addımlar gözləyir. Qınamaq kifayət deyil. Ağ evin sözçüsü də belə cavab verib ki: "Co Bayden Amerika qoşunlarını Ukraynaya göndərmək fikrində deyil".***

***Dalınca da deyib ki, qoşun göndərə bilmərik, amma nə qədər istəyirsiniz bəyanat göndərək.***

Mehman CAVADOĞLU



## İki millət, iki dövlət

**Son aylarda Ukrayna ətrafında cərəyan hadisələrin acınacaqlı dramatik sonluğu bir həqiqəti ortaya çıxardı: bugünkü dünya düzənində diplomatiyanın rolu hətta soyuq müharibə dövründəki səviyyədən də aşağı düşüb. Bir aydan çoxdur ki, bəzi aparıcı dünya ölkələrinin rəhbərləri bir-birlərinin ardınca və sanki bir-birlərinin bəhsinə sülh göyərçini libasında Kremlin yolunu yağır eləmişdi. ABŞ rəsmilərisə daha fərqli mövqe sərgiləyir və az qala, hər gün həyəcan və sensasiya dolu açıqlamalar verirdilər. Hərçənd, bu aşırı canfəşanlıq və prosesləri daha da körükləyən sərt bəyanatlar çox vaxt işə xeyirdən çox ziyan vurur və prezident Zelenskinin təbirincə desək, əhali arasında lüzumsuz ajiotaj yaradırdı.**

Bax: səh.3

## DAVA UKRAYNA DAVASI DEYİL, RUSİYANIN YORĞANININ DAVASIDI

**Bəli, ABŞ və NATO Ukraynanı bada verdi. Çünki onların davası Ukrayna davası deyildi, onları Ukrayna xalqının müqəddəratı maraqlandırmırdı. Dava Rusiyanın yorğanının üstündəydi: Rusiyanı müharibəyə cəlb etmək, sanksiyalar tətbiq etməklə Rusiyanı zəiflətmək və təbii ki, sonda parçalamaq.**

Artıq sanksiyalar tətbiq etməyə başlayıblar. Və təbii ki, bu sanksiyalar Rusiyaya baha başa gələcək.

Ağlım kəsəndən rus xalqını yağ içində böyrək kimi bəslənən görməmişəm. Həmişə ehtiyac içində yaşayıblar. Atam deyərdi ki, bala, nə qədər ki, rusların kartof və kələmi var, onlar yaşayacaqlar, onlara heç kəsin gücü çatmaz.

İndi Rusiyanın kartofu var, kələmi var, bu sanksiyalar ona az təfavüt edər. Yəni sanksiyalar Rusiyaya az təfavüt edər.

Rusiyanı içəridən türklər, daha dəqiq desək, tatarlar parçalaya bilər ki, onlar da bunu istəmir.

## ABŞ və NATO hələ "aman-aman" oxuyur

**Rusiyanı zəiflətmək üçün Ukraynanı verdilər bada. Rus tankları girdi Ukraynaya, raketlərlə də hərbi obyektlərini dağıdır. Co Bayden və Avropa ölkələrinin liderləri də hələ ki, bəyanatlar verir, Rusiyanı sanksiyalarla qorxudur.**

Toyda bir muğam ifaçısı on dəqiqədi oxuyur: "Aman, aman, amaaaaaaan, yar aman-aman, amaaaaannn, ey dad aman, aman... amannnnnnnn..."

Axırda bir nəfər dözməyib deyir:

***- Ay qardaş, o aman-aman nə vaxt qurtaracaq?***

Xanəndə:

***- Darıxma, hələ dalınca daley, daley gəlir.***

İndi NATO hələ "aman-aman" oxuyur. Yəqin dalınca da "daley-daley" gələcək, arada kasıbınkı qırılacaq.

## DTX Müdafiə Nazirliyində dənləmə əməliyyatı aparır



***Artıq 5 nəfər şöbə rəisi xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəməkdə ittiham olunaraq həbs edilib. Hələ ki həbs olunanların hamısı polkovnikdir. Görək generalların dənlənməsinə nə vaxt başlanacaq?***

Səxavət Məmməd

## Bütün pullular da cinayətkar deyil

Bax: səh.3

Aqil ABBAS
aqilabbas@rambler.ru

## POZDU VƏ ALI BƏYİNKİNİ QAZANDI



*İşdən yorğun-arğın və dilxor çıxdı. Ona görə yorğun-arğın deyildi ki, çox işləmişdi, onu yorğun-arğın eləyən bu gün də maaşın gecikməsi idi. Deyirdilər ki, Maliyyə Nazirliyi hələ büdcəni açmayıb, ona görə bəlkə heç bu həftə maaş olmadı.*

*Evdən çıxanda da arvad demişdi ki, axşam gələndə kartof-soğan, bir də uşağa süd alarsan. Bütün günü işdə də beynindən kartof-soğan, süd çıxmırdı. Yadına Qorkinin bir kəlamı düşdü: "Əgər axşam evə gedəndə süd almalısansa və pulun yoxdursa, bütün günü beynin qalacaq südün yanında və heç nə yaza bilməyəcəksən".*

*İndi onun beyni təkcə südün yanında qalmamışdı, həm də kartof-soğanın yanında qalmışdı, ona görə heç nə yaza bilməmişdi.*

Bax: səh.2

## BEY PERVIM, FREDDİ

**60-70-ci illərdə bu adda bir film vardı. Yeniyetmələrin və gənclərin sevdiyi film idi. Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmovun ləqəbi də bu filmdən götürülmüşdü - Fred Asif. Dost, yoldaş yolunda ölümə getməyə hazır olan Fred Asif dava-dalaşda əldən çəpik idi, mübahisə etməyi sevməzdi və həmişə birinci vurardı.**

Putin də deyir ki, cavanlıqda görürdüm dava qaçılmazdı, həmişə birinci vurardım. İndi də gördü mübahisə çox uzanır, Freddi kimi birinci vurdu. Donetsk və Luqanskın müstəqilliyini tanıdı və tanklarını sürdü Donetskə.

### GÜNÜN LƏTİFƏSİ

Qadın mağazada xalça seçir:

- Mənə uşaq otağı üçün xalça lazımdır, çirkləndiyi tez bilinməyən.

**- Neçə uşağınız var?**

- Altı.

**- Xanım, siz bəlkə otağı asfaltlayasınız?!**

## İlham Əliyev Ərdoğanı təbrik etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Ad gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz ilə qardaş Türkiyə Respublikası bu gün bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə söz sahibi olmuş və böyük nüfuz qazanmış güclü və qüdrətli dövlətdir. Qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində ölkənizin keçdiyi hərtərəfli inkişaf yolu, imza atdığı uğurları bizi səmimi-qəlbdən sevindirir və ruhlandırır.

Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz vardır. Birliyimizin və müttəfiqliyimizin möhkəmləndirilməsi yolunda davamlı səyləriniz, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və torpaqlarımızın işğaldan azad edilməsi işinə verdiyiniz daimi dəstək ölkəmizdə Sizə dərin hörmət və ehtiram qazandırmışdır. Fürsətdən istifadə edərək tarixi əhəmiyyət daşıyan Şuşa Bəyannaməsinin təsdiq edilməsi münasibətilə məmnunluğumu ifadə edirəm. Bu sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətlərində yeni səhifə açır, regionda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Biz qardaş Türkiyə ilə gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımızı və səmərəli fəaliyyətimizi bundan sonra da birgə səylərimizlə genişləndirmək və şaxələndirmək əzmindəyik.

Əziz Qardaşım,

Sizə Allahdan möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə məsul fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm".

## "Şuşa Bəyannaməsi regionda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir"

**"Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz vardır".**

Adalet.az xəbər verir ki. bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubunda deyilir. "Birliyimizin və müttəfiqliyimizin möhkəmləndirilməsi yolunda davamlı səyləriniz, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və torpaqlarımızın işğaldan azad edilməsi işinə verdiyiniz daimi dəstək ölkəmizdə Sizə dərin hörmət və ehtiram qazandırmışdır", - deyə təbrikdə qeyd olunur.

Azərbaycan Prezidenti qeyd edib ki, fürsətdən istifadə edərək tarixi əhəmiyyət daşıyan Şuşa Bəyannaməsinin təsdiq edilməsi münasibətilə məmnunluğumu ifadə edir: "Bu sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətlərində yeni səhifə açır, regionda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Biz qardaş Türkiyə ilə gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımızı və səmərəli fəaliyyətimizi bundan sonra da birgə səylərimizlə genişləndirmək və şaxələndirmək əzmindəyik".

## *Azərbaycanlı deputatların İrəvana səfəri başa çatıb*

**Avronest Parlament Assambleyasının iclasında iştirak edən Milli Məclisin deputatları Tahir Mirkişili və Soltan Məmmədovun İrəvana səfəri başa çatıb.**

Adalet.az xəbər verir ki, bu barədə Tahir Mirkişili məlumat verib.

T.Mirkişili bildirib ki, çətin və mürəkkəb bir səfər idi. Xeyli təhlükəsizlik və psixoloji məsələlər var idi.

"Amma bütün çətinliklərə baxmayaraq calışdıq ki, qalib ölkəmizi İrəvanda layiqincə, qalib formasında təmsil edək. Şəhidlərimizin müqəddəs qanı hesabına, Müzəffər Ali Baş Komandanımızın dəmir yumruğu, xalqımızın iradəsi və dəyanəti hesabında əldə etdiyimiz qələbəyə zərər gətirəcək hər hansı hərəkətə yol verməyək. Parlament diplomatiyası çərçivəsində nə bacardıqsa onu da etdik. Əminəm ki, bizdən sonra İrəvana səfər edənlər bizdən daha yaxşısını edəcəklər.

Qısa olaraq aşağıdakıları qeyd etmək istərdim: Ermənistan cəmiyyətinin müxtəlif nümayəndələri ilə, restoranda xidmətçiləri, mühafizəçilər, deputatlar, spiker, baş nazir ilə müzakirələr aparmaq şansımız oldu. Etiraf etmək lazımdır ki, onlar üçün yeni reallıqları qəbul etmək çətindir. Amma onlar bu mərhələni aşmaq, Azərbaycan ilə sülh şəraitində yaşamaq, kommunikasiyaları açmaq, müharibənin bir də olmamasını istəyirlər. Düşünürəm ki, cəmiyyətin böyük bir hissəsi belə düşünür.

Digər tərəfdən, aqressiv olan, millətçilərdən ibarət bir kəsim də var ki, onlar azərbaycanlılarla ünsiyyət qurmağı belə qəbul etmirlər. Hesab edirəm ki, bu kəsimdə də həmişə olacaq. Biz bunu hər zaman nəzərə almalıyıq.

Reallıq bundan ibarətdir ki, biz regionun ən güclü və ən aparıcı ölkəsiyik. Bizim Prezidentimiz dünya şöhrətli, güclü və ağıllı bir siyasətçidir. Dövlətimiz çox güclüdür. Cəmiyyətimiz kifayət qədər həmrəydir. Bütün bu üstüslüklərdən istifadə edərək, biz Ermənistanla sülh şəraitində yaşamağa cəhd edirik, və bunu onlar da doğru olaraq anlayırlar və pozitiv mesaj kimi qəbul edirlər. Bizim səfərimiz də bu fikrin onlarda, yəni sağlam kəsimdə formalaşmasında müsbət rol oynadı.

Amma eyni zamanda, revanşist, millətçi qüvvələrə qarşı sərt cavab verməyə də həmişə hazır olmalıyıq, bizim güclü dövlət olaraq sərt cavabımız həm də Ermənistandakı sağlam qüvvələrin ümidinə çevriləcəkdir.

Yekun olaraq, biz İrəvana Müzəffər Ali Baş Komandanımıza, güclü dövlətimizə güvənərək getmişdik, biz bu güvəni, dəstəyi hər an orda hiss etdik. Milli Məclisin rəhbəri Sahibə xanımın daim bizimlə təmasda olması, sanki onun bizlə orda bir yerdə olması təəssüratı yaradırdı.

Bütün bunlar isə, bizə lazımı dərəcədə özümüzə əmin olmağa, dövlətimizin və xalqımızın marağını istənilən situasiyada qorumağa, ən çətin şəraitdə belə cəsarətlə həqiqətləri deməyə imkan yaradırdı. Bu dəstəyə görə Ali Rəhbərliyimizə, Milli Məclis rəhbərinə, dövlət rəsmilərimizə öz dərin minnətdarlığımızı bildiririk!

Eyni zamanda, media nümayəndələrinə, sosial şəbəkərlərdə dəstək materialları və şərhləri yazan bütün hər kəsə təşəkkür edirik! Bu bizim üçün qeyri-standard şəraitdə adi bir işgüzar səfər idi, əminəm ki, bundan sonra belə səfərlər çox olacaqdır.

Yaşasın qəhrəman xalqımız, Müzəffər Ali Komandanımız, rəşadətli əsgərlərimiz!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!", - deyə o bildirib.

# "Xocalı şəhidlərinin qanı yerdə qalmadı"

**Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri Xocalı şəhərində soyqrım aktı törətdilər. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd etdilər. Şəhəri tərk edən əhali pusquya salındı və Naxçıvanlı və Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildi, ya da əsir götürüldü. Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda hərəkət edən zaman donvurma nəticəsində həlak oldular. Yalnız çox az sayda əhali Azərbaycanın nəzarətində olan Ağdam şəhərinə çata bildilər.**

Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər qətlə yetirildi, 1275 sakin girov götürüldü, 150 nəfərin taleyi isə bu günədək naməlum qalıb. Şəhər yerlə-yeksan edildi. Həmin faciəvi gecə zamanı 487 nəfər Xocalı sakini ciddi şəkildə şikəst edildi və onlardan 76 nəfəri uşaqlardan ibarət idi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini və 130 uşaq isə bir valideynini itirdi. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürüldü.

Erməni vandalizmi nəticəsində tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji önəmə malik Xocalı şəhəri, sözün əsl mənasında, işğalın nəticəsində xarabalığa çevrilib. Ermənilərin insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Bununla yanaşı, şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silinib.




Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyimünasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

"Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir"- deyən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etdi.

Xocalı soyqırımı əsrin Holokost, Oradur, Lidisa, Xatın və Sonqmi, Srebrenitsa kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız soyqırımı kimi insanlıq tarixinə düşmüş bu qanlı olaylarla müqayisə oluna bilər.XX əsrin faciəsi olan Xocalı soyqırımı işğalçı və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması prosesində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya Ədalət" kampaniyası əvəzolunmaz əhəmiyyətə malikdir. Leyla xanım Əliyeva demişdir: "Xocalıya ədalət" kampaniyası bütün dünyada insanları müharibəyə, ədalətsizliyə qarşı çıxmağa səsləyir. Birgə belə təşəbbüslər irəli sürməklə dünyamızı daha ədalətli və sülh şəraitində yaşada bilərik"."Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasına Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilmişdir.Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir və hazırkı tarixdə 100 minlərlə şəxs və 115 təşkilat onun fəaliyyətini dəstəkləyir. Sosial şəbəkələr, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər oxşar tədbirlər kampaniyanın məqsədlərinə çatmaq üçün istifadə olunan səmərəli vasitələri təşkil edir.

Xocalı soyqırımı - qan yaddaşımız! Xocalı faciəsi təsadüfi hadisə deyil. Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər.

Dünyanın əksər dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyır. "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri dünya ictimaiyyətinin diqqətini erməni vandalizminə cəlb etməsi siyasətinin əsasını təşkil edir.

Xocalıda qətlə yetirilənlərin əziz xatirəsi Azərbaycan xalqının yaddaşında yaşayır. Ulu Öndər Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir. Hər il Xocalı soyqırımının ildönümü ilə əlaqədar minlərlə insanın iştirakı ilə "Ana harayı" abidəsi önündə anım mərasimi keçirilir.

44 günlük "Zəfər Qələbəsindən" sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində bəyan etdi ki: " Xocalı şəhidlərinin qanı yerdə qalmadı".

Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Karneqi analitik agentliyinin əməkdaşı Tomas de Vaala verdiyi müsahibəsində qeyd edib: "Xocalıya qədər azərbaycanlılar elə düşünürdülər ki, bizimlə zarafat etmək olar. Onlara elə gəlirdi ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi qırmalı idik. Belə də oldu. Onu da nəzərə almaq lazımdır ki, onlar arasında Bakıdan, Sumqayıtdan qaçanlar da var idi". Lakin 2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən yenidən bütövləşdi.

**Hazırladı:**
**Mehriban Cəfərova**

# Azərbaycan iki böyük qonşu dövlətlə müttəfiqlik münasibətlərindədir

**Prezident İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüb və onları maraqlandıran sualları cavablandırıb.**

Ölkə rəhbəri Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakterizə edərək bildirib ki, uzun illər boyu Rusiya ilə Azərbaycan arasında olan münasibətlər strateji tərəfdaşların münasibətləri kimi xarakterizə olunub. Bu əlaqələr müttəfiqlik münasibətlərinin bütün parametrlərinə cavab verirdi. Dövlətlərarası münasibətlərin qurulmasından 30 il keçdikdən sonra onlar müttəfiqlik səviyyəsinə çatıb. Bu illər ərzində Rusiya ilə Azərbaycan arasında 200-dən artıq sənəd imzalanıb.

Münasibətlərin indiki formatı ali formatdır. Yəni, bundan yüksək format praktiki olaraq yoxdur. İmzalanmış Bəyannamə uzun illər boyu aparılmış çox ciddi işin nəticəsidir. Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrup sənədin üzərində bir ildən artıq müddətdə birgə çalışıb. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir. Rusiya və Azərbaycan tərəfindən müxtəlif istiqamətlər - ticari-iqtisadi, nəqliyyat, humanitar fəaliyyət və digər istiqamətlər üzrə qəbul edilmiş səkkiz yol xəritəsi reallaşma mərhələsindədir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı fikirlərini KİV rəhbərləri ilə bölüşən İ.Əliyev bildirib ki, bu təşkilatda aparıcı rol Rusiyaya məxsusdur. Bu fakt Qazaxıstan hadisələrindən əvvəl də hamıya aydın idi. Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri, habelə Bəyannamənin 6-cı və 16-cı bəndləri, - zəruri hallarda hərbi yardım göstərilməsi ilə bağlı məsələlərə birbaşa dəlalət edir.

Rusiya ilə Azərbaycan arasında hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir addım artıq atılıb. Ermənistan istisna olmaqla KTMT-nin digər üzvləri ilə Azərbaycanın etimadlı, yaxın, dostluq münasibətlərivar. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlər də normallaşacaq. Azərbaycan Ermənistan ilə sülh müqaviləsi bağlamaq arzusundadır.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə bağlı sualı cavablandıran Azərbaycan Prezidenti bildirib ki, Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq müəyyən mənada artıq başlanıb. Artıq neçə ildir ki, dialoq üzrə tərəfdaşıq. Bu, birinci pillədir. İkinci pillə - müşahidəçilərdir. Azərbaycan bir neçə il bundan əvvəl öz statusunu müşahidəçi statusuna qədər yüksəltmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının Katibliyinə rəsmən müraciət edib.

Suallar çərçivəsində ölkə rəhbəri bildirib ki, Azərbaycanda etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrininAzərbaycana çoxsaylı səfərləri buna sübutdur. Ermənistandan olan komanda Avropa Oyunları kimi idman tədbirlərində iştirak etmək üçün Bakıda olublar. Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycanda təşkil olunan müxtəlif tədbirlərdə iştirak edirlər. Bir neçə il bundan əvvəl Katalikos Qareginin səfəri olub. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağının şahidi olub. Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır.

Rus dilində təhsilin qorunmasının düşünülmüş siyasət olduğunu qeyd edən Azərbaycan prezidenti vurğuladı ki, rus dilində təhsil almaq istəyənlərin - həm azərbaycanlıların, həm qeyri-azərbaycanlıların belə imkanları olmalıdır. Rus sektoruna məktəblərdə tələbat çoxdur. 140 mindən çox uşaq və ali məktəblərin rus bölmələrində 15 mindən çox Azərbaycan vətəndaşı təhsil alır.

Azərbaycan Rusiya və Türkiyə münasibətlərindən danışan İ.Əliyev bildirdi ki, Azərbaycan iki böyük ölkə, iki qonşusu ilə müttəfiqlik münasibətlərinə malikdir. Başqa heç bir ölkə bununla öyünə bilməz. Sirr deyil ki, artıq əməkdaşlığın üçtərəfli formatı da de-fakto formalaşır.

"Müharibənin qurtarmasından keçən bir il üç ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200 nəfərdən çoxdur"- deyən prezident İlham Əliyev bildirdi ki, mina xəritələrinin Azərbaycana təqdim edilməməsi beynəlxalq humanitar hüququnun pozulması deməkdir. Təqdim olunmuş xəritənin dəqiqliyi 25 faiz təşkil edir.

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə 1700-dən çox həlak olmuş erməni hərbi qulluqçusu tapılıb və qaytarılıb. Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir. Ancaq Erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərməli barədə müraciətə baxmayaraq hələ cavab yoxdur. Bu məzarlıqlar hərbi cinayətlərin sübutları olacaq.

Ötən il bərpa işləri üçün 1 milyard 300 milyon dollar ayrılmışdı. Artıq Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin Baş planları işlənib hazırlanıb, digər şəhərlərinki də yaxın vaxtlarda təsdiqlənəcək. Hər şey plan üzrə yerinə yetiriləcək, heç bir qarma-qarışıqlıq olmayacaq. "Yaşıl enerji" prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün zonası "yaşıl enerji" zonası və "ağıllı şəhərlər", "ağıllı kəndlər" konsepsiyası olacaq.

**Nicat Novruzoğlu**

## Araz Əlizadə: "Azərbyacan özünə böyük qardaş axtarmır, böyük dost axtarır"

**"Azərbaycana lazımlı müqavilədi. Çünki müttəfiqlik edəndə güclü dövlətlə müttəfiqlik edərlər".**

Bu fikirləri Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə fevral ayının 22-də Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannaməni şərh edərkən bildirib. A.Əlizadə qeyd edib ki, Azərbyacan özünə böyük qardaş axtarmır, böyük dost axtarır:



"Və Rusiya ilə bu münasibətlərin dostluq münasibətlərinin inkişafı, əlbəttəki sevindirici haldır. Və baxın görün, əgər üzünü Amerikaya tutsaydı Amerika öz müttəfiqlərini necə atır. Baxın görün, Ukrayna nə vəziyyətə düşdü. Və ABŞ ona real yardım etmək əvəzinə məsləhət görür ki, Zelenski də Kiyevi tərk etsin. Bu onu göstərir ki, Amerika özü zəifdi. Amerika hal -hazırda istəyir ki, Rusiya ilə Ukrayna arasında müharibə olsun və burdan Amerika bəhrələnsin.

Və ona görə də Azərbaycan Rusiya ilə müttəfiqlik haqqında sazişi bağlayıb. Bu bizim dost - qonşu ölkədi. Və ona görə də bu müttəfiqliyi genişləndirmək lazımdır".

**Nicat**

*Aqil ABBAS*

# *POZDU VƏ ALI BƏYİNKİNİ QAZANDI*

*İşdən yorğun-arğın və dilxor çıxdı. Ona görə yorğun-arğın deyildi ki, çox işləmişdi, onu yorğun-arğın eləyən bu gün də maaşın gecikməsi idi. Deyirdilər ki, Maliyyə Nazirliyi hələ büdcəni açmayıb, ona görə bəlkə heç bu həftə maaş olmadı.*

*Evdən çıxanda da arvad demişdi ki, axşam gələndə kartof-soğan, bir də uşağa süd alarsan. Bütün günü işdə də beynindən kartof-soğan, süd çıxmırdı. Yadına Qorkinin bir kəlamı düşdü: "Əgər axşam evə gedəndə süd almalısansa və pulun yoxdursa, bütün günü beynin qalacaq südün yanında və heç nə yaza bilməyəcəksən".*

*İndi onun beyni təkcə südün yanında qalmamışdı, həm də kartof-soğanın yanında qalmışdı, ona görə heç nə yaza bilməmişdi.*

*Cibini eşələdi, süd alsa kartof-soğan ala bilməyəcəkdi, kartof-soğan alsa süd. Fikirli-fikirli, sallana-sallana avtobus dayanacağına doğru gedirdi. Baxdı gördü ki, bir köşkün qabağına xeyli adam yığılıb, basabasdı. Maraq güc gəldi. Yaxınlaşdı görsün nə məsələdi. İrəli dürtülmək istədi, itələdilər ki, növbəyə dur. Guya növbə vardı. Nəhayət, qabağa soxula bildi. Gördü ki, lotereya satırlar. Alanların arasında belə söhbət gedir:*

*- Deyirlər dünən bir nəfər yüz min udub.*

*- Bizim məhlədə də bir adam əlli min udub.*

*Və adamlar lotereyanı alırlar, pozurlar, sonra da içindən heç nə çıxmadığını görüb ayaq altına atırlar. Yer zibilxanaya dönüb.*

*Arxadan da itələyirdilər ki, alırsan al, almırsan cəhənnəm ol çıx sıradan.*

*Day əziyyət çəkib girmişdi basabasa, dedi, bir bəxtimi sınayım.*

*Keçmişdə də belə lotereyalar vardı, amma onu pozmurdun, kənarlarını kəsib atırdın içindən bir kağız çıxardı və udduğun ora yazılardı, əgər uda bilsəydin.*

*Nə isə, dedi Allah Kərimdi, kartof-soğanın, ya da südün pulunu çıxarıb verdi və bir lotereya aldı, basabasdan çıxdı. Amma pozmadı. Lotereya əlində girdi avtobusa. Yadından çıxmışdı maskanı da taxmamışdı. Gördü avtobusdakılar ona birtəhər baxır, başa düşdü, tez çıxarıb maskasını taxdı. Bir yer tapıb oturdu, lotereya biletini böyük bir ümidlə yenə də əlində tutmuşdu. Xəbəri yox idi ki, bu ümid onun üzünə işıq salıb.*

*Yanında oturan onun əlində lotereya biletinə baxıb sonra üzündəki işığı görüb soruşdu:*

*- Qardaş, deyəsən udmusan?*

*Özündən asılı olmayaraq başıylə işarə elədi ki, hə.*

*Yanında oturan:*

*- Bərəkətli olsun.*

*- Sağ ol.*

*Fikirləşdi ki, 100 min udsa yaman olar - bir ev alar, canı kirayə qalmaqdan qurtarar. Bir dənə də maşın alar taksi kimi istifadə edər, heç olmasa hər axşam evə əlidolu gedər. Onsuz da nə qəzetçilikdən, nə də yazıçılıqdan bir şey qazana bilmir. Beynində 100 minin xəyallarını qururdu. İlahi, evdə arvad-uşaq necə sevinəcək, dost-tanış təbrikə gələcək, qohum-əqrəbanın içində paxıllığını çəkən, bəxtəvər gətirənlər də olacaq.*

*Bilet hələ də əlində idi.*

*Yanında oturan:*

*- Qardaş, salıb itirərsən. Qoy cibinə, özün də muğayat ol, indi cibgirlər doludu.*

*Bileti qoydu qoltuq cibinə, ürəyinin üstünə, əlini də qoydu sinəsinə.*

*Yenə məbləğ beynində fırlanırdı: 100 min çox olar, gözügöyərmiş olma, elə 50 min də bəsdi. Və başladı 50 minin xəyallarını qurmağa.*

*Bu xəyallarla avtobusdan məhlədə düşdü və getdi evə tərəf. Evə yaxınlaşdıqca yenə beynində məbləği götür-qoy edirdi ki, əşi, 50 min də çoxdu, Allah 10 minə bərəkət versin. Borcun-xərcin verər, uşaqlara da əyin-baş alar, qalanına da üç-dörd ay birtəhər dolanar, üç-dörd aydan sonra da Allaha pənahdı.*

*Nəhayət, çatdı evə. Hələ üzündə işıq sönməmişdi.*

*Arvadın birinci sözü bu oldu:*

*- Ay kişi, uşağa süd almısan?*

*- Yox, arvad, lotereya almışam. Deyirlər yüz min pul udmaq olur.*

*- Allah sənə ağıl versin, gözlə, birdən iki yüz min olar.*

*- Nəhs-nəhs danışma, sən bir çay düzəlt içim, sonra rahat pozum.*

*Arvad gedib çay gətirdi. Udmuş adamlar kimi çayı ləzzətlə içdi, sonra pozdu. Gözlərinə inanmadı. Baxdı, baxdı və durdu başladı oynamağa. Arvad-uşaq təəccüblə baxırdı.*

*- Ay kişi, uddun?*

*- Hə, arvad, uddum.*

*Pozduğu yerdən bir şəkil çıxmışdı, baş barmaq iki barmağın arasından elə qəşəng uzanıb çıxmışdı ki!..*

## BİR İNSTİTUTUN HAZIRLAYA BİLƏCƏYİ BİR KİTAB

**Amma bu kitabı bir institut hazırlamayıb, tədqiqatçı-jurnalist Nazir Əhmədli hazırlayıb: "Zəngəzur qəzasının kameral təsviri". Həm də bu, Nazir Əhmədlinin bu mövzuda birinci kitabı deyil. Bundan əvvəl də Qərbi Azərbaycanın, indiki dillə desək, Ermənistanın ərazisindəki qəzaların kameral təsvirini tədqiq edib, öyrənib və kitab halında buraxıb.**




Bu ensiklopedik bir kitabdır. Zəngəzurdakı kəndlərimizin nəinki tarixi əks olunub bu kitabda, həm də bu ərazilərdə yaşayan soydaşlarımızın şəcərələri dəqiqliklə verilib. Ulu Öndər Heydər Əliyevin şəcərəsindən başlanan kitabda Əbülfəz Elçibəyin, Xosrov bəy Sultanovun, Məmməd Arazın, bütün Zəngəzur bəylərinin, özü də tək bəylərinin yox, adi rəiyyətin də soykökləri haqqında çox dəqiq məlumatlar var.

Kitab ermənilərin ərazi iddialarına çox layiqli bir cavabdır. Qarabağ xanlığının ərazisi olan Zəngəzur bölgəsinin siyasi baxımdan qızğın diskussiyalar müstəvisinə çıxarılmasında və aktuallaşdırılmasında bu əsər mühüm rol oynaya bilər.

Zəngəzur bölgəsi haqqında müxtəlif arxivlərdə aşkar olunan və nəşr edilən tarixi mənbələr mühüm siyasi və elmi əhəmiyyət daşıyır.

Kitabda yer alan qiymətli arxiv sənədləri də həmin qəbildəndir. Əsərdə Zəngəzur qəzasının tarixi coğrafiyası, əhalinin sayı, etnik tərkibi və demoqrafiyası, yerləşməsi, sosial-iqtisadi vəziyyəti haqqında geniş məlumat verilir. Kameral təsvirin materialları əsasında qəzanın yer və şəxs adları haqqında da ətraflı məlumatı bu kitabda əldə etmək mümkündür.

Belə bir qiymətli kitabı minbir əziyyətlə araya-ərsəyə gətirən Nazir Əhmədlini təbrik edirik. AMEA-nın Milli Tarix Muzeyi Elmi Şurasının qərarı ilə nəşr olunan bu kitab xalqımız üçün çox qiymətlidi.

**Nazir Əhmədlidən yeni qiymətli əsərlər gözləmək arzusuyla:**

**Aqil ABBAS**



*Ədalət Muradov*

# "Azərbaycan elminə ayrılan pullar bizə Nobel mükafatı qazandıracaq?"

**"Azərbaycanda elmin qeyri-qənaətbəxş vəziyyəti sirr deyil. Bunun əsas səbəblərindən biri kimi elmin maliyyələşmə səviyyəsinin inkişaf etmiş ölkələrlə müqayisədə çox aşağı səviyyəsi göstərilir".**

**Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov "facebook"da bildirib.**

**Onun fikrincə, bu, doğrudur və heç kim bu fikri şübhə altına almır və almamalıdır: "Bu zaman ortaya başqa sual çıxır. Hesab edək ki, elmin maliyyələşməsində ciddi artımlar baş verdi və tələb olunan həcmdə pul ayrıldı. Doğrudanmı bundan sonra Azərbaycanda elm inkişaf edəcək və dünya elmi-lə müqayisə ediləcək səviyyəyə yüksələcək? Doğrudanmı elmə ayrılan böyük pullar azərbaycanlı alimləri rəqabətqabiliyyətli edəcək? Doğrudanmı elmə ayrılan böyük həcmdə pullar ciddi elmi kəşfləri təmin edəcək, Azərbaycan elminə Nobel mükafatı qazandıracaq? Doğrudanmı?... Doğrudanmı?..."**

**Rektorun sözlərinə görə, şübhəsiz ki, ki, elmin inkişafı üçün elmə ayrılan vəsaitin həcmi çox vacibdir: "Həm də, şübhəsizdir ki, elmdə maliyyələşmə həlledici amil deyil!"**



*Eminquey*

# 02.22.2022 ... "Lenin Ukraynası"

***Siyasətlə nə indi yaxından-uzaqdan əlaqəm var, nə də heç bundan sonra da olacağını düşünmürəm. Amma bununla yanaşı uzun müddətdir ki, dünyada gedən proseslərə gələn siyasi şərhləri oxuyuram. İstər bizimkilərin, istərsə də qardaş türklərin. Vəziyyət bu ki, siyasi şərhlər günə, hətta saata uyğun verilir. O səbəbdən ki, bugün Ukrayna ilə Rusiya arasında müharibə mövzusu gündəm olur, sonra Putin başqa qərar verir. Bu qərar müzakirə mövzusuna çevrilir, hamı müharibədən əlini üzür, sabahı Putin müharibəyə başlayır. Vəziyyət bu qədər dinamik və gərgindir.***

***"Sözcü"nün yazarı Deniz Zeyrekin köşəsində rastlaşdım. O yazır ki, Azərbaycan Müsavat Partiyasının sədrinin xarici əlaqələr üzrə müavini Səxavət Sultanlı fevralın 21-i Putinin gün/ay/il rəqəmləri eyni olan tarixləri sevdiyini və Gürcüstanı 08.08.2008 tarixində işğal etdiyini yazır və Rusiyanın 02.22.2022 tarixində Ukraynaya girə biləcəyi təxminini paylaşır. Qəribə olan budur ki, rus tankları məhz bu tarixdə, hətta 22-ci dəqiqəsində Ukraynanın Donbas bölgəsinə girməyə başladı. Yəni Səxavət bəy haqlı çıxdı.***

***Rəqəmlərdəki bu incə məqamın təsadüf olmadığı Səxavət bəyin paylaşımında da çıxdı. Çünki bu cür simvolların eyni zamanda casuslar müharibəsi olan II Dünya müharibəsində çox istifadə olunduğunu, Putinin də o casuslar müharibəsinin baş aktyoru olan KQB-nin köhnə agenti olduğunu bilirəm.***

***O, həm də rəqəmlərin mistikasına inanan adamdır.***

***KQB Putinə sadəcə simvollara önəm vermək vərdişini deyil, eyni zamanda bir "taktikaçı və strategist" olmaq xüsusiyyətini qazandırmışdı.***

***Putin Ukraynaya girməmişdən öncə nə deyirdi?***

***"Leninin dövlət quruculuğu prinsipləri adi səhvdən qat-qat pis idi. Sovet Ukraynası bolşevik siyasəti nəticəsində formalaşıb. Bu gün biz Ukraynanı "Vladimir İliç Lenin Ukraynası" adlandıra bilərik. Lenin, Ukraynanın yaradıcısı və memarı. Arxiv sənədləri bunu təsdiqləyir, o cümlədən Leninin Donbası Ukrayna ilə birləşdirən sərt əmrləri".***

***Putinin Ukraynanın X və XI yüzilliklərdə nə vəziyyətdə olduğuna dair cümlələrini nəzərə alsaq, bu sözlərin tərcüməsi budur: "Rusiyada Bolşeviq inqilabı yaşanmasa, rus imperiyası davam etsə, Ukrayna adlı bir ölkə olmayacaqdı".***

***Deniz Zeyrekdən ilhamlanıb və öz bildiklərimə, gördüklərimə söykənib yazıram ki, bu çıxış həqiqətən də tarixi çıxışdır. Putinin rus milliyətisi və ekspansionist siyasətini (biz ona imperialist siyasət deyirik) ortaya qoyur. Ukrayna haqqında dedikləri isə həqiqətən çətin həzm olunan sözlərdir. Yəni Putin Ukraynanın varlığını inkar edir. Lap Hitlerin II Dünya müharibəsində Polşa haqqında dediyinə bənzədi.***

***Putin Krımda da, Çeçenistanda da, Gürcüstanın muxtar ərazilərində də, Belarusda da nə etmək istəyirdisə, bu da o siyasətin davamıdır.***

***Müharibə siyasətin başqa yollarla davamın başqa bir şey deyil.***

***Rusiya da öz siyasətinə bu yolla davam etdi. Bundan 8 il qabaq 2014-cü ildə müstəqillik elan edən Donbas bölgəsinin Donetsk və Luqansk şəhərlərini əvvəlcə tanıdı, sonra da əsgər göndərib nəzarət altına aldı.***

***Baxmayaraq ki, 2015-ci ildə Minsk razılaşması ilə muxtariyyətin verilməsi ilə seçkilərin keçirilməsinə qərar verilib.***

***İstənilən halda, Rusiya ilə Ukrayna uzaqdan qardaşdırlar. Böyük miqyasda insan itkisinə inanmıram. Heç Rusiya vətəndaşları da bu duruma haqq qazandırmazlar.***

# Şəhidin son sözü nə oldu?



**Müharibənin ən ağır anı idi. Bir əsgər dostunun qan içində yerə yıxıldığını gördü. Əsgər tez komandirin yanına gəlir və deyir:**

***- Komandir, icazə verin gedim dostumu gətirim.***

***- Dəli olmusan?! Getməyə dəyməz. Dostun dəlik-deşik olub, bəlkə də ölüb. Öz həyatını təhlükəyə atma!***

Əsgər israr edirdi, sonra komandir əsəbləşərək deyir:

***- Yaxşı, get!***

Necə olursa əsgər yaralanmış dostunu yıxıldığı yerdən gətirə bilir. Birlikdə qayıtsalar da dostu ölür. Komandir əsgərə deyir:

***- Sənə dəyməz demişdim. Dostun sonda öldü, öz həyatını boş yerə təhlükəyə atdın, dəyərdi buna?***

***- Dəyərdi, komandir, dəyərdi. Mən onu gətirəndə o hələ ölməmişdi. Onun son sözləri mənim üçün dünyaya dəyərdi.***

"Son sözü nə oldu?" - deyə komandir soruşur.

Əsgər isə hıçqıraraq dostunun son sözlərini təkrarladı:

***- MURAD, GƏLƏCƏYİNİ BİLİRDİM...***

**Ötərxan Eltac**

# Moskva Bəyannaməsi hər iki ölkənin üzərinə ciddi öhdəliklər qoyur

**Azərbaycan öz milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdür. Beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ edən Azərbaycan multilateralizmə,qlobal həmrəyliyə və beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verir. Azərbaycanın BMT-dən sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına hazırkı sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər və atdığı praktiki addımlar bunu təsdiq edir.**

### *Qonşu ölkələrlə yüksək səviyyəli münasibətlərin qurulması...*

...Prezident İlham Əliyevin prioritet hesab etdiyi sahələrdəndir. Vətən müharibəsində tarixi Zəfər qazanılmasında bu amil böyük rol oynayıb. Prezident İlham Əliyev 2021-ci il noyabrın 20-də xalqa müraciətində Ermənistanı nəzərdə tutaraq deyib: "Digər tərəfdən, qonşularla normal münasibət qura bilməyən ölkə necə inkişaf edə bilər?"

Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri ölkəmizin təhlükəsizliyi üçün əlavə zəmanət əldə etmək deməkdir. 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalayıblar. Sənəd hər iki ölkənin parlamentləri tərəfindən təsdiq olunub. Bəyannamə Türkiyə ilə Azərbaycan arasında münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldib, Azərbaycan öz təhlükəsizliyi üçün əlavə zəmanət əldə edib.

Azərbaycan türk dövlətləri ilə münasibətlərə mühüm önəm verir. 2021-ci ildə adı Türk Dövlətləri Təşkilatına dəyişdirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2009-cu ildə Naxçıvan sazişinə əsasən təsis edilməsi Azərbaycanın öz milli kimliyinə, kökünə verdiyi önəmin bariz nümunəsidir.

Azərbaycanın qonşu Gürcüstan və İranla münasibətləri yüksək səviyyədədir. Çoxşaxəli xarici siyasət gündəliyinə uyğun olaraq ölkəmizin Avropa İttifaqı ilə münasibətləri də yüksələn xətlə inkişaf edir. Cari ilin mart ayında Bakıda Azərbaycan və Avropa İttifaqı arasında növbəti təhlükəsizlik dialoqu keçiriləcək. Azərbaycan bu ilin birinci yarısında Avropa İttifaqı ilə ikitərəfli saziş üzrə danışıqları bitirmək və sazişi imzalamaq niyyətindədir. Azərbaycanın Avropanın enerji təchizatında və enerji təhlükəsizliyinin təmin edilməsində çəkisi durmadan artır. Azərbaycan Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin təşəbbüskarıdır. Cənub Qaz Dəhlizi təkcə Avropaya enerji marşrutu deyil, həm də enerji mənbələrininşaxələndirilməsi layihəsidir.

Ölkəmizin NATO ilə münasibətləri də uğurla inkişaf edir. 2021-ci il dekabr ayında Prezident İlham Əliyev Brüsseldə NATO-nun baş katibi YensStoltenberq ilə görüşüb. Bu il fevralın 15-də Prezident İlham Əliyevlə telefon söhbəti zamanı Yens Stoltenberq Avropanın etibarlı qaz təchizatçı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib.

Sözsüz ki, artan beynəlxalq nüfuz ölkənin inkişaf perspektivlərini müəyyən edir. Müstəqil, öz milli maraqlarına əsaslanan çoxşaxəli siyasət Azərbaycanın beynəlxalq arenada rolunun və nüfuzunun yüksəlməsinə, region ölkələri, dünyanın güc mərkəzləri ilə etibarlı və qarşılıqlı hörmətə əsaslanan münasibətlərinqurulmasına və onların inkişafına şərait yaradıb.



Bu gün dünyanın bütün nəzərlərinin yönəldiyi Ukrayna ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir və bu barədə mövqeyi tam aydındır. Azərbaycan heç vaxt özünün üçüncü ölkələrə qarşı istifadə olunmasına imkan verməyib. Prezident İlham Əliyevin Ukraynaya 14 yanvar 2022-ci il tarixli səfəri zamanı bu mövqe bir daha ifadə olunub.

### *2022-ci 22 fevral tarixli Moskva Bəyannaməsi*

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannaməsi ilə Azərbaycan və Rusiya arasında münasibətlər keyfiyyətcə yeni müttəfiqlik səviyyəsinə yüksəlir. Bəyannamənin 43 bəndi var və qarşılıqlı fəaliyyətin ən mühüm sahələrini əhatə edir.

Bəyannamə ilə müəyyən olunmuş əməkdaşlığın əsas prinsipləri və strateji sahələri genişdir - qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik, milli maraqların aliliyi, beynəlxalq münasibətlərin qəbul olunmuş norma və qaydalarına riayət, qarşılıqlı fəaliyyət, Qafqaz və Xəzər regionlarında sabitlik naminə əməkdaşlıq, tərəflərin təhlükəsizlik maraqlarının qorunması, məsləhətləşmələr mexanizminin yaradılması, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması və Rusiya Federasiyasının vasitəçilik rolu, uzunmüddətli sülh naminə əməkdaşlıq, ölkələrin ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətin qarşısının alınması, hərbi-texniki və siyasi əməkdaşlıq, maliyyə institutlarının əməkdaşlığı, tranzit-nəqliyyat fəaliyyətinin potensialının inkişafı, atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində qarşılıqlı faydalı əməkdaşlıq, informasiya-kommunikasiya texnologiyaları sahəsində birgə layihələrin inkişafı, aqrar-sənaye kompleksi sahəsində əməkdaşlıq, səhiyyə sahəsində əməkdaşlıq, parlamentlərarası əməkdaşlıq, humanitar sahəsində əməkdaşlıq.

### *Bəyannamənin əhəmiyyəti*

Bəyannamə tərəflər arasında bərabərhüquqlu münasibətləri yüksək səviyyədə tənzimləyən sənəddir, hər iki tərəfin, o cümlədən də Rusiyanın üzərinə ciddi öhdəliklər qoyur. Bu öhdəlik Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, separatizmə qarşı mübarizə, bir birinin daxili işlərinə qarışmamaq və digər məsələləri əhatə edir.

Azərbaycanın ikitərəfli münasibətləri heç vaxt üçüncü tərəfə qarşı yönəlməyib. Azərbaycan Qoşulmama Hərəkatının üzvü və fəaliyyətdə olan sədridir. Azərbaycan çoxşaxəli, öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdür, onun digər ölkələrlə münasibətləri heç vaxt üçüncü tərəfə qarşı yönəlməyib.

Türkiyə ilə imzalanmış Şuşa bəyannaməsi kimi, Rusiya ilə Moskva bəyannaməsi də Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə zəmanət verir. Azərbaycan öz müstəqil siyasətinə, təhlükəsizliyinə əlavə zəmanət qazanır.

İmzalanmış Bəyannamə Azərbaycanı daha da gücləndirir. Vətən müharibəsində əldə etdiyimiz zəfərdən sonra Cənubi Qafqazda yeni bir regional nizam, konfiqurasiya formalaşır. Bu yeni konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Bu mənada, hər iki ölkə ilə müttəfiqlik bəyannamələrinin imzalanması bu yeni konfiqurasiyanı rəsmən təsbit edir. Qazandığımız hərbi zəfərin siyasi-diplomatik cəbhədə daha da möhkəmləndirilməsi, Azərbaycanın regionda yaratdığı yeni reallığın tam olaraq qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Hər iki bəyannamə bu məqsədə xidmət edir. Sürətlə dəyişən, təhdidlərin durmadan artdığı bir dünyada bütün güc mərkəzləri ilə münasibətləri ən yüksək səviyyəyə çatdırmaq ölkəmizin milli təhlükəsizliyinin qorunmasını təmin edir. Türkiyə və Rusiya ilə müttəfiq olmaq, habelə yaxın zamanlarda Avropa İttifaqı ilə ikitərəfli sazişin imzalanması perspektivi peşəkar diplomatiya, habelə siyasi iradə, güc və müvafiq bacarıqlarının təzahürüdür.

### *Rusiya bizim əsas tərəfdaşımızdır*

İşğaldan azad edilmiş ərazilərdə aparılan işlərdə Rusiya şirkətləri iştirak edir. Bu günə qədər artıq Rusiya şirkətlərindən 14 sifariş alınıb. Bu sahə əməkdaşlığın yeni sahəsidir. O, həm praktiki baxımdan faydalı olacaq, həm də qarşılıqlı fəaliyyətimizin səviyyəsini artıracaq.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması yollarının axtarışında Rusiya bizim əsas tərəfdaşımızdır. Bunun üçün imkanlar var. Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağa hazır olduğunu dəfələrlə bəyan edib. Bu müqavilə öz aralarında münasibətləri tənzimləmək istəyən hər hansı ölkələr üçün zəruri olan sərhədlərin dəqiqləşdirilməsi, delimitasiyası və digər məsələləri də əhatə edəcək.

Azərbaycan dinc gələcək əzmindədir. Azərbaycana müharibə lazım deyil. Ərazi bütövlüyünün hərbi yolla bərpa olunması məcburi tədbir idi və müharibədən sonrakı mərhələdə bu məsələni siyasi metodlarla həll etməyə Azərbaycan hazırdır. Rusiya və Azərbaycan birgə səyləri ilə Qafqazda sülhün, Xəzər regionunda və Avrasiya məkanında əməkdaşlığın möhkəmləndirilməsi işində böyük nailiyyətlər əldə olunacaqdır.

**Cari il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 30 illiyidir. Qarşılıqlı investisiyaların artırılması işində çox ümidverici imkanlar var. Nəqliyyat sahəsində, özü də təkcə ikitərəfli formatda deyil, regionda yeni vəziyyət, yeni geosiyasi reallıqlar nəzərə alınmaqla çoxtərəfli, regional formatda əməkdaşlığın dərinləşdirilməsi imkanlarını da mövcuddur.**

**Nicat Novruzoğlu**

# Bütün pullular da cinayətkar deyil



*Səxavət Məmməd*

***İnsan öz doğulduğu torpağa getdiyi üçün saxlanılır, üzr istəmə videosu yayımlanır. Bir şeyi anlaya bilmirəm, üzr videoları nəyə lazımdır? Bunu edənlər, etdirənlər hansı travmaları yaşayıblar ki, insanları üzr istəməyə məcbur edirlər?***

***Ermənilər Kəlbəcərə gedəcək Azərbaycana məxsus maşın karvanını Qarabağda saxlayır, heç bir qurumun səsi belə çıxmır. Cəmiyyət üçün isə maraqsız, mənasız görünür. Ancaq kimsə öz doğulduğu torpağa gedir, saxlanılır, həbs edilir. Özümüzə gələndə bütün qurumlar işləyir, ancaq erməniyə gələndə kar, kor, lal oyunu.***

***Qarabağda hər saxlanılan şəxsi işğaldan azad edilmiş əraziyə qanunsuz daxil olmaqda ittiham edib, ya pul cəriməsi kəsirlər, ya da həbsə göndərirlər. İnsanlar Qarabağı görmək üçün nə qanad açıb uçurlar, nə də tunel qazıb sızırlar. Hər istiqamətdə postlar mövcuddur. Buraxılış məntəqəsində üç qurum fəaliyyət göstərir: Polis, hərbi polis və daxili qoşunlar. Bundan əlavə, kimsə elə düşünməsin ki, keçmiş cəbhə xətti tam boşdur. Keçmiş cəbhə xəttində, yəni səngərlərdə də sayı az da olsa, xidmət aparılır. Yəni əraziyə qeyri-qanuni girmək halı çox, lap çox azdır. Maşınla "işğaldan azad olunmuş ərazilərə qanunsuz səfər" etmək isə o postları keçmədən mümkünsüzdür. Bu günə qədər o qanunsuz səfərlərə göz yumanların həbs olunduğunu eşidən, üzr videolarını görən olub? Adına Vətən müharibəsi qoyuldu, hər kəs əlindən gələni artıqlaması ilə etdi. Ancaq vətənə getmək üçün mütləq icazə almaq lazımdır. Niyə? İcazəli vətən olur? Şuşaya, Ağdama avtobus səfərləri təşkil olunur. Rentabellik necədir? İnsanlar axın edir? Özünüz aldandığınız şeyə camaatı inandırmaq nəyə lazım? Müharibə vaxtı özü də daxil olmaqla bütün dostlarının, qohumlarının büdcəsini cəbhəyə xərcləyən şəxslər tanıyıram ki, "işğaldan azad olunmuş ərazilərə qanunsuz səfər" adı ilə 10 sutka həbs edildi. Adamlar əsgərinə 200 min manatdan artıq yardım edəndə onlara 10 sutka məzuniyyət vermişdilər ki, vətəninə getdiyi üçün 10 sutka həbs edilirlər? Bizim camaat, "Manaf Ağayev yekəxanalıq edib, ona görə haqq edib tutublar", - deyir. Müharibə vaxtı həmin yekəxana deyilən Manaf Ağayev dəfələrlə əsgərə maşın-maşın yardım gətirib. Hə, əslində, yekəxanadır. Müharibə vaxtı da bunu deyib-gülürdük. Camaat sırf siqaret olsun deyə ucuz siqaret alıb aparanda Manaf Ağayev "Marlboro", "Parlament" kimi bahalı siqaretlər gətirmişdi. Axırda onunla münasibəti olanlar başa saldı ki, bahalı siqaretdənsə, çoxlu siqaret alıb gətirsin.***

***Azərbaycan insanının yekəxana anlayışı heç vaxt mənə çatmayıb. Bir də görürsən, biri deyir ki, Kriştianu Ronaldodan xoşum gəlmir. Səbəbini soruşduqda isə, "Yekəxanadır", - cavabını verir. Adam yaşayan və oynayan canlı əfsanədir. Dünyada ən çox qol vuran futbolçudur. Qırmadığı rekord qalmayıb, qazanmadığı və qazandırmadığı kubok, mükafat, medal qalmayıb, ancaq azərbaycanlı deyir, yekəxanadır.***

***Ümumiyyətlə, son vaxtlar Azərbaycanda bolşevik düşüncə tərzi sürətlə yayılır. Kimin pulu, kimin imkanı var, düşmən elan edilir. O şəxsin başına gələn ən pis şeyə belə sevinirlər. Pullu olmaq, imkanlı olmaq cinayət deyil, günah əməl sayılmır. Bütün pullular da cinayətkar deyil.***

***Cinayətkar büdcə vəsaitini şəxsi cibi kimi istifadə edənlərdir. Rüşvətsiz iş görməyənlərdir. Manafı Manaf edən elə sizsiniz də. Sanki hamısı toyuna Jennifer Lopezi gətirir, bütün günü Eminemi dinləyir, Hans Zimmerin bəstələdiyi musiqilər altında düşünürlər.***

***Kim gedib Qarabağda yeyib-içir, hamısına günahkar damğası vurulur. Qarabağ gedib yas saxlamaq, qəmli-qəmli gəzmək yeridir? Qarabağa gedən oruc tutmalıdır? Əgər elədirsə, o qədər otellərin, istirahət mərkəzlərinin, turizm zonalarının planları niyə qurulur? Gələn turistlər qəmli-qəmli əylənəcək? Gülüb-əylənən, rəqs edən turisti qamçılayacağıq?***

***Qarabağ ora azad getmək istəyənlər üçün azadlığından keçəcək qədər azaddır.***

## *351 deputat da sanksiyaya məruz qalıb*

**Avropa Birliyi bu gün Donbasdakı üzdəniraq respublikalara hərbi müdaxilə edən və onları müstəqil dövlət kimi tanıyan Rusiyaya qarşı tətbiq etdiyi sanksiyanın tam siyahısını açıqlayacaq .Bu barədə təşkilatın xarici işlər komissarı Jozep Borrel məlumat verib. "Azadlıq" radiosusa özünün Avrokomissiyadakı mənbələrinə istinadən sanksiyaya məruz qalası bəzi şəxslərin adlarını açıqlayıb. Rusiya Federasiyası Prezident aparatının başçısı Anton Vayno, müdafiə naziri Sergey Şoyqunun da adlarının yer aldığı siyahıda "Russia Todey" teleşəbəkəsinin baş redaktoru Marqarita Simonyanın, üzdəniraq teleaparıcı Vladimir Solovyovun, XİN sözçüsü Mariya Zaxarovanın da adları var.**

J. Borrelin sözlərinə görə sanksiya siyahısında 27 nəfər Rusiya vətəndaşı və şirkətinin adı var. Bundan əlavə Dövlət Dumasının 351 deputatı da sanksiyaya məruz qalkıb ki, bundan sonra onların da AB ölkələrinə səfər etmələri yasaqlanacaq və həmin ölkələrdə olan aktivlər və şəxsi hesablar bağlanacaq. AB rəsmisinin bildirdiyinə görə sanksiya siyahısında Putinin adı yoxdur.

Başqa bir məlumat isə okeanın o tayından gəlib. ABŞ - artıq rəsmi şəkildə bəyan edilib ki, artıq çoxdan istismara hazır olan "Şimal axını" layihəsini işə salınması mümkün olmayacaq ki, bu da faktiki olaraq havaya sovrulmuş 11 milyard dollar deməkdir.

**Adalet.az**

*Mehman CAVADOĞLU*

# İki millət, iki dövlət

***Son aylarda Ukrayna ətrafında cərəyan hadisələrin acınacaqlı dramatik sonluğu bir həqiqəti ortaya çıxardı: bugünkü dünya düzənində diplomatiyanın rolu hətta soyuq müharibə dövründəki səviyyədən də aşağı düşüb. Bir aydan çoxdur ki, bəzi aparıcı dünya ölkələrinin rəhbərləri bir-birlərinin ardınca və sanki bir-birlərinin bəhsinə sülh göyərçini libasında Kremlin yolunu yağır eləmişdi. ABŞ rəsmilərisə daha fərqli mövqe sərgiləyir və az qala, hər gün həyəcan və sensasiya dolu açıqlamalar verirdilər. Hərçənd, bu aşırı canfəşanlıq və prosesləri daha da körükləyən sərt bəyanatlar çox vaxt işə xeyirdən çox ziyan vurur və prezident Zelenskinin təbirincə desək, əhali arasında lüzumsuz ajiotaj yaradırdı.***

***Ən sərt ritorikayla sanki görəvinə başlayan kimi üzləşdiyi Əfqanıstan rüsvayçılığını Ukrayna cəbhəsində kompensasiya eləməyə çalışan ABŞ prezidentinİN özü çıxış eləyirdi. Ancaq bacarmadı, üstəlik, istər hərəkətlərində, istərsə də danışığında buraxdığı saysız-hesabsız "xoruzlara" görə az qala anlaqsız adam imici qazanaraq özünü əfqan bataqlığı qədər çıxılmaz bir labirintin içinə saldı.***

***Dünənsə o, Ukrayna məsələsi ətrafındakı növbəti açıqlamalarının birində Rusiyanın Donbasa qoşun yeritməsini Ukraynanın işğalının başlanğıcı adlandırdı. Hərçənd, hazırda Ukraynanın işğalının 2014-cü ildə Krımın işğalıyla başladığını Fransanın xarici işlər naziri Jan-İv Le Drian qarışıq bilməyən bir kimsə tapmaq çox çətindir.***

***Xatırlayırsınızsa Putinlə görüşdən ən optimist bəyanatlarla çıxan xarici ölkə rəhbəri Emmanuel Makron olmuşdu. Onun Kremldəki 5 saatlıq görüşün ardından verdiyi açıqlamalarının həm məzmunundan, həm də ruhundan elə çıxırdı ki, bütün məsələlər üzrə razılığa gəlinib və böhran yaxın günlərdə öz həllini tapacaq. Dünənsə xarici işlər naziri Jan-İv Le Drian Normand formatının ölmədiyini, onun nizamlama prosesində rolunun artırılması planlarından-zaddan danışırdı. Bu həmin Le Driandı ki, bizim 44 günlük Vətən Müharibəmizdən sonra da Minsk qrupunun ətəyindən bərk-bərk yapışaraq, onu yenidən 30 ildə öhdəsindən gələ bilmədiyi bir işin altına soxmaq üçün dəridən-qabıqdan çıxmaqla məşğuldur.***

***Rusiya Donbasa yeritdiyi qoşunlarının da adını "sülhməramlı" qoyub. Artıq keçmiş SSRİ-nin dörd bir tərəfinin rus sülhməramlıyla əhatə olunmasına baxmayaraq, hələ ki, onların məramının nədən ibarət olduğunu Putindən başqa bilən bir kimsə yoxdur. Çünki bu sülhməramlıların nə beynəlxalq, nə də ən azından Rusiya parlamenti səviyyəsində formal bir statusu da müəyyənləşməyib.***

***Bildiyimiz qədər sülhməramlı qoşun, necə deyərlər, dalaşan tərəflərin qarşılıqlı razılığıyla münaqişə bölgəsinə yeridilir və yaxud yeridilməlidir. Məsələn, "rus sülhməramlıları"nın Qarabağa gəlişi yarıxoş-yarızor qarşı duran tərəflərlə razılaşdırılsa da, onun "sülh göyərçini" missiyasıyla digər bölgələri işğal etməsində həmin prinsip yerli-dibli gözlənilməyib. Bu qoşunun sülhməramlı kimi rəsmi bir statusunun olmaması, üstəlik, yerləşdiyi bütün bölgələrdə sülhməramlı məramından başqa bütün digər məramlarla görəvləndirildiyi üçün həmin sözü onun üstündən götürərək, sadəcə, "rus qoşunları" kəlməsindən istifadə eləmək məqsədə və reallığa daha uyğun olardı.***

***Paradoks burdadır ki, nəinki "rus sülhməramlıları" deyilən bir kontingentin fəaliyyətinə, hətta bu cür əndrəbadi söz birləşməsinin mövcudluğuna yaxşı halda yumorla, pis halda ironiyayla yanaşan Qərb onların heç bir beynəlxalq mandata sahib olmadan Qarabağa yeridilməsini sürəkli alqışlarla qarşıladı. Çünki həmin qoşunun birmənalı şəkildə ermənilərin yanında yer alacağını, sülhün qorunmasını təmin etmək əvəzinə bir tərəfin, həm də onlara lazım olan tərəfin maraqlarının təmsilçisi rolunda çıxış edəcəyini yaxşı bilirdi.***

***Donbasın işğalından sonra Qərb-Rusiya qarşıdurması növbəti mərhələyə - sanksiyalar mərhələsinə qədəm qoydu. İndiyə kimi Rusiyaya qarşı bu cür təzyiq üsullarından çox istifadə edilib, amma effektsiz olub. Əslində, "effeksiz olub" kəlməsi burda yerinə düşmür, çünki ən yüngül sanksiyanın belə ona məruz qalan tərəfə mənfi təsiri qaçılmaz gerçəklikdir. Sadəcə, avtoritar rejimlərin başçıları öz hikkələri ucbatından belə təzyiqləri görməzdən gəlirlər. Hazırda bu tip kal və gönü qalın ölkələrin ön sıralarında Bizim Quzeydəki və Güneydəki iki böyük qonşumuz gedir.***

***Amma Rusiyaya qarşı tətbiq edilən son sanksiyaların miqyası göstərir ki, qloballaşmış bir dünyada buna duruş gətirmək xeyli müşkül məsələ olacaq. Üstəlik, eyni vaxtda həm ABŞ-ın, həm də Avropa Birliyinin sanksiyasına məruz qalmaq məsələni daha da qəlizləşdirir. Donbas olaylarına kimi Kremllə siyasi-iqtisadi bağları qırmağa meyilli olmayan, bu yöndə okeanın o tayından gələn təzyiqlərdən bəzən birbaşa, bəzən də dolayısıyla yayınmağa çalışan Avropa ölkələri də mövqelərini birmənalı şəkildə dəyişdilər və Vaşinqtonun tərəfinə keçdilər. Məsələn, ABŞ hələ Trampın dövründən "Şimal axını-2" qaz kəməri layihəsindən imtina eləmək üçün Almaniyaya təzyiqlər etsə də, Merkel hökuməti bu təzyiqlərə əhəmiyyət vermədi. Bir neçə ay əvvəl onun yerinə gələn yeni koalisiya hökuməti də Merkelin yolunu getdi. Layihə artıq bitmişdi və onun işə düşməsi ayların, bəlkə də günlərin məsələsiydi. Belə bir vaxtda rəsmi Berlin özünün neçə ildir ciddi-cəhdlə müdafiə elədiyi mövqeyindən çəkildi və layihədən imtina elədi. Busa nə az, nə çox, düz 11 milyard dollar vəsaitin havaya sovrulmasıyla nəticələndi.***

***Nə qədər kal və gönü qalın dövlət olsa belə ölkənin bütün aparıcı banklarının, Putin və Lavrov xaric əsas şəxslərinin, təkcə Dövlət Dumasının 351 deputatının, çoxsaylı iş adamlarının, kommersiya və qeyri-kommersiya təşkilatlarının, media rəhbərlərinin adlarının da yer aldığı bu sanksiyaları həzm eləmək rəsmi Moskva üçün asan olmayacaq. Hətta istənilən sanksiyanın "ikibaşlı" təsir gücünə rəğmən Rusiyaya qat-qat çox ziyan dəyəcək. Amma bu cür arqumentlər "arşınla ölçülməyən, ağılla dərk edilməyən", klassikin sözlərinin davamı olmasın, insan və vətəndaş amili saya sayılmayan heç bir ölkədə keçərli ola bilməz.***

***Kremlin Ukraynaya qarşı avantürist siyasətini, bir az yumşaq desək, təkcə onun əzəli və əbədi opponentləri olan Qərb və ABŞ yox, hətta separatizmlə bağlı özləri də ciddi problemlər yaşayan Çin və Türkiyə kimi ölkələr də müdafiə eləmir. Bir sözlə, hikkəsi üzündən özünü soxduğu bu dar dalandan çıxmaq Moskva üçün o qədər də asan olmayacaq.***

***Putin keçən il Ukraynayla Rusiyanın bizim tərəflərdə dəbdə olan ifadəylə desək, "bir millət, iki dövlət" olması barədə böyük bir məqalə yazmış, Belarusu da bura qataraq üç ölkənin bir dövlətdə birləşməsinin zəruriliyinə eyhamlar vurmuşdu. Bu günsə Ukrayna prezidenti Donbasın işğalıyla əlaqədar çox təsirli bir müraciətlə çıxış eləyib və ruslarla ukraynalıları eyni millət yox, iki min km-lik birgə sərhədləri olan yaxın qonşu, faktiki olaraq "iki millət, iki dövlət" adlandırıb. Hazırda iki min km-lik bu birgə sərhəddə yerləşdirilmiş iki yüz minlik rus qoşunu bütün Ukraynanı işğal eləmək üçün əmr gözləyir. Əgər vur-tut üç-dörd gün əvvəl bu ssenarinin işə salınacağına inananlarla inanmayanlar yarı-yarıydısa, Donbasın işğalından sonra çətin ki, inanmayan bir kimsə tapılsın. Amma bu cür sosial ovqat hələ Putinin mütləq həmin təxribata da əl atacağı anlamına gəlmir. Diktatorların məntiqini anlamaq sağlam düşüncə daşıyıcıları üçün həmişə çətin olub.***

***Necə ki, bu dəfə də çətin oldu. Yazı bitər-bitməz həmin iki yüz minlik ordunun artıq Ukraynanın sərhədlərini aşıb bütün cəbhə boyu hücuma keçmsiylə bağlı məlumatlar məqribdən-məşriqə dünya KİV-nin baş xəbərinə çevrildi. Bizsə yazdıqlarımıza əl vurmadıq, çünki Rusiyanın bu varianta əl atmaq ehtimalını nə əvvəlki yazılarımızda, nə də elə bu məqalədə biz özümüz də istisna eləmirdik. Odur ki, yeni gəlişmələrlə bağlı fikirlərimizi bölüşmək ümüdiylə, hələlik...***



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Qızın iki adaxlısı...

...Bəzən görürsən ki, bir yenilik edirlər, o yenilik tam fərqli bir nəticəni göstərir. Yəni, hər şey yaxşılaşmaq əvəzinə, əvvəlkindən bir qədər də çətinləşir və mürəkkəbləşir. Guya hər hansı bir kadr gəldi, dəyişiklik elədi, yeni sistem qurdu və sağlam atmosfer yaratdı. Amma bu gün biz tam başqa bir hadisənin şahidi olduq. Görürük ki, bəzi yeni təyin olunmuş vəzifəli şəxslər heç əvvəlkilərdən fərqlənmirlər.

Əksinə, bir qədər də işləri düyünə salırlar və düyünə düşmüş işlər insanları çox narahat edir. Hətta təzə gələn vəzifəli şəxs öz əvvəlki sələfinin ölənlərinə rəhmət oxutdurur. Çünki camaat görür ki, heç olmasa qabaqkı rəisin qəbuluna düşmək olurdu, o da yalandan olsa bir vəd verirdi. O da şirin yalanla bir müddət yaşayırdı ki, işləri yoluna qoyacaq. Nə isə...

Bu gün Azərbaycan səhiyyəsi can üstündədir. El dilində demiş olsaq, səhiyyəmiz can verir. Baxmayaraq ki, yeni nazir təyin olunub. Vallah o da gözə görünən bir iş həyata keçirə bilmir. Bir-iki kadr dəyişikliyi ilə heç vaxt inqilab eləmək olmaz. Və o kadrlar da təbii ki, onların tanıdığı və yaxın adamlarıdır. Biz həmişə beləyik. Vəzifəyə keçən kimi savadlı, təcrübəli, istedadlı adam yox, bir çox halda özümüzə simsar və yaxın insanları vəzifə başında əyləşdirə bilirik. Və özümüzə yaxın insanlar da vəzifə kreslosunda oturan kimi millətə, xalqa, vətənə yox, elə özlərinə xidmət edirlər. Bu birinci dəfə deyil ha, həmişə belə olub.

Səhiyyəmizin onda evi yıxıldı ki, onu iki yerə böldülər. Tibb müəssisələrinin bir hissəsi Səhiyyə Nazirliyinə, digər hissəsi isə TƏBİBƏ verildi. Bax, əsl həngamə də bundan sonra başladı. TƏBİB dedi ki, səhiyyənin yiyəsi mənəm, Səhiyyə Nazirliyi də bildirdi ki, elə şey yoxdur. Hər şeyə nəzarət bizim əlimizdədir. İki qurum bir-biri ilə qarşıdurmaya getdi və nəticədə bundan əhaliyə böyük ziyanlar dəydi. Məsələn, hər hansı bir adam xəstəsi koronavirusa yoluxursa, əli-ayağı hər yerdən üzülən adam Səhiyyə Nazirliyinə zəng edəndə deyirlər ki, TƏBİBƏ zəng elə. TƏBİBƏ də müraciət edirsən, dərdini deyirsən, gəlib analiz götürən olmur. Götürsə də, bir həftədən tez ona cavab verilmir. Xəstə qalır Allahın ümidinə. Allahdan ipi üzülməyibsə, yaşayacaq, üzülübsə rəhmətə gedəcək. Bax, elə bil ki, bizdə qızın iki adaxlısı var: Biri Səhiyyə Nazirliyidir, biri də TƏBİB. İndi bunun hansı insanların dərdinə əlac qılacaq, bax, bu baxır onların məsələyə yanaşmasına.

Bir neçə gün bundan əvvəl Quba Mərkəzi Rayon Xəstəxanasında şəkər xəstələri dərman almaq üçün neçə gün növbəyə durublar. Zarafat deyil, şəkəri 600, 700-ə qalxan xəstənin növbəyə durması nə qədər çətin olduğunu heç kim bilməsə də, o xəstəliyə düçar olanlar hamıdan yaxşı başa düşür. İndi deyin görək, belə xəstələr günlərlə növbədə durub xəstəxanadan verilən dərmanları ala bilirlərmi?! 3 gün, 4 gün növbə gözləyən adam çox çətinliklə o dərmanı ala bilir, üstəlik də dərmanların hamısını vermirlər. Növbə gözləyən adamların bəziləri məhəccərdən aşaraq içəri keçməyə can atıblar.

Bəziləri keçib, bəziləri də qalıb məhəccərdən kənarda. İndi həmin xəstələr bildirirlər ki, yenə dərmanlarını ala bilməyiblər.

Ümumiyyətlə, rayon xəstəxanalarında nəinki şəkər xəstələri, dializ, ürək-damar və digər xəstələr də pulsuz dərman almaqda çoxlu maneələrə rast gəlirlər. Çünki xəstəxanaların baş həkimləri onların taleyi ilə oynayır, lazımi dava-dərmanları vaxtında vermir, şəkər ölçən aparatları müxtəlif bəhanələrlə onlara verməkdə ləngidirlər. Bir də heç kimə sirr deyil ki, əksər dərmanlar gizli yolla başqa yerə göndərilir və orda satılır. Bunu kim bilməsə də, həmin xəstələr daha yaxşı bilirlər.

Quba Mərkəzi Rayon Xəstəxanasından bildiriblər ki, dərmanlar bütün xəstələrə çatdırılacaq. Eyni zamanda TƏBİBDƏN də bu məsələyə münasibət bildirilib. Ordan da deyiblər ki, yaxın vaxtlarda Quba rayonundakı bütün şəkər xəstələrinə dərmanlar çatdırılacaq. Çox qəribədir ey, niyə yaxın vaxtlarda dərmanlar çatdırılmalıdır?! Elə olmazmı ki, vaxtında həmin dərmanlar Mərkəzi Rayon Xəstəxanasına verilsin və üç mindən çox şəkər xəstəsi öz dava-dərmanını alsın.

Bu cür yarıtmaz fəaliyyətlə insanlara xidmət edən qurum kimə və nəyə lazımdır? Elə hər bir vəzifəli şəxs xidmət etməkdən çox özlərinin maraqlarını düşünür. Bax, onda da belə bir acınacaqlı durum yaranır?

Yəni, şəkər xəstələri günlərlə gəlib Mərkəzi Rayon Xəstəxanasının qarşısında növbəyə durur və onlara veriləcək pulsuz dərmanı ala bilmir. Quba Mərkəzi Rayon Xəstəxanasının qarşısında növbədə duran bir qadın deyir ki, mənim oğlumun şəkəri 600, 700-ə qalxıb. Pulum yoxdur ki, gedib aptekdən dərman alım. Pulsuz dərmanı da üç gündür gəlirəm, növbə gözləyirəm, ala bilmirəm. İndi uşağımın vəziyyəti daha da ağırlaşıb.

Görürsünüzmü, ayrı-ayrı səhlənkar vəzifəli şəxslərin məsuliyyətsizliyi üzündən yüzlərlə, minlərlə şəkər xəstəsi onlara verilən pulsuz dərmanı ala bilmir. Başqa cür də ola bilməz.

Çünki nə vaxta qədər ki, bizdə səhiyyə iki yerə bölünüb və onun iki adaxlısı var, elə belə də olacaq. Yəni, insanlar gözlədikləri tibbi xidmətin keyfiyyətini və xeyrini görməkdə çətinlik çəkəcəklər. Ən azından ona görə ki, kadr dəyişikliyi ilə heç də məsələləri əsassız surətdə həll etmək mümkün deyil. Həmin kadrların düşüncəsi, insanlara münasibəti və vətənpərvərliyi olmalıdır. Əgər bu yeni düşüncə və yeni yanaşma tərzi olmasa, hər şey əvvəlkindən də betər olacaq. Yəni, köhnə hamam, köhnə tas öz yerində qalacaq...



Əlisəfdər Hüseynov

# "RAST"IN AĞSAQQALLIĞI

*Azərbaycan muğamlarının vurğunu olan (mən hətta muğamlarımızdan birini dinləyəndə onun ağladığını görmüşəm!) unudulmaz Bəxtiyar Vahabzadə hələ ki muğamlarımız haqqında ən qiymətli poetik inci olan "Muğam" poemasında " Rast" muğamını aqil, müdrik bir ağsaqqalın qəlbinin səsi, hikmətli nəsihətləri kimi vəsf etmişdi...*

*Ona qədər isə maestro Niyazi 1949-cu ildə bu muğamı simfonik düşüncə müstəvisində yozuub az qala xalqımızın ruhunun himni səviyyəsinə qaldıraraq bütün dünyaya nümayiş etdirmiş, milyonlarla insanı ağzıaşıq şəkild mat qoymuşdu...*

*İndi mən " Rast" haqqında nə qədər bəlağətlə, ritorika ilə danışsam da, yenə azdır, çünki "Rast" haqqında ən dəqiq sözü yalnız " Rast"ın özü deyə bilər.*

*Dostlar, sizi " Əhsən yolu" ilə ifa etdiyim " Rast" muğamını dinləməyə dəvət edirəm...*

*Qoy heç bir ev, ocaq ağsaqqalsız olmasın!*

# Dələduzluq

**Bu gün bir çox insanlar nəinki adi adamlar tərəfindən, hətta doğmaları və yaxınları tərəfindən aldanırlar. Başqa sözlə demiş olsaq, həmin adamlar hər hansı insana inanır, etibar edir və ona dediyi, istədiyi pulu verir, sonra da ala bilmir. Aylarla, illərlə verdiyi pulu almaq üçün həmin adamları axtarıb ya tapır, ya da tapmır. Tapanda isə təbii ki, bu məsələlər məhkəmə müstəvisində həll olunur.**

Etibardan sui-istifadə etmək, kimlərinsə alın təri ilə qazandığı "pulu yeyib" üstündən də su içmək bir çox dələduzlar üçün çox asan bir yoldur. O dələduzlar düşünürlər ki, pulu aldılar, xərclədilər, hər şey bitdi. Amma bu, elə deyil. Çünki haramçılıqla qazanılan pul nə vaxtsa adamın burnundan tökülür və bu əmələ görə həmin şəxslər qanun qarşısında cavab verməli olurlar.

Belə dələduzların qurbanlarından biri də Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi 29/44 A, ev 6 c, mənzil 21-də yaşayan Vüsalə Arif qızı Atayevadır. Amma Vüsalə xanım başqalarından fərqli olaraq öz doğmaları tərəfindən aldanılıb. Keçmiş həyat yoldaşı Faiq Novruzəli oğlu Abdullazadə və onun qardaşı Fərid Novruzəli oğlu Abdullazadə Vüsalə xanımı inandıraraq etibarını qazanıb və ondan iş qurmaq adı ilə külli miqdarda pul alıblar. Belə ki, onlar Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti 46 A ünvanında yerləşən "Burhan FF" adlı qeyri-yaşayış obyektində avtomobil icarəsi ilə məşğul olduqlarını bildirmiş və bu işdə yaxşı qazanc olduqlarını demişlər. Elə Vüsalə xanım da onların dediklərinə inanaraq iki oğlunun yaxşı yaşaması və firavan dolanması üçün bu addımı atmışdır.

Çünki hər iki qardaş onu inandırmışdı ki, bu işdən yaxşı pul əldə ediləcək. İlk vaxtlar onlar Vüsalə Atayevanı şirinlikləşdirmək məqsədi ilə pul da ödəyiblər. Təbii ki, bu pulun ödənilməsi onlara inamı bir qədər artırıb. Onlar isə Vüsalə Atayevanın etibarından və səmimiyyətindən istifadə edərək müxtəlif vaxtlarda 191.950 manat pulu alaraq ona külli miqdarda ziyan vurublar.

Qəribə də olsa deməliyik ki, aylar, illər keçsə də nə Faiq Novruzəli oğlu Abdullazadə, nə də onun qardaşı Fərid Novruzəli oğlu Abdullazadə aldıqları külli miqdarda pulu qaytarmayıblar. Vüsalə xanım hər dəfə pulu istəyəndə onu inandırıblar ki, bir az səbr eləsin, hər şey düzələcək. O da bir az yox ey, illərlə səbr edib, amma yenə də daşdan səs çıxıb, onlardan səs çıxmayıb. Ona görə də Vüsalə Arif qızı Atayeva hüquq-mühafizə orqanlarına müraciət edib və bu işə 16 dekabr 2021-ci il tarixdə Bakı Ağır Cinayət Məhkəməsinin hakimi Zeynal Qurban oğlu Ağayevin sədrliyi ilə məhkəməyə baxış keçirilib.

Məhkəmə prosesində hər iki qardaşın Vüsalə Atayevaya qarşı elədikləri külli miq-



darda dələduzluq faktları tam surətdə sübuta yetirilib. Həmin faktlar həm məhkəmə istintaqı zamanı, həm zərərçəkmişin dinlənilməsində və eləcə də şahid ifadələrində öz təsdiqini tapıb. Zərərçəkmiş Atayeva Vüsalə Arif qızı bildirmişdir ki, o Faiqə və Fəridə inandığı üçün 06 yanvar 2018-ci ildə Fəridə 500 manat, 20 yanvar 2018-ci ildə Faiqə 2000 manat, 21 yanvar 2018-ci ildə Faiqə 4000 manat və 500 ABŞ dolları, 28 fevral 2018-ci ildə Faiqə 3000 manat, 3 mart 2018-ci ildə Fəridə 3000 manat, 16 aprel 2018-ci ildə Faiqə 2000 ABŞ dolları, 27 aprel 2018-ci ildə Faiqə 15.000 manat, 28 avqust 2018-ci ildə Faiqə 3000 ABŞ dolları, 30 oktyabr 2018-ci ildə Faiqə 2900 ABŞ dolları və 5600 ABŞ dolları iki dəfə olmaqla, ümumilikdə, 8500 ABŞ dolları, 10 dekabr 2018-ci ildə Fəridə 10.000 ABŞ dolları, 20 yanvar 2019-cu ildə Fəridə 40.000 manat, 5 fevral 2019-cu ildə Faiqə 10.000 manat, 30 mart 2019-cu ildə Fəridə 10.000 ABŞ dolları, həmin tarixdə Faiqə 8500 ABŞ dolları, 5 aprel 2015-ci ildə Faiqə və Fəridə birlikdə 10.000 manat, 13 may 2019-cu ildə Fəridə 8500 ABŞ dolları, 5 aprel 2019-cu ildə Faiqə və Fəridə birlikdə 10.000 manat, 13 may 2019-cu ildə Faiqə 10.000 manat, 2019-cu ilin iyun ayında Fəridə 9000 manat, 2019-cu ilin avqust ayında Fəridə 8700 manat pul ofisində vermişdir.

Zərərçəkmişin də ifadəsində göründüyü kimi, onun dedikləri və verdiyi ifadələr məhkəmə prosesində öz təsdiqini tapmışdır. Məhkəməyə şahid qismində ifadə vermiş Ağasəlim Namiq oğlu Mehtizadə, Kənan Oruc oğlu Musayev, Ədalət Seyfəddin oğlu Hacıyev, Elmar Murad oğlu Zeynalov bir daha həmin faktları təsdiq etmişdir. Zərərçəkmişin dedikləri və şahid ifadələri onu deməyə əsas verir ki, həqiqətən də hər iki qardaş Faiq və Fərid Vüsalə xanımın etibarından sui-istifadə edərək onu aldatmışlar. Və üstəlik də məhkəmənin çıxardığı qərara baxmayaraq, ona dəymiş ziyanı nə məhkəmə prosesində, nə də sonradan ödəməmişlər. Ona görə də Bakı Ağır Cinayətlər Məhkəməsinin (hakim Zeynal Ağayevin sədrliyi ilə) hökmü ilə Fərid Novruzəli oğlu Abdullazadə 12 il azadlıqdan məhrum edilib. Onun qardaşı Faiq Novruzəli oğlu Abdullazadə isə 6 il 11 ay 28 gün azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.

Zərərçəkmiş Vüsalə Atayeva isə bildirir ki, onlar mənə maddi və mənəvi cəhətdən çox ziyan vurublar. Üstəlik də bu cəza yüngül cəzadır. Təbii ki, külli miqdarda pulu mənimsənilən Vüsalə Arif qızı Atayeva çox çətin duruma düşüb. Çünki ona dəymiş ziyan ödənilməyib və nəticədə bu xanım həmin sıxıntıların psixoloji gərginliklərini yaşayır. Nəticə isə o qədər ürəkaçan deyil.

**Bir insanın illərlə qazandığı vəsait iki dələduz tərəfindən mənimsənilib və üstündən də su içilib. Hər halda, yuxarı instansiya məhkəməsində bu məsələlərə baxarkən Vüsalə Atayevaya dəymiş ziyanın ödənilməsi diqqət mərkəzində olmalıdır. Amma onun dediyinə görə, nəinki ona dəymiş ziyanı təqsirkar tərəf ödəmək istəyir, əksinə, onların havadarları hər iki qardaşı müxtəlif yollarla azadlığa çıxarmaq istəyirlər. Amma bizdə qanun şahdır, şah qanun deyil. İnanmaq istərdik ki, Vüsalə xanıma dəymiş ziyan ödəniləcək.**

**Faiq QİSMƏTOĞLU**

# *Fəxrəddin Altun: "Hər bir irqçi hücum yeni terror aktlarını da özü ilə gətirir"*

**Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi tərəfindən Hanau hadisəsinin ikinci ildönümü münasibətilə "Hanau qurbanları üçün ədalət axtarışı: Almaniyada radikal sağçı terror təhlükəsi" adlı panel təşkil edilib.**

Adalet.az xəbər verir ki, panelə videomesaj göndərən F.Altun 19 fevral 2020-ci ildə Almaniyanın Hanau şəhərində irqçi terror aktı həyata keçirildiyini xatırladaraq, hücumda həyatını itirənlərin xatirəsini anmaq üçün panel təşkil etdiklərini söyləyib.

Başda Hanau hadisəsi olmaqla Almaniyada və dünyanın müxtəlif bölgələrində meydana gələn terror hücumlarının qurbanlarının xatirəsini ehtiramla yad edən, yaxınlarına səbr diləyən Altun heç vaxt terrora boyun əyməyəcəklərini deyib.

Almaniyada və dünyanın müxtəlif bölgələrində başda Hanau hadisəsi başda olmaqla terror qurbanlarının xatirəsini ehtiramla yad edən, yaxınlarına səbr diləyən Altun "Biz heç vaxt terrora boyun əyməyəcəyik" deyib.

Panelin Almaniyanı pisləmək və ya ona hücum etmək məqsədilə keçirilmədiyini vurğulayan Türkiyə rəsmisi sözlərinə belə davam edib: "Burada bütün almanların irqçi olduğuna dair hər hansı bir iddia irəli sürülmür. Məqsədimiz bir problemin aradan qaldırılmasının ilkin şərtinin onun varlığını qəbul etmək olduğuna inanaraq, Almaniya cəmiyyətinin bu gün üzləşdiyi çox ciddi bir probleme diqqəti cəlb etməkdir. Ona görə də xüsusilə vurğulamaq istərdim ki, burada konstruktiv və həll yönümlü yanaşma nümayiş etdiririk. Bütün məsələmiz ondan ibarətdir ki, milyonlarla türk onilliklər boyu yaşadıqları Almaniyada özlərini "potensial qurban" deyil, "bərabər fərdlər" kimi hiss etsinlər və qorxusuz, təhlükəsiz həyat sürə bilsinlər. Çünki dünyanın harasında olur-olsun hər bir vətəndaşımızın problemi Türkiyə dövlətinin problemidir. Problemi aradan qaldırmaq üçün problemin varlığını qəbul etmək lazımdır. Diaqnoz olmadan müalicə mümkün deyil".

Bu gün Almaniyada irqçilik probleminin siyasətçilər, dövlət məmurları, jurnalistlər tərəfindən inkar edildiyini bildirən F.Altun alman siyasətçilərin irqçi terror



aktlarını pisləməklə yanaşı, mühacirlər üçün olduqca proqnozlaşdırıla bilən bu hücumlardan sonra davamlı olaraq "çaşqınlıqlarını" ifadə etdiklərini vurğulayıb.

"Bu çaşqınlıq ifadəsini ifrat sağçıların güc qazanması ilə yanaşı, irqçilik qatarına minən bəzi siyasətçilər üçün müdafiə mexanizmi kimi görə bilərik. Media da eynilə terror aktları haqqında məlumat verərkən, ağdərili təcavüzkarları "dəli" kimi qələmə verir, ağdərili olmayanları isə "terrorçu" kimi təqdim edir. Almaniyaya xas olmayan bu meyl cəmiyyətin irqçilik günahından təmizlənməsinə və bütün günahın bir ovuc ruhi xəstə avaraların üzərinə atılmasına xidmət edir. Üstəlik medianın qanlı terror aktları xaric, irqçi hücumları gündəmə gətirməməsi də diqqət çəkir. Son olaraq vurğulamaq lazımdır ki, ifrat sağçı terrorizmlə mübarizədə dövlət qurumları yetərsiz qalır və irqçi hücumlara gəlincə ədalət təmin olunmur. Həqiqətən də "Almaniyada irqçilərin qorunduğu" fikirlərini gücləndirən hadisələr, Hanau kimi faciələrə yol açmışdır. Hesabı sorulmayan, sonuna qədər araşdırılmayan hər bir irqçi hücum yeni terror aktlarını da özü ilə gətirir", - Altun deyib.

İrqçilik və ayrı-seçkiliyin ifadə azadlığı adı altında qanuniləşdirilməsinin və normallaşdırılmasının bu gün yaşanan ən ciddi problemlərdən biri olduğunu söyləyən Altun xüsusilə mühacirlərlə bağlı siyasi müzakirələrdə və mediada tez-tez istifadə edilən nifrət nitqinin əksər hallarda diqqətdən kənarda qaldığını bildirib.

Altun bu gün gəlinən nöqtədə Almaniyanın müsəlmanların sistematik olaraq kriminallaşdırıldığı və İslamın daxili təhlükəsizliyə təhdid kimi qiymətləndirildiyi bir yer olduğuna diqqət çəkib: "Başda türklər olmaqla, azlıqlara qarşı irqçi hisslər bəzən yumorla ictimai arenada ifadə olunur. Açıqca qeyd etmək istərdim ki, Almaniya da başqa olmaqla, Avropa ölkələrində dövlət başçımızın simasında ölkəmizə qarşı həyata keçirilən hücumlar və təhqirlər bu üstü örtülü irqçiliyin bir ifadəsidir. Bu hücumlar və təhqirlər Almaniyada nümunəvi bir azlıq kimi yaşayan, alman cəmiyyətinə böyük töhfələr verən türklərə qarşı Türkiyə dövləti və onun lideri üzərindən hesablaşma cəhdinin əksi kimi görünür. Keçmişdə millətimizin ibadətinə, hicabına, adət-ənənəsinə müdaxilə edərək zülmə məruz qoyanlar bu əməlləri və çıxışları alqışlasa da, əslində bütün bunlar kriminallaşdırma, təcridetmə və ayrı-seçkilik siyasətinin tərkib hissəsidir".

Fəxrəddin Altun Türkiyənin terror təşkilatlarına qarşı mübarizədə tək qalmasını və bu terror təşkilatlarının Avropada pul toplayaraq kadr yığmasına hələ də anlamadıqları şəkildə icazə verilməsini eyni ikili standartın təzahürü kimi gördüklərinə diqqət çəkib.

Altun "Avropa İttifaqının terror siyahısında olan PKK-nı təmizə çıxartma cəhdinin, 15 iyulda küçələri qan gölünə çevirən FETÖ xəyanət şəbəkəsinin, terror təşkilatının bir ovuc müxalif kimi təqdim edilməsinin başqa izahı yoxdur. İrqçiliyin normallaşdırılmasına, türk cəmiyyətinin köklərindən qoparılmasına, Almaniyada yaşayan türk vətəndaşlarının Türkiyə ilə əlaqələri bəhanə edilərək irqçiliyin qanunilәşdirilməsinə əsla icazə verməyəcəyik. İrqçiliyin və ifrat sağ meylliliyin yaratdığı təhlükə ilə səmimi mübarizə aparan bütün şəxs və qurumların ən böyük dəstəkçisi olmağa davam edəcəyik. Bu kontekstdə Almaniyanın yeni hökuməti, qeyri-hökumət təşkilatları və media nümayəndələri ilə sıx əməkdaşlığımızı davam etdirməkdə qətiyyətliyik. Biz heç bir vətəndaşımızın əzilməsinə, zülmə və təhdidlərə məruz qalmasına imkan verməyəcəyik. İrqçiliyin ifadə azadlığı kimi anlayışların arxasında gizlənməsinə, normallaşdırılmasına və ya yayılmasına imkan verməyəcəyik", - deyib.

O, Prezident Rəcəb Tayyib Ərdoğanın güclü liderliyi ilə bir tərəfdən regional və beynəlxalq arenada sabitləşdirici güc kimi fəaliyyət göstərən Türkiyəni dünyada layiq olduğu mövqeyə çatdırmaq üçün çalışacaqlarını, digər tərəfdən isə başda ədalət olmaqla bütün dəyərlərə sadiq qalacaqlarını, bunları həyata keçirərkən "kim nə deyər?" deyə düşünməyərək yalnız millətə xidmət etməyi şüar kimi qəbul edəcəklərini bildirib.

**Almaniyadakı ifrat sağ terror təhlükəsinə qarşı səmimi və qətiyyətli mübarizə aparan siyasətçilərə, dövlət rəsmilərinə, ictimai xadimlərə, sənətçilərə və mətbuat nümayəndələrinə təşəkkür edən F.Altun Türkiyə Cümhuriyyətinin irqçilik problemini aradan qaldırmaq istəyən bu kəsimlərin ən böyük dəstəkçisi və təbii tərəfdaşı olduğunu sözlərinə əlavə edib.**

**Sübhan**

# Süni qiymət artımı

**Axır vaxtlar bir çox məhsulların qiyməti qalxıb. Bu təbii bir prosesdir. Amma təbii olmayan odur ki, bir də görürsən ki, unun, çörəyin və digər qida məhsullarının qiymətində fərqli-fərqli dəyişiklər olur. Bir yerdə unu başqa qiymətə satırlar, digər yerdə ayrı qiymətə. Aydındır ki, bu məsələlər istehlakçıları çox narahat edir və eyni zamanda onların hüquqlarının pozulması kimi qiymətləndirilir.**

Ona görə də İqtisadiyyat Nazirliyinin nəzdindəki süni qiymətlərə qarşı mübarizə aparan departa-



ment artıq reydlərə başlayıb. Bu cür reydlərin keçirilməsi ayrı-ayrı işbazları narahat etsə də, amma əhalinin ürəyincədir. Ən azından ona görə ki, bir çox ticarətlə məşğul olan insanlar süni qiymət artımına yol verməyəcəklər. Onların inzibati və cinayət məsuliyyətinə cəlb olunması çox vacibdir. Çünki bu cür hadisələrdən digər işbazlar da nəticə çıxarmağa məcbur olacaqlar.

**Emil FAİQOĞLU**

Emin Piri

# Mən necə axund oldum?!



*Hər müsahibənin özünə görə maraqlı anları, xatirələri və.s olur. Bilmirəm, mənim bəxtimdəndir, yoxsa başqa səbəbdən çox zaman qəribə təsadüflərə şahid oluram. Artıq hər hər hansı olaylara təsadüf yarqısı yapşdırmaqdan uzaqlaşmışam.*

*Düşünürəm ki, bizim bir çox təsadüf, maraqlı dediyimiz olaylar insanların bir-birinə biganəliyindən və ya işinə məsuliyyətsizliyindəndir. Ya da həddindən artıq bütləşdirməsindən.*

*Təbii ki, burada bir çox media sahəsində çalışanların aşağı əmək haqqına görə yazıları, müsahibələri can dərdi, bir tikə çörək puluna görə etməsini xüsusi qeyd edə bilərdik. Amma bu istənilən halda qarşındakına hörmətsizlikdir. Ən azından müasir dövrümüzdə google vasitəsiylə həmsöhbət olacağın şəxs haqqında bir neçə cümləlik məlumata malik olmaq olar. Hə, 2-3 il qabaq bir jurnalist xanım zəng etdi ki, Emin bəy, sizdən müsahibə almaq istəyirik. Vədələşdik, görüşə getdim. Xanım jurnalist əsasən dini suallar verir, nə halaldı, haramdı, günahlardan soruşur.*

*Mən də deyirəm şair kimi soruşur da. Çünki həmin vaxtlar içində dini ehtiva edən bir neçə şeirim çap olunmuşdu. Aralarında "Namaz" adlı modernist şeir də vardı. Müəyyən qədər etiraza səbəb olmuşdu. Ona görə bu suallar o dərəcə qəribə gəlmirdi.*

*Özümçün fətvalar verirəm. Günahlar, haramlar müəyyənləşdirirəm. Bir sözlə bir ucdan cavablayır, cavabsız sual qoymuram. Açığı coşmuşam, özümün də cavablamaqdan xoşum gəlir.*

*Müsahibədən sonra yazdı ki, sizi necə təqdim edim? Dedim, eləcə şair yaz, bəsdi. Qayıtdı ki:aaa, siz şeir də yazırsınız?...*

*Ta üstünü vurmadım. Bilmədim gülüm, ya ağlayım...*

*Sonra bir nəfərsə məşhur saytlarda haqqımda yazı yazaraq tənqid etmişdi məni din xadimi kimi.*

*Baxıram, ara-sıra yenə saytlarda adım bəzən ilahiyyatçı, din adamı kimi gedir. Bəzisi səhvən, bəzisi isə məndən açıqlama almalarına rəğmən. Doğrudanmı, hər hansı material yerləşdirərkən, müsahibəyə gedərkən, açıqlama alarkən həmin adam haqqında iki-üç kəlməlik nəsə öyrənmək çətindir?*

*Axırda özümü də inandıracaqlar ki, axundam...*

# *Akif Nağı:* "Rusiya Ukraynanı itirdi"



**Rusiyanın Ukraynanın Donetsk və Luqansk vilayətlərinin bəzi ərazilərinin statusunu tanıması ilə bağlı qərarı dünyanın gündəmindədir. Bu mövzu ilə bağlı Adalet.az QAT-ın sədri Akif Nağı ilə həmsöhbət olub.**

**- Akif bəy, Rusiyanın gözlənilməz addımını necə dəyərləndirirsiniz?**

- Rusiyanın qondarma DXR və LXR qurumlarını tanıması əlbəttə ki beynəlxalq münasibətlər baxımından doğru deyil. Bu addım yalnız tənqid oluna bilər, qəbulolunmazdır. Dövlətlərin sərhədlərinə hörmətlə yanaşılmalıdır. Beynəlxalq hüquq normalarına hər kəs riayət etməlidir. Belə çıxır ki, Rusiya necə istəyirsə, o cür də hərəkət edir. Tarix boyu belə şeylər olub. Məsələn, faşist Almaniyası heç bir beynəlxalq normalara riayət etmədən qonşu ölkələrə qarşı ilhaqçı siyasət yeridirdi. Sonda da özü hərəkətlərinin bədəlini ödədi və Almaniya çox ağır vəziyyətə düşdü. Rusiya təxminən o yolu gedir. Onun bu hərəkətlərinə bəraət qazandırmaq mümkün deyil. Rusiya mediyası, siyasiləri, ekspertləri dəridən-qabıqdan çıxırlar ki, bu hərəkətlərə hansısa formada haqq qazandırsınlar, amma bu mümkün deyil. Bu, Rusiyanın özünə ziyan olan addımdır. Sən bu gün başqalarının hüquqlarını pozursansa, sabah həmin proses öz başına gələ bilər və daxildən çox ciddi fəsadlar törədə bilər. Rusiya rəhbərliyi bunu nəzərə almalıdır.

**- Bəs Rusiya bütün dünyanı qarşısına almaqla nə əldə etmək istəyir?**

- Görünür ki, Rusiya müəyyən əraziləri nəzarətdə saxlamağa çalışır, SSSRİ dövründə iqtisadi gücünü və sosialist ideologiyasını ortaya qoymaqla müəyyən ölkələri nəzarətində saxlayırdı. SSSRİ dağılandan sonra Rusiyanın iqtisadi gücü çox zəiflədi, ona görə də iqtisadi amillərin təsiri altında ölkələri nəzarətdə saxlaya bilmirdi. İndi də həmin vəziyyət davam edir. Ona görə də Rusiya artıq hərbi yolla bu nəzarəti bərpa etməyə çalışır. Açıq hərbi müdaxiləni dünya qəbul etmədiyi və bu yol maddi baxımdan çox pul tələb etdiyi üçün birbaşa yox, müəyyən yerlərdə lokal münaqişələr yaratmaqla bu və ya digər ölkələri nəzarətdə saxlayır. Vaxtilə Dağlıq Qarabağ münaqişəsi də bu qəbildən idi və bu münaqişə hələ də tam həllini tapmayıb. Rusiya bu münaqişənin vasitəsilə Azərbaycanı və Ermənistanı təsir altında saxlamağa çalışırdı. Elə indi də o prosesi davam etdirir, amma nisbətən yumşaq formada. Yəni Rusiyanın Qarabağa sülhməramlıları yerləşdirməsi bu siyasətin davamıdır.

Eyni ssenari Ukraynada, ondan əvvəl Gürcüstanda həyata keçirildi. Abxaziya və Cənubi Osetiya vasitəsilə Gürcüstanı nəzarətdə saxlayırdı. İndi Ukraynada da həmin proses baş verir. Müqayisə üçün deyək ki, Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıdı və sonda hansı nəticəni əldə etdi? Gürcüstanı itirdi. Bu, uğursuz siyasətdir. Hansısa ölkənin kiçik bir hissəsini ələ keçirir, amma yerdə qalan əraziyə nəzarəti itirir və belə olduğu halda Qərb, Amerika oraya gəlir. Bugün Gürcüstanın əlində qalan ərazilərdə bu iki qüvvə təsir gücünə malikdir. Eləcə də Ukraynda Donetsk, Luqansk və Krımı çıxmaq şərtilə yerdə qalan ərazilərdə Amerika böyük təsirə malikdir.

**- Hamı müharibənin olacağı haqqında danışırdı. İstər sadə adamlar, istərsə də siyasi ekspertlər. Gündəmdə Ukrayna-Rusiya müharibəsi idi. Müharibə iddialarının üstündən xətt çəkən Rusiya bu addımla nə qazanır?**

- Ukraynanı itirdi, Gürcüstanı itirdi. Bu addımlar Rusiyanın maraqlarına xidmət etmir. Digər tərəfdən özünü bütün dünyaya qarşı qoydu. Bütün ölkələr, beynəlxalq təşkilatlar Rusiyaya qarşı bəyanatlar verirlər, sanksiyalar artırılır, Rusiya rəhbərliyi özünə ürək-dirək verir ki, sanksiyaların onlara heç bir təsiri yoxdur. Amma çox ciddi təsiri var və bunu daha çox Rusiyanın sıravi vətəndaşları hiss edir. Hər kəs hərbi əməliyyatların başlayacağını gözləyirdi, lakin hər halda hərbi əməliyyatların başlamaması müsbət bir hadisə oldu. Yəni müqayisə etsək, hərbi əməliyyatlar həyata keçirilsəydi, daha çox itki olacaqdı. Qərbin isə Rusiyaya qarşı silahı sanksiyalardır. Rusiyanın da Qərbə qarşı silahı bu cür qeyri-qanuni, qondarma qurumları tanımaqdır. Əgər digər dövlətlər də Rusiyanı nümunə götürüb bu yolla getsələr, çox güman ki, III Dünya müharibəsi qaçılmaz olacaq".

**Eminquey**

# *At əti*

**Bir neçə həftə bundan əvvəl Xaçmaz rayonunda at ətinin satışı ilə məşğul olan bir sahibkar və onun ətrafındakı adamlar polislər tərəfindən saxlanılıb. Sexə baxış keçirilərkən məlum olub ki, orda mənşəyi bilinməyən çoxlu ət var. Üstəlik də axtarış aparılarkən kəsilmiş heyvanların başı aşağılanır.**

Məlum olub ki, kəsilən heyvanlar atdır. Əvvəllər də sex yaradaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan həmin şəxs məsuliyyətə cəlb edilib. Mənşəyi bilinməyən bu ətlər müsadirə olunaraq götürülüb və laboratoriyaya göndərilib. Təbii ki, əgər onu polis əməkdaşları aşkar etməsəydilər, əvvəllər olduğu kimi həmin ətlər Bakıya göndəriləcək, kafe və restoranlara veriləcəkdi.

**Bütün bunlar onu göstərir ki, hələ də bir çox işbazlar mənşəyi bilinməyən ətləri şəhərə, paytaxta və digər yerlərə aparırlar. Nə yaxşı bunun qarşısı polis orqanları tərəfindən alınır.**

**Emil FAİQOĞLU**



Vüsal Məmmədov

## Hər şeyi pul həll etmir. Heç nüvə silahı da həll etmir

*Rusiyanın dövlət büdcəsi 337 milyard dollardır. ABŞ-ın təkcə müdafiə xərcləri bundan azı 2 dəfə çoxdur. NATO ölkələrinin toplam hərbi xərcləri Rusiyanın dövlət büdcəsindən 3 dəfə çoxdur. ABŞ-ın 2 varlı adamının pulu Rusiyanın dövlət büdcəsindən artıqdır. Müqayisələri davam etdirmək olar, amma bütün bunların xeyri nədir, əgər kollektiv şəkildə hamısı yığışıb, Putinin qabağında üyüdürlərsə?! Rusiya xəritədə böyük görünsə də, real göstəricilərə, rəqəmlərə baxanda zəif ölkədir. Amma o zəif ölkənin lideri "güclülərin" hamısını qabağına qatıb, otarır. Axmaq vəziyyətinə salıb hamısını. Niyə? Çünki hər şeyi pul həll etmir. Heç nüvə silahı da həll etmir: NATO ölkələrində başlıqların sayı Rusiyadan daha çoxdur. Məsələ xarakterdə, iradədədir. Qərbin varlı dövlətləri iradəsiz, onurğasız, ancaq qızıl yunlu qoyunlardırlar. Tarixən öyrəşiblər ki, kasıb-kusubun həyətindəki otları yeyib, piylənsinlər. İmperializmin gedonizm (gödənizm) mərhələsinə adlayıblar. Puinin qabağında durmaq kiminsə bank hesabındakı pulları çırpışdırmaq deyil axı. Burada ağıl, güc və iradə tələb olunur. O da gedonistlərdə (gödənistlərdə) yoxdur. Putin Krımı mağazadan qarpız alırmış kimi qoltuğuna vurub, ölkəsinə qatanda heç kimin vecinə olmadı. Vaxtilə qızışdırıb, slavyan qardaşı ilə düşmən etdikləri Ukraynanı "uff" demədən bıçaq altına buraxdılar. Zelenskinin Münhendəki çıxışı əjdaha söhbət idi. Məğzi belə idi ki, şücaətinizi Kərbəlaya saxlamayın, sanksiya qoyacaqsınızsa, nə qələt edəcəksinizsə, müharibənin olmasını gözləmədən edin. Bəs Bayden nə deyir? "Rusiya Kiyevi tutacaq, siz orada möhkəm durun, amma biz onunla döyüşməyəcəyik". Bu düşüncə, bu cəsarət iləmi "aqressiv" ayının qabağına çıxırlar?! Amma ən dəhşətlisi o da deyildi. Bayden vurğuladı ki, "Putin amerikalılara xətər toxunduracaq qədər ağılsız olmamalıdır". Yəni ukraynalının canı cəhənnəmə, amma amerikalıya toxunsalar, aləmi dağırdarıq! Ağlı başında olan istənilən insan, xalq və dövlət bu əxlaqın daşıyıcısı olan Qərbin haqqında fikirlərinə yenidən baxmalıdır. Onlardan heç vaxt heç kimə müttəfiq olmayıb, bundan sonra da olmayacaq.*

*Dava Ukraynanın NATO-ya qəbulu deyil?! Gücləri çatırsa, qəbul edib, arxasında dursunlar. Gücləri yoxdursa, yığışdırsınlar şələ-külələrini, əkilsinlər oradan, ölkəni qurbanlıq qoyun kimi bıçaq altına verməsinlər. Yox, bunlar Ukraynanın NATO-ya qəbulundan vaz keçməyəcəklərmiş, amma qoy, əvvəlcə Rusiya onu altına basıb əzişdirsin, sonra baxacaqlar...*

*Ukrayna xalqı bir məsələdə dəhşətli səhv elədi: Bilməli idilər ki, Qərbə ümid olub, gərdəyə girmək olmaz! Bu dərsi bütün başqa xalqlar da əxz etməlidirlər.*

## "Azərsu" bu rayonun içməli su təchizatını yaxşılaşdırır



**"Azərsu" ASC Prezident İlham Əliyevin təsdiqlədiyi "Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı"na uyğun olaraq Goranboy rayonunun Qazanbulaq qəsəbəsinin içməli su təchizatının daha da yaxşılaşdırılması məqsədilə yeni layihə həyata keçirir.**

Adalet.az xəbər verir ki, bu qəsəbədə mərkəzləşdirilmiş içməli su təchizatı sistemi mövcud olmayıb, əhalinin çəkdiyi tikinti normalarına uyğun olmayaraq çəkilmiş xətlər normal su təchizatı aparmağa imkan vermir, su itkilərinə səbəb olub.

Qəsəbədə mərkəzləşdirilmiş su təchizatı sisteminin yharadılması məqsədilə yeni layihə hazırlanıb və icrasına başlanıb. "Azərsu"yun daxili imkanları hesabına icra olunan layihə çərçivəsində 7 km uzunluğunda mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılacaq, 196 ünvana birləşmə verilərək sayğaclar quraşdırılacaq. Bununla da su itkilərinin qarşısı alınaraq sudan səmərəli və qənaətlə istifadə təmin ediləcək. Təmir-bərpa, yenidənqurma işlərini səhmdar cəmiyyətinin 7 saylı Regional Sukanal İdarəsi həyata keçirir. Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, 7 saylı Regional Sukanal İdarəsinin rəisi Xəqani Vəliyev layihənin icrası ilə yerində tanış olublar. İşlərin keyfiyyətlə aparılması və qəsəbənin içməli su probleminin əsaslı və operativ surətdə həlli ilə bağlı müzakirələr aparılıb, müvafiq tapşırıq və tövsiyyələr verilib.

# Müharibə zarafatları

**Həssaslıq enib deyə müharibə zarafatını bölüşüm sizinlə. Əvvəllər məlum səbəbləri bunları sizinlə yazmağı düzgün bilmirdim. Amma zaman keçdikcə müharibəni hərtərəfli bölüşməkdə fayda var deyə düşünürəm. Zarafatsız həyat keçər?**

**Orda az qala faciə kimi yaşanan olaylar indi bizə, bəlkə də sizə komediya kimi görünür.**

I

### *Torpaqları yavaş-yavaş alın da...*

Müharibənin nə qədər qəddar, acımasız, pis bir şey olduğunu izah etməyə ehtiyac yoxdur. Fərqi yoxdur, o müharibə haqq uğrundadır, yoxsa haqsız müharibədir.

Əlbəttə, bizim Vətən savaşımız haqq yolunda olan mübarizə idi. Amma bu, müharibənin çətinliklərini, ağrılarını istisna etmir.

Bütün bunlar öz yerində, amma müharibədə bütün hislər bir-birini sürətlə əvəz edir. Faciə komediyanı, sevinc kədəri, üzüntü qüruru və.s

Hər şeydə pozitivlik axtaran, ağır hadisələrə, söhbətlərə yüngüllük gətirməyi sevən biriyəm. Ən azından faciə varsa, heç olmasa sözlərlə insanları bu durumdan çıxarmağı xoşlayıram. Faciə onsuz da var, amma onu yüngülləşdirmək öz əlimizdədir.

Bütün bunları nəzərə alaraq savaş boyu zarafatlar etməyə çalışır, bəzənsə şəxsi heyətə görə özümü buna məcbur hiss edirdim. Bəzənsə bu zarafatlar şərəfdən, qürurdan, qələbə sevinclərindən, ordumuzun ardıcıl nailiyyətlərindən doğurdu.

Oktyabrın əvvələri idi. Füzuli-Cəbrayıl istiqamətindəyik. Qardaş, biçilmiş taxıl zəmisiylə saatlarla piyada dolama yol get, bitmir ki, bitmir. Nəfəs çatdırmaq olmur. Bir yandan da minaatan, top mərmiləri...

Hava yoluyla məsafə azdı, sadəcə təhlükəsizliyə görə saatlarla dolanırıq. İlk günlər bəzi səbəblərə görə bizə 1-2 XTQ zabiti də ayrılıb. Məlum yerə çatanda gördüm təpənin döşündə bizi bir manqa(dəstə) XTQ heyəti gözləyir.

Nəfəsimi dərdim, dedim; Qurban sizə, torpaqları yavaş-yavaş alın da, sürətinizə çatdırmırıq.

Təəccüblə baxdı, dedi; Komandir sənsən?

Güldülər. Bu da( dəstə komandiri) başını yellədi.

Şükür, müharibə tez bitdi, erməni heç nə etməsəydi də, zarafatlarımın qurbanı olacaqdım.( Təbii ki, bu da bir zarafatdı)

Hər şey bir yana, zarafatsız keçilməz belə şeylər...Elə müharibə də!

II

### *Füzuli-Cəbrayılda istiqamətində yarımadada...*

Sizə də məlum olduğu kimi oktyabrın ilk on günlüyündə erməni tərəfi böyük canlı qüvvəsi, texnika və.s ilə hücuma keçib. Yəni, bildiyiniz; Füzuli-Cəbrayıl xəttini ikiyə bölmək. Məqsəd də məlum, Azərbaycan ordusunu bir-birindən ayırıb mühasirədə məhv etmək( düzü bu planları gəldikdən sonra xarici və erməni materiallarına əsasən öyrənmişəm)

Nə isə...Şəxsi heyətə adətən belə təhlükəli məqamlar deyilmir ki, vahimə, düşkünlük yaranmasın. Həmçinin, raket və.s kimi hücuma məruz qaldıqda isə adətən, minamyot, top atışlarıdı deyilir-səbəb yenə qeyd etdiyim kimi.

Yuxarı rütbəli zabitlərdən dedilər ki, başa düşürsən də, yarımadadayıq. Öz-özümə deyirəm nə yarımada?!.Qarabağda dəniz varki? Ya da dəniz sahilindədir ki, bizə belə deyilir? Bir sözlə mənə hələ çatmır. Çünki ermənilərin belə hücum edəcəklərini düzü gözləmirdim. Təzə olduğumuzdan eyforiyadayıq.

Öz aləmimdə demək istəyirəm ki, Füzulidə, Cəbrayılda yarımada yoxdu. Sonra başa düşmüşəm ki, söz vahimə yaratmasın deyə üstü örtülü mühasirə vəziyyətinə YARIMADA deyiblər.

Yəni üç tərəfdən... Sonra yadımıza salıb o qədər gülmüşük...

III

### *Bizi ermənilərlə düşmən edəcəklər*

Nicat adlı çavuşumuz vardı. Ali təhsilli, savadlı, ədəbiyyat sevdalısı. Dünyagörüşü



yetəri qədər çox idi. Söhbətim tutan insanların önlərində gəlirdi. Müharibədə ən çox şirin zarafatlar edib problemlərdən uzaqlaşdıranlardan idi. Beynimiz dincəlirdi. Füzulidə qırğın gedirdi, bu qayıtdı ki, axırda bizi ermənilərlə düşmən edəcəklər. Özümün etmədiyi zarafatlar qalmamışdı, amma onun zarafatı qəribə gəlmişdi. Sonradan bu qəribə zarafat çətin anlarımızda bizi güldürürdü.

Müharibə bitən gecə qayıtdıq ki, müharibə bitməsəydi, az qala ermənilərlə azərbaycanlılar düşmən olacaqdı...

IV

### *Öz XTQ-mizi atəşə tutaq...*

Gecəylə xəbər gəldi ki, önə atış açmayın, bizimkilər hücuma keçəcək. Daha doğrusu XTQ gecə hücuma keçəcəkdi bizim önümüzdən. Bizim çavuş qayıtdı ki, hücuma keçiləndə biz arxadan atəşə tutaq. Həm də elə edək ki, ermənilər bunu görsün.

Dedim, niyə?

Qayıtdı ki, ermənilər bunu görəndə desin ki, öz ordusuna bunu edən bizə nələr etməz?

Hə, hərdən belə, adamın tükünü biz-biz edən şit zarafatlarımız olurdu..

V

### *Kod adı "şirinlər"*

Müharibə dövründə hər bir bölmənin xüsusi şifrəsi, parolu, adı və.s olur. Qartal, pələng, zirvə, aslant və...

Səhv etmirəmsə, hərbi hissələrdən biri ilə əlaqəyə keçmişdik, bizə "şirinlər"(Əlbəttə, ad tam olaraq "şirin"deyildi, amma buna bənzər ad idi) adıyla müraciət etdilər. Qayıtdıq ki, bu nə deməkdir, nə müraciətdir?

And-aman etdilər ki, vallah, bizlik nəsə yoxdur, nə də ələ salmırıq, sizin bölmənin adı budur. İki gün idi, "zaryadka" olmadığından telefonum qapalı idi. Açan kimi bir mesaj gəldi:

***-"Şirin", necəsən?***

Bir anlıq hürkdüm. Bizim şifrəni, adı bilən kimdir, hələ mənə mesaj da atıb. Bəlkə...Ağlıma müxtəlif fikirlər gəldi.

Sonradan öyrəndim ki, mülkidə xanım dostlardan biriymiş, sadəcə çox istədiyindən mənə belə müraciət edib...

sonradan öz adımız elə adımız kimi şirin zarafatlara çevrildi.

VI

### *Barlarını bağlatdığımız gizirimiz*

Faiq adlı gizirimiz vardı. Məşhur publarda barmen işləmişdi. Bir dəfə söhbət əsnasında jurnalistlərdən gileyləndi.

İşlədiyi pubu mediada ardıcıl vurduqlarına görə bağlanmışdı. O da deyir ki, sadə barmen idim. İş adamı deyiləm və.s dəyən mənə oldu, çörəyimdən oldum.

Mən də buna qoşulmuşam. Zatən müharibədə adam tərbiyəsizləşir, söyüşlü danışır. Birdən soruşdum ki, hansı pub?

***-Sahildə yerləşən filan pub.***

Fikirləşəndə məlum oldu ki, bunların pubunu ən kəskin tənqid edən mən olmuşam. Bu qədər təsadüf?

Buna qayıtdım ki, öz söyüşlərimi geri götürürəm.

***-Nə oldu?***

***-Sizin obyekti ən kəskin tənqid edənlərdən biri mən idim.***

Gülüşdük.

Düşmən ocaq başındaymış;-dedi...

***P.S. Şəkil getdiyim gün komissarlığın yanında çay fasiləsində çəkilib. Facebookda sonuncu zarafatımı bu şəkillə paylaşmışdım. Bəlkə də bu dünyada baş verən hər şey zarafatdı?***

Bir şeirimdə dediyim kimi:

### *ALLAHIN ZARAFATI*

***Ölənlər oyanıb çıxa qəbirdən***
***durub dirilərin qaza qəbrini.***
***gedəsən sevdiyin qəbrin üstünə***
***görəsən yazılıb:***
***bir zarafatdı.***
***Şeytan da bezikib çıxa özündən***
***içindən allahın özü boylana***
***dönüb arxasıyca gələn bəndəyə:***
***Yaman aldatdım ha...***
***Deyə!***
***Sancıdan qıvrılan anaya***
***məktub gələ***
***bətnindəki körpədən:***
***məni gözləməyin,***
***bu, zarafatdı.***
***75 yaşında döyülə qapın-***
***məktəbdə sevdiyin qızdı***
***qayıdıb.***
***əlində əsanın qoyduğu qabar***
***toxuna saçlarına...***
***Qoşulub Iblisə çıxıb gedəsən***
***Allahın dalınca qeybət edəsən***
***arxanca mələklər yalvara***
***Allah da göydən qışqıra:***
***Emin,***
***bu,***
***zarafat deyil?!***

**Ardı var...**

**Emin Piri**

Mirşahin Ağayev

## Cırtqoz yekəxanalığa qapılmaq təhlükəlidir!



***Çox maraqlı və dünyadəyişən hadisələr baş verir! Rusiya öz maraqlarını, Ukrayna öz arzularını, NATO öz prinsiplərini qoruyur. İndi başlıcası reallıq hissini itirməmək, populizmdən, "laykpərvərlikdən" uzaq olmaq, müstəqil Azərbaycanı, onun əldə etdiyi Tarixi Qələbənin nəticələrini qorumaqdır. AZƏRBAYCAN haqqında düşünmək, DÖVLƏTİN gələcəyini düşünmək lazımdır!***

***Zəfərlə bitmiş 44 günlük savaş yalnız statistikadır. Bu savaşın davamı hər birimizin cavabdehlik zonasında bu dəqiqənin özündə də baş verməkdədir. Hər kəs öz statusu, yazdığı remarka, adicə şərhə görə məsuliyyət daşımalıdır. Azərbaycanın Dövlət Müstəqilliyi bizdən ötrü Rusiyadan da, Ukraynadan da, NATO-dan da dəfələrlə artıqdır! Dedi-qodulara, avantüralara, düşüncəsiz rəylərə, əsassız, altıboş ambisiyalara, cırtqoz yekəxanalığa qapılmaq təhlükəlidir!***

***Allah Azərbaycanımızı qorusun!***

***Amma həm də hər kəs Azərbaycanımızı qorusun!***

***Reallıq hissini itirmək yalnız zərər verə bilər! Putin dünyanın ən güclü hərbi-suyasi birliyi-NATO ilə boş yerə üz-üzə gəlmir! Yeni beynəlxalq sahman arxitektorlarına da sadədil yanşmayaq. Hər bir tərəf haqlıdır. Və ya hər bir tərəfin öz haqqı var. Bir sözlə, hər gecə Vətənimizi Qucaqlayıb yataq, hər səhər bu bəxtəvərliyə şükr edərək oyanaq! Və bu sual barədə düşünək:***

***"Azərbaycan Ermənistana bu boyda müharibədə necə qalib gələ bildi!?!!"***

***Gəlin bu qələbəni ovcumuzda son dərəcə ehtiyatla saxlayaq! Yerə salmayaq! Salıb sındırmayaq!***

***Kimsə Donetski, Luqanskı tanıdı. Aydındı! Biz də gəlin özümüzü tanıyaq! Azərbaycanımızı tanıyaq!***

***Əmin olaq! Ciddi olaq! Dövlətimiz naminə səfərbər olaq! Elə burda! Sosial şəbəkələrdə! İndi boşboğazlıq yeri və çərənçilik vaxtı deyil! Ağzınıza yox, ağlınıza güc verin! Eşidirsiz???***

Vaqif Qarayev

## Yaşlı gürcü həkimləri kimi mane olmayaq



*Deməli, Gürcüstanda İcbari Tibbi Sığortanın tətbiqi səhiyyədə inqilab yaratdı...əhaliyə sığorta kartı paylananda mahiyyətini bilmirdilər...həm pulsuz tibbi yardıma çox təəccüblənirdilər...öyrəndi hamı....bu gün də faydasını görürlər...ən çox narazı qalan yaşlı həkimlər idi....çünki rüşvətin kökü kəsilirdi))) gənc həkimlər isə çoxdan razıdılar sığortadan...*

*Bizdə də çətinlik olacaq....düşüncəmiz dəyişməsə çox çətin olacaq...sığorta ilə bağlı hörmətli Adil Qeybullanın iştirakı ilə olan müzakirələri izləyirəm...adamın fikirlərini çox qəribçiliyə salırlar...amma dedkləri həqiqətdi.....qopmalıyıq köhnə sistemdən...*

*Tibbi sığorta tibbi xidmətin qərb modelidi....tətbiq ediriksə, səhiyyə də qərb modelinə keçməlidi....keçə bilər....yetər ki sovetdənqalma yaşlı gürcü həkimləri kimi mane olmayaq.*

Emin Piri

## DTX ƏMƏLİYYATLARINA SÖZARDI

*(II yazı)*

**DTX-nın Müdafiə Nazirliyində əməliyyatları davam edir. Xüsusən maliyyə xidmətində çalışanlar, təminata cavabdeh olan şəxslər arasında həbs olunanlar var. Nə az, nə çox, hər biri milyonlarla və ya on milyonlarla yeyintidə ittiham olunur. Görünən odur ki, bu cür həbslər və əməliyyatlar davam edəcək.**

**Bundan öncəki yazımda maliyyə xidmətində olan yeyintilər, zabitlərin adına onların imzasını saxtalaşdıraraq baş verən yeyinti hadisəsindən yazmışdım. Yazının sonunda həmin yazının linkini də paylaşacam. İndisə təminat və.s kimi olaylardan DTX əməliyyatlarının nə qədər haqlı olduğunu üzə çıxaran bir neçə faktdan danışım.**



**Xüsusən bu cür yeyinti halları səngər-zabitlərinin başında çatlayırdı. Misalçün, aşağıda( adətən ön xətdən geridə olan bölüyün dayaq məntəqəsinə, batalyonun qərargahına aşağı deyirdik) əsgərlər üçün kazarma tikmək lazım olurdu. O zaman nə etmək lazımdır?**

**Bəli, zabitlər öz maaşını qoyub əsgərlər üçün kazarma və bu kimi təminat vasitələrini öz pulu hesabına həll edirdi. Şikayətmi? Kimsə ləkələnmək istəməz. Çünki səngər zabitinin belə şeydən şikayətlənməsi ona baha başə gələ bilər. Nə var səngər zabitini bir anda vətən xaini çıxarmağa? Kiçicik böhtanla bu mümkündür.**

**Yaxud səngərin içində blendaj və əsgərlər üçün hər hansı şərait qurmaq lazımdır. Sənə deyirlər ki, bunu qur. Baxırsan ki, axı hansı pulla? Qan bahasına qazandığın pulu ailənə, yoxsa bura yatırasan?**

**Məcburən başqa yollardan istifadə edirsən. Ağdam kimi ərazilərdə olanlar bilir ki, sovet dövründən böyük üzüm bağları olub. Neytral ərazidəsə çoxlu sayda üzümlük beton sütünları-"pasinka"lar qalıb. Sənsə gecə vaxtı minalanmış əraziyə, ya düşmən qabağına keçərək o pasinkaları daşıyırsan. Pulsuz başa gəlsin deyə. Əlbəttə, bu kimi hallarda münaya düşüb həlak olan zabitlər də olurdu, əlil olanlar da. Hələ düşmənin duyuq düşüb səni atəş altına almağını demirəm.**

**Əsgər baxımdan ehtiyat etdiyimdən çavuşla birgə səngər önünə keçib pasinka daşımağım, keçirdiyim hisləri heç zaman unuda bilmərəm. Normal imkanı olanlar və ya bu kimi şeylərdən qaçanlar isə bunu özünün pulu, ya yaxınlarının pulu hesabına həll edirdi. Məsələn, Ağdamda bir neçə zabit səngərdə daha müasir blendajlar tikmişdi. Aşağıya sifarişlə( yəni öz puluyla) mişar daşı gətirdib sonrasa yuxarıya daşıtdırıb səngərdə blendaj və.s tikdirmişdi. İndisə görün bu şəxslər nə qədər zabiti ordudan küsdürdü, nə qədər vətənini sevən, canını verməyə hazır olan zabit heyətinin ordudan uzaqlaşmasına səbəb oldu.**

**Əziz DTX, sizi heç bu qədər sevməmişdim. Bu əməliyyatlarınız davamlı olsun və bizi bu əməliyyatlarla sevindirməyə davam edin.**

# AVROPALI VƏ AMERİKALI ŞAGİRDLƏR HANSI BƏDİİ ƏSƏRLƏRİ MÜTALİƏ EDİR?

**Bu əsərlərdən Azərbaycan məktəblərində istifadə etmək olarmı?**

**Bədii mütaliə istənilən halda insanın mənəvi cəhətdən kamilləşməsində xüsusi əhəmiyyətə malikdir. Bədii mütaliənin müsbət təsiri yeniyetməlik dövründə daha da effektiv olur. Bu dövr insan yaddaşının ən həssas dövrü olduğu üçün şagirdlər həmin imkandan maksimum şəkildə yararlanmalıdır. Şagirdlərdə bədii zövqün formalaşması sinifdənxaric oxu və mütaliədən daha çox asılıdır. Uşaq ədəbiyyatı və ümumiyyətlə, bədii ədəbiyyat, yaş dövründən asılı olaraq, ardıcıl şəkildə mütaliə olunduqda daha effektiv olur.**

Ölkəmizdə dövlətin diqqət və qayğısı sayəsində bu istiqamətdə bir sıra mühüm işlər görülüb. Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi və çoxsaylı nəşr olunaraq respublikanın bütün kitabxana şəbəkəsinə hədiyyə edilib. Bu nəşrlər sayəsində gənc nəsil bədii və elmi ədəbiyyata ehtiyacını ödəməklə istifadə edə bilir. Lakin bununla belə şagirdlərimizə, sinifdənxaric oxu üçün bir neçə dünya miqyaslı yazıçıların əsərlərini tövsiyə edirik. Qeyd edək ki, həmin müəlliflərin əsərləri Avropa - Amerika və ümumiyyətlə, dünyanın bir çox ölkələrinin orta məktəblərində sinifdənxaric oxu kimi tövsiyə olunur və hətta müəyyən hallarda birbaşa dərsliklərə daxil edilir. XX əsrin ən böyük ədəbiyyatçılarından biri, görkəmli ingilis yazıçısı Ernest Seton Tompsonun "Seçilmiş əsərləri", əsasən də "Balaca vəhşilər", "Mənim həyatım" romanları və bir çox hekayələri, xüsusən 5-11-ci sinif şagirdləri üçün faydalı ola bilər. Yazıçının demək olar ki, hər hekayəsi qəhrəmanlıq hissləri və əməllərinin əks olunduğu flora və faunanın həyəcanlandırıcı həyat hekayəsidir. Yazıçı təbiətə sevgi ilə oxucu qəlbini birdəfəlik fəth edir. Nəzərə almaq lazımdır ki, hazırda dünyanın qlobal problemlərindən biri də məhz ekologiya və təbiətlə bağlıdır. Bu mənada, şagirdlərin belə əsərlərə maraqlı olmasına çalışmaq əhəmiyyətli sayıla bilər. Dünyaca məşhur yazıçı, britaniyalı Lüis Kerrolun əsərləri isə əsasən ibtidai siniflər üçün çox əhəmiyyətli hesab olunur. Onun "Alisa möcüzələr ölkəsində" adlı əsəri xüsusən Avropa xalqlarına mənsub uşaqların çox sevdiyi əsərdir.

Yazıçının uşaqlar üçün yazdığı əsərləri, dünyanın bir çox ölkələrində uşaq ədəbiyyatı üçün ən faydalı əsərlərdən sayılır. Lüis Kerrolun müəllifi olduğu ən məşhur əsərlərdən birinin yazılma səbəbi də çox maraqlıdır. Yazıçı rəsm çəkməyi çox sevirmiş. O həm də XIX əsrin ən yaxşı fotoqrafı olub. Bir gün parkda oynayan 3 qız uşağının fotosunu



çəkmiş və onun əsl Alisa ilə tanışlığı da belə başlamışdır. Bu qızlardan biri olan Alisa, onun sehrli povestinin baş qəhrəmanı olmuşdur. Bu nağıl 1865-ci ildə yazılmışdır. Əsərin əsas süjeti Alisanın gördüyü qəribə yuxular əsasında qurulmuşdur. 1867-ci ildə Kerrol Londonda Alisa Teodora Reyts adlı başqa bir Alisa ilə tanış olmuşdur. Yazıçının ikinci, "Alisa güzgü arxasında" nağıl-povestinin baş qəhrəmanı isə bu qız olmuşdur. Bu əsəri müəllif 1871-ci ildə qələmə almışdır. Kerrol, "Deyingənin ovu" və "Silviya və Bruno" adlı əsərlər də yazmışdır. XX əsr ingilis ədəbiyyatının ən nüfuzlu nümayəndələrindən biri olan Virginya Vilfun dediyi sözlər yazıçının ədəbi portretini tam şəkildə əks etdirmişdir. "Kerrol əsl professor olub. Eyni zamanda yazıçının xarakterində saflıq və şəffaflıq olub. Lakin bunun arxasında qeyri-adi möhkəmlik dayanmış, onun da altında uşaqlıq gizlənmişdir. O, heç kimə nəsib olmayan bir şey etmişdir. Uşaqlıq aləminə qayıda bilmiş və onu elə təsvir etmişdir ki, biz də uşaqlaşmışıq".

Müasir dünya ədəbiyyatının digər məşhur yazıçısı isə Amerika ədəbiyyatının çox istedadlı ədibi Con Hoyer Apdaykdır. Yazıçının "Seçilmiş əsərləri", xüsusən də "Dovşan, qaç", "Kentavr" romanları və müxtəlif məzmunlu hekayələri, əsasən yuxarı sinif şagirdlərimizə tövsiyə olunur. "Dovşan, qaç" romanının ideyasında cəmiyyət üçün ailə, övlad, valideyn və yaxın qohumluq münasibətlərini müqəddəs saymağın zəruriliyi vurğulanır. "Kentavr" romanında isə müəllif, bədii fikrin ən zəngin qaynaqlarından sayılan yunan mifologiyasındakı bəzi obrazlar vasitəsilə yazıçı təxəyyülünün daha dolğun ifadəsinə, təsvirlərin orijinal reallığına, mühakimələrin canlı, dinamik səslənməsinə nail olmuşdur. Daha sonra digər yazıçı, alman ədəbiyyatının görkəmli nümayəndəsi Lion Feyxtvangerdir. Onun bədii yaradıcılığı şagirdlər üçün tövsiyə olunan bədii nümunələr sırasındadır.

Yazıçının "Qəribə adamın müdrikliyi, yaxud "Jan-Jak Russonun ölümü və ölməzliyi", "Lautenzak qardaşları" romanları və müxtəlif hekayələri mütaliə üçün məqsədəuyğundur. Bu yazıçı həm də XX əsr ədəbiyyatına ən oxunaqlı tarixi roman müəllifi kimi daxil olmuşdur. Tarixi mövzulara müraciət etməsinə baxmayaraq, müasir dövrün ən aktual problemləri həmişə yazıçının diqqət mərkəzində olmuşdur. Lion Feyxtvanger bədii yaradıcılığında XX əsrin ümidlərini, arzularını, çatışmazlıqlarını adekvat şəkildə təcəssüm etdirən böyük sənətkarlardan biri kimi xarakterizə edilir. Bədii irsinin öyrənilməsi, xüsusən yeniyetmələr üçün məsləhət görülən yazıçılardan biri də ingilis yazıçısı, Nobel mükafatı laureatı Redyard Kiplinqdir. O, 1882-1889-cu illərdə Hindistanda yaşayıb. Buna görə də onun əsərlərində Hindistan mövzusu geniş yer tutur. Müəllifin "Cəngəlliklər", "Nağıllar" kitabları bütün dünyada uşaqlar tərəfindən böyük maraqla oxunur. Bu yazıçı "Puk Təpəsinin Cırtdanı",

"Mükafatlar və Pərilər" adlı məşhur kitabların müəllifidir. Həmin kitablardakı əsərlər qədim İngiltərə nağılları əsasında yazılıb. Şekspirin pyeslərindən götürülmüş "Cırtdan Pak"-ın dili ilə söylənilən qədim ingilis nağılları da Avropa uşaq ədəbiyyatında özünəməxsusluğu ilə seçilir. "Cəsur kapitanlar" əsəri isə sırf yeniyetmələr üçün nəzərdə tutulub.

Müəllifi olduğu bədii əsərlərlə dünyada diqqət çəkən digər yazıçılardan biri də alman ədibi Erix Mariya Remarkdır. O, XX əsr dünya ədəbiyyatının ən peşəkar yazıçılarından hesab olunur. Bütün yaradıcılığını müharibə mövzusuna həsr edən yazıçının əsərləri mənsub olduğu xalqın mənəvi əzablarının ən dərin və ən səmimi bədii təcəssümüdür. Dünya ədəbiyyatında insan qırğınına Remark qədər dərin nifrət oyada bilən, müharibə nəticəsində dünyaya səpələnən mühacirlərin fəlakətini təsirli bədii boyalarla təsvir edən ikinci bir yazıçı tapmaq çətindir. Yazıçının dilimizə tərcümə edilən əsərlərindən "Zəfər tağı" və "Lissabon gecəsi" romanlarını misal göstərmək olar. Digər ədib isə Cənubi Amerika ədəbiyyatının istedadlı nümayəndəsi, Braziliya yazıçısı Jorj Amadudur. Bu yazıçının da bədii əsərləri dünyada maraqla oxunur. O, öz bestsellerləri ilə müxtəlif ölkələrin milyonlarla oxucusuna Braziliyanı sevdirə bilmişdir. Yazıçının qələmindən çıxan əsərlərin hər sətrində qaynar həyat çağlayır, cənub temperamentindən qidalanan oynaq, bənzərsiz yumor süzülür. Oxuculara təqdim olunan "Qum dəryasının kapitanları", "Möcüzələr dükanı" romanları, "Zolaqlı Pişik və Göy Qaranquş" povesti və "Piranyansda möcüzə" hekayəsi yazıçının dünyaca məşhur əsərlərindəndir. Qeyd edək ki, adları sadalanan bütün əsərlər dilimizə tərcümə olunub.

**Sonda bir daha əziz şagirdlərimizə haqqında məlumat verdiyimiz yazıçıların əsərlərini sinifdənxaric oxu və mütaliə üçün tövsiyə edirik. Çünki həmin bədii əsərlər hazırda dünyanın bir çox orta təhsil müəssisələrində mütaliə üçün tövsiyə olunur.**

**Bünyamin Bünyadzadə**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 8 (2282) 26 fevral 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# SABİRABADIN SABAHI

**Azərbaycanın muğan bölgəsinin diqqət çəkən ünvanlarından biri də Sabirabad rayonudu. Tarixə nəzər salsaq, onda görərik ki, 179 min nəfərə yaxın sakini olan bu rayonun ümumi ərazisi 1470 kvadrat kilometrdi. Bu rayonun 74 kəndi və hər kəndi də təbii ki, məktəbi, səhiyyə ocağı, mədəniyyət mərkəzi var. Ümumiyyətlə, statistik rəqəmlərə müraciət etsək, onda görərik ki, Sabirabad rayonu bir ərazi inzibati vahid olaraq kənd təsərrüfatı üçün xüsusilə yararlı əkin sahələrinə malikdi. Ona görə də bu rayonun ərazisində daha çox pambıqçılığın inkişafına, bostan-tərəvəz məhsullarının istehsalına önəm verilmişdi.**

Sabirabad şəhəri paytaxtın 170 kilometrlik məsafəsində yerləşir və bu rayonun adı tarixi mənbələrdə Cavad, Qalaqayın kimi göstərilmişdi. Bu ərazidə aparılmış arxeoloji qazıntılar zamanı məlum olmuşdu ki, eramızdan əvvəl, VI minillikdən başlayaraq, bu rayon ərazisində məskunlaşma olmuş və tapılan maddi mədəniyyət nümumələri də bunu sübut etmişdi. Rayonun Kürün Araza qovuşduğu əraziyə daxil olması burada coğrafi və təbii, ekoloji mühitə də müsbət təsir göstərmişdi. Ona görə də bu əraziyə daha çox Suqovuşan adı ilə də müraciət olunur. Bütövlükdə isə rayonun tarixi mədəniyyət nümunələrini gözdən keçirəndə onda məlum olur ki, bu abidələrin hər biri təkcə Sabirabadın deyil, bütövlükdə Azərbaycanın tarixinə böyük töhfədi. Həmin abidələr üzərində aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, ərazidə Ağqoyunlu və Səfəvilər dövlətlərinin mövcud olduğu zamanların təsdiqi olan bilgilər ortaya çıxmışdı. Bu isə öz növbəsində Muğan torpaqlarının ölkəmiz üçün nə qədər böyük önəm kəsb etdiyini bir daha ortaya qoyur. Ümumiyyətlə isə tariximizdə öz izi olan Nadir şahın da bu ərazidən yararlanması yazılı abidələrimzidə də öz təsdiqini tapıb. Məsələn, Abbasqulu Ağa Bakıxanovun "Bakı xanlıqları tarixində" adlı əsərində barəsində fikir söylədiyimiz məqam öz əksini tapıbdı. O ki, qaldı rayonun Sovet dönəmində formalaşmasına, onda qeyd etmək lazımdı ki, Sabirabad rayonu öncə Petropavlovka kimi 1931-ci ilə qədər mövcud olmuş, yalnız həmin ilin oktyabr ayının 7-də buraya Mirzə Ələkbər Sabirin adı verilmişdi. 1959-cu ildən isə rayon mərkəzi Sabirabad şəhəri adlandırılmışdı.



Ümummilli liderimiz Heydər Əliyev Kommunist partiyasına rəhbərlik edərkən dəfələrlə bu rayonda olmuş, məhz onun diqqəti, qayğısı nəticəsində rayon demək olar ki, bütünlüklə öz görkəmini, sosial həyatını dəyişmişdi. Məhz həmin illərdə başlayan abadlıq-quruculuq işləri rayonun təkcə mərkəzində deyil, onun kəndlərində də inkişafın əks-sədasını yaşamağa, görməyə imkan vermişdi. Əgər konkret faktlara üz tutsaq, onda görərik ki, rayonda tikilən böyük mədəniyyət sarayı, rabitə evi, çoxlu sayda orta məktəb binaları, xəstəxanalar, Kür üzərində salınmış körpü, çəkilən yollar bu rayonun həyatında Heydər Əliyev dəsti-xəttinin izləridi. Məhz Ulu Öndərin birbaşa tapşırığı, göstərişlərilə çəkilən qaz, su xətləri, aparılan tikinti işləri Sabirabadın kənd təsərrüfatı rayonu olması ilə yanaşı, həm də iqtisadi inkişafının sosial sahəsini də qabartmağa yandırılmış yaşıl işıq idi. Məhz ona görə də Azərbaycan prezidenti cənab İlham Əliyev Ulu Öndərimizin iqtisadi kursunun davamı olaraq ölkəmizin digər bölgələri kimi Sabirabada da böyük diqqət ayırdı. Cənab Prezidentin Sabirabad səfərləri zamanı açılışlarını etdiyi Sabirabad Olimpia İdman Kompleksi Heydər Əliyevin abidəsi və muzeyi "Muğam" Tibb Diaqnostika Mərkəzi, həmçinin digər sosial obyektlər artıq Sabirabadın görkəminə edilmiş yeni diqqətçəkən əlavələr idi. Milli arxitektura əsasında tikilmiş bu obyektlərin hər birinin özünəməxsusluğu rayon sakinlərinin, eləcə də rayona gələn qonaqların diqqətini hər zaman özünə çəkə bilibdi.

Bu gün Sabirabad rayonu müstəqil Azərbaycanın iqtisadi, sosial cəhətdən inkişaf etmiş bölgələrindən biridi. Rayonda fəaliyyət göstərən məhdud məsuliyyətli cəmiyyətlər, aqrolizinq və servislər, fermer təsərrüfatları, eləcə də dövlət sektoru regionun iqtisadi yüksəlişinə töhfələr verir və rayonda istehsal edilən məhsulların həcmi və çeşidləri də ilbəil artır. Biz rayonun iqtisadi mənzərəsi ilə tanış olmaq üçün yerli icra hakimiyyətinin təqdim etdiyi faktlara üz tutduq. Məlum oldu ki, bu gün rayonda mövcud problemləri aradan qaldırmaq üçün rayon icra hakimiyyəti başçısı yanında yaradılmış şura bilavasitə icra başçısının rəhbərliyi altında fəaliyyət göstərir. Ona görə də vaxtaşırı həmin qərargah rayonun həm mərkəzində, həm də kəndlərində mövcud olan problemləri müzakirə etməklə müvafiq qərar qəbul edilir və həmin qərarın icrası da aidiyyəti qurumlara tapşırılır. Məhz bu cür obyektiv və vaxtında müdaxilənin nəticəsidir ki, son vaxtlar rayonun 12 kəndinə təbii qazın verilməsi təmin olunmuşdu.

Həmin kəndlərlə yanaşı, müəyyən kəndlərin də həm təbii qaz təminatı, həm də su, rabitə məsələləri də uğurla aradan qaldırılmaqdadı. Burada vurğulamaq yerinə düşər ki, rayonun qaz təminatında əhalinin rahatlığını təmin etmək üçün "Smart" kartlardan istifadəyə üstünlük verilir. Rəqəmlərə nəzər salanda görürük ki, ötən ilin sonunda Sabirabad rayonu üzrə 25 500 ədədə yaxın smart kart abonentlərə çatdırılmışdı. Ümumiyyətlə, su sayğaclarında da yeni yararlanma üsulundan istifadəyə üstünlük verilir. Faktiki olaraq rayon ərazisində tikilən su anbarlarının daim gündəmdə olması, həmçinin artezian quyularının qurulması istiqamətində uğurlu işlərin aparılması istiqamətində Sabirabad-




da su probleminin aradan qaldırılmasına öz töhfəsini vermiş olur.

**Sabirabad şəhərinin abadlaşdırılması, şəhərdə tikinti-abadlıq işlərinin aparılması istiqamətində görülən işlərdən biri də yol tikintisidi. Qeyd etmək lazımdır ki, Sabirabad rayonu və şəhəri Hacıqabul-Horadiz yolunun üstündə yerləşdiyindən bu magistrala həmişə böyük maraq və diqqət olubdu. Ona görə də yolun daim yüksək səviyyədə saxlanılması, şəhərin küçələrinin səliqə-səhmanlı olması, səkilərin qurulması rayonun abad görünüşündə öz sözünü deyir. O ki, qaldı rayonun iqtisadi inkişafına, ölkə prezidentinin Azərbaycan regionlarının inkişaf etdirilməsinə dair təsdiq etdiyi proqrama uyğun olaraq Sabirabadda da böyük işlər görülür. Yəni fermerlərə özəl sektora diqqət göstərilməsi, subsidiyaların, kreditlərin ayrılması, həmçinin iş adamlarının fəaliyyətinə şərait yaradılması bir daha gösərir ki, Sabirabad torpağının, yəni Muğanın pambıqçılıq, taxılçılıq, bostan-tərəvəz, maldarlıq sahələri planlı şəkildə inkişaf etdirlir. Ona görə də pandemiya şəraitinin mövcudluğuna baxmayaraq, rayonda hər kəs Sabirabadın uğurlu sabahı üçün öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Xüsusilə şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına göstərilən diqqət onlar üçün yaradılan şərait deməyə imkan verir ki, Sabirabadda həyat uğurlu inkişaf yolundadı. Buna sübut kimi təhsilin, səhiyyənin genişlənən imkanları, həmçinin rayon gənclərinin təhsil, idman uğurları Prezidentimizin qarşıya qoyduğu vəzifələrin məsuliyyətlə icra edilməsinin göstəricisidi. Deməli, biz Sabirabadın uğurlarına hər zaman şahid ola biləcəyik.**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# BƏHRUZ NİFTƏLİYEV: "TELEVİZİYADA KLASSİKAYA SÖYKƏNİB, MÜASİRLİYƏ CAN ATMALISAN"

## "Televiziya insanlığı, bəşəri duyğuları, ali hissləri aşılamalıdır"

**(əvvəli ötən sayımızda)**

**- Televiziya missiya olaraq maarifləndirir, informasiya verir və əyləndirir. Bəs maraqlıdır, psixoloji olaraq hansı şəkildə təsir edə bilir?**

- Misal üçün "O" sosial - psixoloji bir proqramdır. "O" insanlara insanlığı aşılayır. Mənə elə gəlir ki, televiziyanın mahiyyətində də bu olmalıdır. Həmin o üç missiyanın da özəyində insanlara insanlığı aşılamaq dayanmalıdır. Sənə baxan tamaşaçı elə bir anda ola bilər ki, sənin hansısa bir cümlən həyat xilas edər. İntihardan döndərə bilərsən kimisə və-ya hansısa pir bir fikirdən , ya da vərdişdən. Düşünürəm ki nə olursa, necə olursa olsun yaşamağa davam etməlisən, mübarizə aparmalısan. Ürəyindəki xoş duyğuları qorumalısan. Çünki cəmiyyət, dünya, insanlar sənə basqı edərək dəyişməyə vadar edir. Qəlbindəki o işığı qorumalısan və o işığın ətəyindən tutub həyata davam etməlisən. İtkilər də, çətinliklər də olacaq, yıxılacaqsan da, necə deyərlər, dizin də qanayacaq. Amma ayağa qalxmalısan. Çünki bu həyat sənə bir ərmağandır. Yaşadıqların əslində səni güclü etmək üçündür. Müəyyən bir yaşa gəlib çatana qədər bunları yaşadıqca artıq sən bütün rüzgarların, bütün çətinliklərin qarşısında dayana bilirsən. O qədər güclü olmalısan ki, kiminsə əlindən tutmağı da bacarmalısan. Valideyn olursansa övladını, qardaşsansa ətrafında olan kəslərə sarılmağı bacarmalısan. Bütün yaşananların da mahiyətində bu dayanır...

### *"O"-da mesaj olaraq bunu ötürməyə çalışıram...*

- Yaşayın, çətinliklərinizi, yaralarınızı sevin. Özünüzü olduğunuz kimi qəbul edin. Məsələn, fiziki məhdudiyyətli insanlara əslində daha faydalı olduqlarını göstərməyə çalışıram. Çünki onlar cəmiyyət üçün öz varlıqları ilə bir nümunədir. Çoxları qapanır, qaçır, görünmək istəmir. Mən həm də belə insanların cəmiyyətə inteqrasiyası üçün rol oynamaq istəyirəm. "O"nun da məqsədi elə budur. Fiziki məhdudiyyətli, məşhur idmançı Aynur Məmmədova müsahibim olub. Hansı ki çoxlarına nümunədir. Paralipiaçıdır, dünya və Avropa çempiyonudur. Onu həm də ona görə dəvət edirəm ki, digərlərinə də örnək ola bilsin. Fiziki məhdudiyyət əngəl deyil sadəcə bəhanə ola bilər. Bir nüansın altını cızaraq xüsusi vurğulamaq istəyirəm ki, bəzi jurnalistlər, fiziki məhdudiyyətli kəsləri "fiziki qüsurlu" kimi yazır, yaxud ifadə edir. Bu yol verilməz və bağışlanılmazdır. Qüsur zehniyyətdə, yanaşmada, düşüncədə olur. Xahiş edirəm ki, bu mövzulara daha həssas yanaşılsın.

**- Bəhruz, haçansa sizdən televiziyaya, televiziyadan sizə nə qalacaq?**

- Məndən televiziyaya haçansa çəkdiklərim, amma televiziyadan mənə xoş, maraqlı xatirələr qalıb və qalacaq. Televiziya elə həyatın bir modelidir. Burada yaşayırsan, yaşlanırsan... burada sevirsən... burada ayrılırsan... burada itirirsən... Həyatın özüdür deyərdim. Həyatın içində həyatdır bura. Haçansa televiziyadan getsəm belə, televiziya məndə qalacaq. Həyatımızın bir parçasıdır. Çağırılmayan qonaqdır deyirlər bəzən, amma biz televiziyanı çağırırıq. İstəyimizlə televizorun pultunu əlimizə alıb istədiyimiz telekanala çevirib ona baxırıq. Televiziya həyata nüfuz edib, həyat özü televiziyaya qanad açıb. Vaxtilə televiziyada işləyən hansısa bir şəxsi dindirsən, görərsən ki, televiziya üçün darıxır. Bəlkə də indi iş şəraiti daha yaxşıdır, amma televiziya üçün darıxır. Televiziyada çalışan hər kəs üçün televiziya hər zaman var. Televiziya özü bizə dünənimizdən yadigardır.

**- Elə yadigar demişkən, "Yadigarlar"da nə var, nə yox?**

- Yadigarlar bir klassikaya çevirilib. Bu yol İctimai Tv-dan başlayıb. Uzun illər Flora xanımla birlikdə studiya şəraitində belə bir verilişə başladıq və olduqca maraqla qarşılandı. Azərbaycan Televiziyasında ana - oğul tandemi ilk dəfə idi. Bax özün olmaq da elə budur. Bir cığır açmaq, yenilik gətirmək budur. Bizdən sora artıq, həyat yoldaşları, qohumlar başladılar birlikdə veriliş yaratmağa.

**- Neçə ildir "Yadigarlar"ın fəaliyyəti və niyə məhz "Yadigarlar"?**

- 2014 - cü ildən Azərbaycan teleməkanında bu veriliş var. Sonradan biz Mədəniyyət telekanalına keçid etdik və formatı dəyişdirdik. Daha çox sənədli - televiziya verilişi kimi tamaşaçıya təqdim etdik. Studiya formatından çıxdıq. Və elə bunun özü bir yenilik idi. "Yadigarlar" həm də tədqiqat proqramıdır. Biz məşhur insanların bilinməyən tərəflərini "Yadigarlar"- ın timsalında araşdırıb yeni faktlarla tamaşaçıya təqdim edirik. Və bu bizim missiyamızdır. Heç vaxt araşdırılmayan, haqqında söz deyilməyən, amma çox maraqlı həyatı, yaradıcılığı olan şəxslər var ki, biz onları axtarıb tapırıq. Elə bu yaxınlarda şəhid şair Şahin Bərdəlini araşdıraraq tamaşaçıya təqdim etdik. O, Birinci Qarabağ müharibəsi zamanı mülicə aldığı xəstəxanada erməni terrorunun, yağı düşmən gülləsinin qurbanına çevirilən bir şair idi ki, ilk dəfə "Yadigarlar" onu ortaya çıxardı. Elə də olur ki, qonaq qismində çağırdığımız kəslər cismani olaraq aramızdan gediblər, yoxluğa çeviriliblər. Vaxtilə müsahib olduğum kəslərin həyatına boylanmışıq "Yadigarlar" vasitəsilə. "Yadigarlar" - özü bir yadigardır. Mən verilişdə həm də Flora xanımın oğlu - yadigarı



kimi çıxış edirəm. orada bir kölgə, davamçıyam. Missiyamız, məramımız budur.

**- Bu il "Yadigarlar"ı fərqli təqdimatda görə biləcəyikmi?**

- "Yadigarlar"ın hər təqdimatı fərqlidir. Hər dəfə də fərqliliyi ilə seçilir. Heç bir zaman kimisə təkrar etmirik. Deyilən faktlardan daha çox necə deyərlər, gün işığı görməyən faktları açıb ortaya qoyuruq, ilklərə imza atırıq. "Yadigarlar" bir tədqiqat proqramıdır.

**- Bəs məsələn deyirsiniz ki, elə adamlar var ki, onları özünüz axtarıb tapıb qonaq edirsiniz. Maraqlıdır, elə tamaşaçılarınız olurmu ki, özləri sizə müraciət etsin ki, bizi işıqlandırın.**

- Qonaqlarımız ya hansısa tanınmış simaların yadigarı olur, ya qohumu yaxud şəcərsindən hansısa nümayəndəsi, və ya hansısa araşdırmaçısı.

Elə Flora xanımın özü burada ekspert qismindədir. "Yadigarlar" - da aparıcılıq missiyası mənim üzərimdədir. Sanki o söhbətə, mövzuya bir yön verirəm. Amma elə də olur ki, bizim dəvət etdiyimiz şair, yazıçı və s. dünyasını dəyişəndən sonra biz onların sağlığında öyrəndiyimiz faktları bu verilişdə təqdim edirik.

### *O Yadigarlardan doğdu...*

- Vaxtilə qonağımız olan Qənbər Şəmşiroğlu haqqında veriliş hazırladıq. "Aşıq Şəmşir"ocağının yetirməsi idi. Biz "Aşıq Şəmşir" yaradıcılığına toxunarkən Qənbər Şəmşiroğlu bizim qonağımız olmuşdu. Vaxt gəldi, vədə yetişdi, təəssüf ki, biz onu itirdik. Qənbər Şəmşiroğlu özü bir ictimai xadim, şair və ən əsası gözəl insan idi. Biz onun həyatını araşdırıb tamaşaçıya təqdim edirik. Məsələn çəkdiyimiz verilişlərin birində Taleh Həmid də qonağımız olmuşdu. Onunla ilk tanışlığım da məhz elə həmin veriliş vasitəsilə yaranmışdı. Taleh Həmid dünyasını dəyişdikdən sonra Flora xanıma dedim ki, biz bu barədə çəkməliyik.

Çünki həmkarlarına, ədəbiyyat adamlarına o qədər gözəl yanaşması var idi ki, o qədər içdən danışan kəs idi ki, o həm də övlad dağı yaşamışdı.

Amma üzündən təbəssüm əskik olmazdı. Taleh Həmid dərdlərin, ələmlərin içərisindən keçib gələn bir şəxs idi.

"Yadigarlar" - ı çəkdikcə fərqinə varırdım ki, necə görkəmli insanlara müraciət edirik. İndi də müasirlərimiz var ki, onların yazıları gün işığı görmür, araşdırılmır, tanınmır, mən onları da araşdırıram, sağlığında ikən onlarla üzbəüz əyləşib həmsöhbət olmağa çalışıram. Mənəvi qatlarını tamaşaçıların gözü önündə açmağa çalışıram. Buna görə də beynimdəki "O" ekran həllini tapdı. ""O", "Yadigarlardan" doğdu"".

**- Məlumdur ki, "Yadigarlar" verilişinin layihə rəhbəri, ananız Flora Xəlilzadədir. Onunla bir efiri bölüşərkən hansı hissləri keçirirsiniz?**

- Mən onunla bir həyatı, bir efiri, bir işi bölüşürəm, biz bir - birimizlə dostuq. Valideyn - övlad münasibətindən əlavə, dostdan əlavə həm də həmkarıq, bir - birimizin tənqidçisiyik.

Bir az böyük səslənə bilər, lakin Flora xanımın dilindən deyərək qeyd edirəm. Ta uşaqlıqdan Flora Xəlilzadənin ilk oxucusu olmaq xoşbəxtliyi mənə nəsib olub. Məqalələrini oxuyub qiraət edirdim və o mənə qulaq asardı. Bu həm də məni formalaşdırmaq üçün bir metod idi. İndinin özündə də Flora xanım, Allahverdi müəllim kimi ziyalı insanların övladı olduğum üçün özümü bəxtəvər hesab edirəm.

**(ardı var)**

**Söhbətləşdi: Şəlalə Camal**
**(AJB -nin üzvü)**

# *Xocalı faciəsi heç bir zaman unudulmayacaq*

**Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağılasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırım eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi cinayətdir.**

**Heydər Əliyev,**
**Azərbaycan xalqının Ümummilli Lideri.**

*Gecə təlaşlı gecə,*
*Güllə yağışlı gecə.*
*Qanına qəltan oldu,*
*Xocalılar gör necə.*

*Qaçır meşəyə sarı,*
*Xocalı uşaqları.*
*Gecə fəryad qoparır,*
*Arvad-uşaq, qız-gəlin.*

Ölkəmizin tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olan Xocalı soyqırımından 30 il ötür. Ancaq onun ağrı-acıları hələ də qəlbimizdə yaşayır. Xocalı soyqırımı bütün bəşəriyyətə qarşı törədilən ən qəddar cinayətlər sırasında yer aldı. Bu faciə həm də əsrlər boyu ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımlarının daha bir dəhşətli təzahürüdür. Bu, bəşər tarixində ən qanlı olaylar sırasında daim xatırlanmaqla bərabər, ermənilərin əsl mahiyyətini, iç üzünün ifşa edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Bu soyqırım 200 ildən artıq bir müddətdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasətinin davamıdır. Həm də keçən əsrin ən dəhşətli faciəsidir. Dinc əhalinin belə kütləvi qırğını əsl milli faciə idi. Dəhşət və işgəncələrə görə bəşəriyyət tarixində analoqu çox az olan Xocalı soyqırımının acı nəticələri belədir : bu faciədə 613 nəfər şəhid oldu; onlardan 106 nəfəri qadındır; 59 nəfəri 1 yaşından 18 yaşınadək olan yeniyetmələrdir; 70 nəfəri ahıldır; 25 nəfər uşaq Xocalı faciəsində hər iki valideynini itirib; 230 ailə öz başçısını itirib; 7 ailə büsbütün məhv edilib; 27 ailənin hərəsində ancaq bir nəfər sağ qalmışdır; 487 nəfər əlil olmuşdur; 150 nəfər itkin düşmüşdür, hələ də onlardan bir xəbər yoxdur; 1275 nəfər əsir düşmüşdür, onlardan yalnız 1165 nəfəri geri almaq mümkün olmuşdur.

Bəli, nə qədər dəhşətli də olsa əsl həqiqət belədir. Xocalı qırğını bizə dərs olmalıdır, milli özünütəsdiqetmə dərsi.

Tarixi yada salsaq görərik ki, uzun illər bundan əvvəl dünyanın bir sıra böyük dövlətləri tərəfindən himayə olunan ermənilərin iyrənc siyasəti istər çar Rusiyası, istərsə də Sovet hakimiyyəti dövründə ardıcıl olaraq davam etdirilmişdir, Erməni şovinistlərinin "Böyük Ermənistan" sülyaları Azərbaycan xalqına baha başa gədli. 2 milyon azərbaycanlının öz yurdundan-yuvasından didərgin salan erməniləri vaxtında öz yerinə oturtmaq lazım idi.

Əlbəttə ki, bütün bu dəhşətli hadisələrin qarşısının alınmasında, həmçinin Xocalı faciəsinin baş verməsində, erməni işğalçıları ilə yanaşı, Azərbaycanın o zamankı rəhbərliyi də, hakimiyyət uğrunda mübarizə aparan müxtəlif qüvvələri də bilavasitə, yaxud dolayısı ilə məsuliyyət daşıyır. O zaman respublikaya rəhbərlik edən adamlar Xocalının müdafiəsinə kömək göstərmək əvəzində əsl həqiqəti, faciənin miqyasını xalqdan gizlətməyə çalışdılar. Bu gün isə azərbaycan hökuməti qarşısında Xocalı soyqırımının və eləcə də ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər və misli görünməmiş dəhşətlər barədə əsil həqiqəti bütün dünya ölkələrinə, beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin parlamentlərinə daha ciddi şəkildə çatdırmaq, Xocalı faciəsinin soyqrımı aktı kimi tanıtdırmağa nail olmaq, vəzifəsi durur.

Erməni vandalizminin qəddarlığından dəhşətə gəlmiş fransalı müxbir Jan İv Yuner yazırdı: Xocalı faciəsi məni dəhşətə gətirdi. Yüzlərlə cəsəd gördüm. Aralarında şəhərin müdafiəçiləri də var idi, günahsız qadınlar, qocalar, uşaqlar da. Mən alman faşistlərinin yırtıcı xisləti haqqında çoxlu kitablar oxumuşdum. Ancaq ermənilərin bu məzlum insanları və 5-6 yaşlı körpə uşaqları öldürərkən etdikləri vəhşiliklər, faşistlərin törətdikləri cinayətkar aksiyaları belə kğlgədə qoyurdu. Mən xəstəxanada, dağıdılmış uşaq bağçalarında, məktəblərdə və sinif otaqlarında güllələrdən bədənləri deşik-deşik olmuş çoxlu yaralı gördüm".

Milliyyətcə erməni olan avropalı jurnalist belə, öz soydaşlarının vəhşiliyindən qəzəblə söz açırdı: "Ermənilər Xocalıda öldürdükləri 100 nəfərin cəsədini yan-yana düzərək körpü yaratdılar. Mən həmin qanlı cəsədlər üzərindən keçib, ayağımı körpə bir uşağın sinəsi üzərinə basarkən bədənimdə dəli bir titrəyiş hiss etdim. Fotoaparatım, bloknotum və qələmim yerə düşərək qana bulaşdı. Erməni qatillərinin bu ağlasığmaz cinayətləri önündə özümü tamam itirdim. Beynimdə dəhşətli bir ağrı başladı. Belə daşürəkli, qəddar bir millətin nümayəndəsi olduğum üçün özümə nifrət etdim".

Mayor Leonard Kravets "İzvestiya" qəzetində dərc olunmuş məqaləsində yazırdı: Mən Xocalıda təpənin üstündə eybəcər hala salınmış yüzə yaxın meyiti öz gözlərimlə gördüm. Bir oğlanın başı yox idi. Balaca bir qızın dırnaqları çıxarılmış, qulaqları kəsilmiş, qoca bir kişinin başının dərisi soyulmuşdu".

Müqəddəs torpaqlarımızın işğalı hesabına öz ərazilərini daha da genişləndirməyi qarşılarına məqsəd qoymuş erməni şovinistlərinin son iki əsrdə Azərbaycan xalqına qarşı yürütdüyü etnik təmizləmə siyasətinin tərkib hissəsi olan bu qəddar və amansız soyqırımı bəşər tarixinə ən dəhşətli terror aktlarından biri kimi daxil olmuşdur. Xocalı soyqırımından bir neçə ay əvvəl erməni qəsbkarları İmarət Qərvənd, Tuğ, Şəlaxətin, Xocavənd, Axullu, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaydalı, Malıbəyli, Qaradağlı, Yuxarı və Aşağı Quşçular kəndlərini də yerlə yeksan etmiş, insanları amansızlıqla qətlə yetirmişdilər.

**Lakin Xocalıların qanı yerdə qalmadı. Sahəsi 0,94 min kv. kilometr, Bakıdan olan məsafəsi 375 kilometr, dəniz səviyyəsindən 582 metr yüksəklikdə yerləşən Xocalı şəhəri, onun bir qəsəbə və 50 kəndi 44 günlük Vətən müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 Noyabr 2020-ci il tarixli üçtrəfli bəyanatın müddəalarına uyğun olaraq düşmən işğalından azad edildi. Ermənilər layiqli cəzalarına çatdılar.**

**Güləddin Həmzəyev,**
**geo.min.e.üzrə fəlsəfə doktoru, dosent.**
**Şixəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi**

# Cavid Zeynallı: "İlham pərisini gözləsək gərək yazmayaq"

***Müsahibim gənc olmağına baxmayaraq böyük uğurlara imza atan, savadı ilə, qələmi ilə şöhrət qazanan Cavid Zeynallıdır. O Cavid ki, təkcə "Şükriyyə" ilə aləmə səs sala bildi. Qeyd edim ki, Cavid Zeynallı eyni zamanda Akademik Milli Dram Teatrının mətbuat katibidir. Onunla söhbətim də məhz elə bu teatrda baş tutdu. Sözü çox uzatmadan müsahibəyə keçid alaq.***

**- Cavid bəy, necəsiniz? İşləriniz necə gedir, hansı yeniliklər var? Gəlin, söhbətimizə bununla başlayaq...**

- Təşəkkür edirəm. İşlər qaydasındadır, mənə elə gəlir, gələcəkdə daha yaxşı olacaq. Əsas odur, insan işdən, çalışmaqdan qorxmasın. Zəhmət çəkən adamlar bunun bəhrəsini mütləq görürlər. O ki qaldı yaradıcı yeniliyə, planlarım çoxdur. Çalışıram ki, onları həyata keçirim. Məsələn, elmi işimi bitirmək və 2023-cü ildə müdafiə etmək. "Müstəqillik dövrü Azərbaycan hekayəsində zaman və məkan" mövzusunda dissertasiya işi üzərində çalışıram. Bundan başqa hekayələr kitabım nəşrə hazırdır, yaxın aylarda bu kitabın çapını planlaşdırıram.

**- Ötən il "Günəşi gözləyənlər" romanınız yenidən çap olundu...**

- Bəli, bu, "Köhlən" nəşriyyatının təklifi idi və mənim üçün xoş oldu. "Günəşi gözləyənlər" mənim ilk romanımdır və 2010-cu ildə işıq üzü görüb. Yəni 12 il əvvəl. Roman ədəbi mühitdə və oxucular arasında müsbət qarşılandı. Haqqında təqdir və tənqidi yazıları da oldu. İkinci dəfə nəşrdən əvvəl isə yenidən oxudum və bəzi dəyişikliklər elədim. Hiss elədim ki, artıq yerlər, lüzumsuz cümlələr var. Hər halda bu keçmişdir və daha çox irəli baxmaq lazımdır. Yeni mövzular var, onlar üzərində düşünmək lazımdır.

**- "Tarix müəlliminin kədəri", "Coğrafiya müəlliminin pencəyi"... Sırada hansı müəllimdir?**

- Yəqin ki, heç biri. Bəlkə də hamısı. Dəqiq nəsə demək çətindir. Bu hekayələri oxuyanlardan da tez-tez belə yarızarafat-yarıciddi suallar eşidirəm. Əsas odur, ilin günün bu vaxtında hekayələrim diqqət çəkə bildi. Ona görə də hiss edirəm ki, hekayələr kitabını nəşr etməyə böyük ehtiyacım var.

**- Nədən başladınız yazmağa?**

- Məktəb vaxtı dəftərə kiçik hekayələr yazırdım. Müəllimlərim və sinif yoldaşlarım oxuyub haqqımda yaxşı sözlər demişdilər. Əlbəttə, doqquzuncu sinifdə oxuyan və yazıçılığın hələ nə olduğunu bilməyən məktəbli üçün bu şeylər qol-qanad demək idi. Sonra universitetə daxil oldum və ikinci kursda Yazıçılar Birliyinə hekayəmi apardım. "Ulduz" jurnalında çap olundum. Daha sonra Mədəniyyət Nazirliyi və Yazıçılar Birliyinin ortaq layihəsi olan "Gənc ədiblər" məktəbinə qoşuldum, orda çoxlu dostlar qazandım. Ən vacibi isə yazmaqdan qorxmamağı, ürəkli olmağı öyrəndim. Sonra "Günəşi gözləyənlər" çap olundu və ədəbi mühit artıq məni yazıçı kimi qəbul elədi.

**- Ən çox hansı yazınızla yadda qaldınız?**

- Söhbət qəzet materialından gedirsə, "525-ci qəzet"ə yazdığım reportajlar maraqla qarşılandı və məni yazmağa həvəsləndirənlərin sayı çoxaldı. Daha sonra isə romanım və hekayələrim.

**- Bir ara mətbuatda yazarların əsərləri haqqında tənqidi yazılarınız dərc olundu. Tənqidçi olaraq özünüzü görə bilirsiniz?**

- Qətiyyən. Belə fikrim heç vaxt olmayıb. Bunlar yaradıcılığa ilk başladığım dövrlərdə yazdığım həvəskar yazılar idi. Sonra insan başa düşür ki, heç kimi təftiş eləmək lazım deyil, sadəcə,



öz işinlə məşğul olmaq lazımdır.

**- Cavid, ilham nə zaman gəlir? Bu qədər işin içində bir də yazıb yaratmaq çətin olmur?**

- İlham pərisini gözləsək gərək yazmayaq. Sadəcə, insanın yaratmaq şövqü tükənməməlidir. Bir də yaradıcılıqda sistemli olmaq vacibdir. Xüsusən, nasir üçün. Nəsrlə məşğul olmaq davamlılıq, sistemlilik tələb edir.

Onu avtobusda, mediada düşünmək olur, amma yazmaq olmur. Yazmaq üçün mütləq saatlarla oturmaq, işləmək lazımdır.

**- Şükriyyə"nin həyatınızdakı rolu haqqında nə demək istərdiniz?**

- Bu ilin əvvəlində pyeslər kitabım çap olundu.

Gözləyirəm ki, pyeslərim səhnələşdirilsin. Xüsusən, "Şükriyyə" pyesimin oynanılmasını gözləyirəm. Bu pyesi bəyənən, qiymətləndirən çoxdur. Təəssüf ki, iki il teatr bağlı qaldı. İndi də xeyli yarımçıq işlər var, onlar yekunlaşmalıdır. Ciddi gözləntim bu ilədir. Çünki bu il Əhməd Cavadın 130 illiyidir. İçimdə qəribə bir "lovğalıq" var ki, Şükriyyə xanım haqqında heç kim məndən yaxşı yaza bilməz. Bunu tam məsuliyyətlə deyirəm. Və pyesimin məhz "Azdrama"da səhnələşdirilməsini arzu edirəm. Rejissor dostlarım mənə deyir ki, bəlkə, əyalət teatrlarından başlayasan, yaxud paytaxtın kiçik teatrlarından? Məsələ orasındadır ki, mənim teatr düşüncəm, zövqüm "Azdrama"da formalaşıb və başlanğıcı da məhz bu teatrdan etmək arzusundayam.

**- Cavid, pandemiyadan sonra tamaşaçı kütləsi sizi qane edirmi?**

- Əlbəttə, tamaşaçılarımız, teatrsevərlər bu müddətdə teatr üçün darıxmışdılar və onlar müxtəlif vaxtlarda sosial şəbəkələrdə öz narahatlıqlarını bölüşürdülər.

Hətta bizim özümüzə də yazanlar olurdu. Nə yaxşı ki, bu açılış baş verdi. Təbii ki, yenə də karantin qaydalarına ciddi şəkildə əməl olunur. Covid pasportu olmadan heç kim teatr binasına buraxılmır. Həmçinin, tamaşa zalında hər kəs tibbi maskadan istifadə edir. Bu, birmənalı və zəruridir. Bundan əlavə isə təlimata əsasən tamaşa zalında yalnız 50 faiz tamaşaçı olur.

Pandemiya səbəbindən bizim müxtəlif layihələrimiz təəssüf ki, təxirə düşdü. Hazırda həmin layihələrin reallaşdırılmasıyla məşğuluq. Həm Azərbaycan, həm də dünya dramaturgiyasından çox maraqlı əsərlər var ki, həmin əsərlərlə tamaşaçıların görüşünə gəlməyi planlaşdırırıq. Təbii ki, növbəti mərhələdə teatr həm də yerli və beynəlxalq qastrollara çıxmağı planlaşdırır.

**- Özünüz tamaşaçı qismində teatrlara üz tutursunuzmu?**

- Oktyabr ayında sonra təəssüf ki, başqa teatrların tamaşalarını izləməyə gedə bilməmişəm. Amma planımda bir neçə tamaşanı izləmək var.

**- "Ölümə gedən" ünvanını tapdımı?**

- Bu pyes Mədəniyyət Nazirliyinin keçirdiyi müsabiqənin qalibi olub. Qaydalara görə səhnələşdirilməli idi. Amma təəssüf ki, baş tutmadı. Ümid edirəm, teatrlar bu pyesə diqqət edəcəklər.

**- Hərdən hekayələrinizi oxuyanda dalıb gedirəm... Sözlərinmi sehri var, ya nədir bu sirr?**

- Dəyər üçün təşəkkür edirəm. Bunu izah etmək mənim üçün də çətindir. Yaradıcılıq elə ona görə gözəldir ki, onun mahiyyətində sehr var.

**- Xarici mətbuatda yazılarınız dərc olunurmu?**

- "Coğrafiya müəlliminin pencəyi" adlı kitabım Türkiyədə çap olunub. Bu, Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan layihədir. Hətta İstanbulda təqdimat mərasiminin keçirilməsi də planlaşdırılır. Ümumən isə hekayələrim rus, alman, ingilis, türk və gürcü dillərində yayımlanıb.

**- Oxucu bu gün nə gözləyir?**

- Yaxşı mətn, yaxşı əsər, yaxşı ədəbi nümunə.

**Söhbətləşdi: Şəlalə Camal**
**AJB - nin üzvü**

# Fidan Şahmardan yazdı

**Son günlərin ən xoş hadisələrindən biri ilə qarşılaşdım. Təbii ki, bu, təkcə mənim üçün yox, həm də Şahmarsevərlər üçün xoş bir hadisə idi. Öncə onu qeyd edim ki, şahidi olduğum hadisə barəsində facebook səhifəsindəki paylaşmadan xəbər tutmuşdum. Şair dostum İbrahim Yusifoğlu paylaşmışdı bu xəbəri və bildirmişdi ki, AMEA-nın Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri üzrə doktorant Fidan Nizaməddin qızı Abdurrəhmanova yeni bir uğura imza atıb. O, dəyərli və unudulmaz şairimiz Şahmar Əkbərzadə barəsində "İstiqlal arzusu ilə yaşayan şair" adlı monoqrafiyasını kitab şəklində çap etdiribdi.**



Mən bu xəbəri oxuyanda təbii ki, Şahmarsevərlərdən biri kimi, həm də Fidan xanımın qələminə bələd olan oxucu kimi sevindim və ürəyimdən keçdi ki, kaş həmin kitab mənim də kitabxanamda yer tuta bilərdi. Elə içimdən keçirdiyim bu istək fevral ayının 23-də reallığa çevrildi. Redaksiyamıza, yəni "Ədalət" qəzetinə qonaq gələn Fidan xanım özü ilə birlikdə yeni kitabını da gətirmişdi. Bu, həqiqətən mənim üçün surpriz idi. Gənc həmkarım yazdığı səmimi avtoqrafla kitabı mənə bağışladı. Bir xeyli söhbət etdik. Necə deyərlər, unudulmaz Şahmarı təkrar xatırladıq. Əziz qonağı yola salandan sonra böyük həvəslə "İstiqlal arzusu ilə yaşayan şair"i vərəqləməyə başladım. Ön sözünün müəllifi akademik İsa Həbibbəyli, redaktorları yazıçı-publisist Mustafa Çəmənli və Könül Aslanova, rəyçiləri dəyərli alimlərimizdən olan Vaqif Yu-




sifli, Vüqar Əhməd və Habil Qurbanov olan bu kitab "Elm və təhsil" nəşriyyatında işıq üzü görüb. 128 səhifəlik kitab Şahmar Əkbərzadənin öz qələmi ilə yazdığı "Avtobioqrafiyası" və "Heç Vətənin ucqarı da olarmı?" şeiri ilə başlayır. 1990-cı ildə yazılmış həmin "Avtobioqrafiya"nı bu kitaba da daxil etməklə müəllif sanki oxucu ilə Şahmar Əkbərzadəni qarşılaşdırır. Bu maraqlı üslub təbii ki, mənə çox məqamları xatırlatdı. Həmçinin kitabın ön sözündə də hörmətli alimimiz, AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli də Şahmar Əkbərzadə barəsində dəyərli fikirlərini oxuculara ünvanlamaqla yanaşı, bu kitabın sanbalını bir az da artırmışdı. Ümumiyyətlə, mən isti-isti gözdən keçirtdiyim bu kitabın özəl məziyyətlərindən biri kimi müəllifin axtarış, aramaq bacarığının şahidi oldum. Belə ki, Fidan xanım həm həvəslə, həm də peşəkarlıqla Şahmar Əkbərzadə yaradıcılığı və şəxsiyyəti ətrafında təhqiqat aparmış, onun barəsində dövrü mətbuatla işıq üzü görmüş çoxlu bilgiləri bir araya gətirmişdi. Fidan xanımın bu kitabında Şahmar Əkbərzadə barəsində fikir söyləmiş böyük söz ustaları Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Məmməd Aslan, eləcə də ölkəmizin hüdudlarından kənarda yaşayıb-yaratmış ünlü söz adamlarının, xüsusilə Çingiz Aytmatovun Şahmar sevgisini oxucu qarşısına çıxartmışdı. Onun istifadə etdiyi mənbələr sırasında ölkəmizin aparıcı mətbu orqanlarının sırasında "Ədalət" qəzetinə də diqqət yetirilmişdi. Bir oxucu kimi, həm də bir yazar olaraq "Ədalət" qəzetində Şahmar Əkbərzadə barəsində çap olunmuş millət vəkili, yazıçı-publisist Aqil Abbasın, tanınmış jurnalist Hidayət Elvüsalın, o cümlədən də bu yazının müəllifinin fikirlərinə Fidan xanımın diqqət yetirməsi tərəfindən daxili bir təşəkkürlə qarşılandı. Düşünürəm ki, Fidan xanım bu səmimi münasibəti ilə bir daha deyilən sözün yadigar olduğunu təkrar yaşıl işıq yandırmış və ədəbiyyatımızın unudulmaz simalarından olan Şahmar Əkbərzadə dünyasında bizləri də diqqətdə saxlamışdı.

**Bəli, Fidan xanımın yenicə işıq üzü görmüş kitabı ilə bağlı yazdığım atüstü, həm də səmimi fikirlərimdə bir məqsədə söykənmişəm. O da sevincimi Şahmarsevərlərlə bölüşmək və Fidan xanıma özümün və Şahmarsevərlərin təşəkkürünü çatdırmaqdır. Uğurlarınız bol olsun, Fidan xanım!**

**Əbülfət MƏDƏTOĞLU**

# Sağlığında qiymət verin şairlərə...

**... 1966-cı ildə hələ çox gənc yaşında yazdığı "Kökələr" şeiri ilə Ənvər Əhməd poeziyamıza öz möhürünü vurdu. Balalarına kökə bişirən ananın obrazını şair hələ o vaxt yaratmağa müvəffəq olmuşdu:**

***Yenə mənim könlümə***
***Kökə düşüb, ay ana,***
***Kökə bişir balana.***
***Əllərinin ətrini***
***Kökələrdən duyum mən.***
***Kökələri öpərək***
***Gözün üstə qoyum mən!***

**Bizim nəsildə hər kəs qələm sahibi olduğundan aramızda açıq, səmimi münasibət vardı. Hamı kimi mən də əmim olsa da, Ənvər Əhmədə şair deyə müraciət edərdim. O, da mənə sevimli, istiqanlı, ürəyə yatımlı dədə adıyla müraciət edərdi... O, təkcə doğulduğu kəndimiz Salmanbəylinin, Kəbirlinin, Ağcabədinin yox, bütün Azərbaycanın şairi idi. Qohumları çox, nəsli böyük idi.**



**Amma dostları, sirdaşları, oxucuları daha çox idi. Çünki üzündən təbəssüm süzülərdi, içi işıqlıydı. Mehriban, həzin, insanpərvər və eyni zamanda Vətəni, torpağı ürəkdən sevən çılğın bir şair idi Ənvər Əhməd. Vətəndə qürbət həsrəti, Qarabağ nisgili ilə yaşaya bilmirdi. Misralarındakı torpaq, doğulduğu, oylağı olan yurd həsrəti adamı yandırırdı. Çox zaman bu böyük ürəyə sahib olan nikbin, əyilməz şairin Vətən həsrəti, dərdi içinə sığmazdı. Doğma, müdrik baxışlarından işğal altında olan torpaqların adı, coğrafiyası süzülürdü.**

**... 2021-ci il 30 avqustunda Şuşaya, Vaqif poeziya günlərinin açılışına dəvət almışdı. Ancaq təbiətin şirini, şəkər onu qaranlıq komaya saldı. O, Şuşaya gedə bilmədi. İllərdən bəri ürəyinin başında gəzdirdiyi Şuşalı günlərə qayıda bilmədi. Gözəl Qalanı bir də görmədi. Ona olan sonsuz sevgisi ürəyində qaldı. Təəssüf ki, o, Şuşanı salamlayıb, bağrına basa bilmədi, qoynunda doyunca ağlamadı. Ancaq indi ağladı. Ona baxıb mən də kövrəldim:**

***Ayaq basdığım***
***Vətən torpağı***
***Ürəyimin***
***başından keçir...***

**Nəslimizin poeziya palıdı olan nəhəng şairi bir daha xatırlayıram.**

**Yazan qələmim də çılğınlaşır. Onun haqqında keçmiş zamanda yazmaq istəmirəm. Qələm tərslik etmir, o da sənin bizimlə, səni sevənlərlə, yaddaşımızın dərinliyində yaşadığını bilir.**

**Bir az kiçicik təsəlli üçün görünən yerini axtarıram. Sənli günlərə, sənə qayıtmaq istəyidir bu təsəlli axtarışı...**

**... Düz 50 il bundan öncə sənin işlədiyin redaksiyada çalışıram. İş yerim elə sənin o vaxtkı kabinetindir. Burada şəklinə dəfələrlə baxır, kitablarını yenidən oxuyuram. Nurani, xeyirxah, şair simanın çələngini qəlbimdə bir daha toxuyuram.**

**Şair, sən unudulmazsan. Əziz surətin, yaraşıqlı siman həmişə gözümüzün önündə, yaddaş və ürəyimizin ən layiqli guşəsində özünə əbədi məskən salıb. Sən həmişə bizimləsən, Şair!**

**Xalq şairi adı almasa da, öz əsərləri ilə poeziyamızda 60 ilə yaxın külüng çalan, xalqın şairi Ənvər Əhmədin əziz xatirəsi onu sevənlərin qəlbində əbədi yaşayacaqdır...**

**Adil MİSİRLİ**

# "Yaxşı pulum olsaydı, ayrıca maaş verərdim ki, sən Allah, yazı yazma"

*Həmsöhbətimiz gənc şair Elromandır.*

**-Son dönəmlər ədəbiyyata yeni gələn gənclər arasında üzdə olanlardansan. Bilirsən, nəyi xatırladım? On il öncə bizim vaxtımızda da üzdə olan, xeyli populyar şəxslər vardı ki, indi adlarını az qala əksəriyyət unudub. Bu barədə nə düşünürsən?**

- Unudulmaq o unudulanların öz seçimi oldu. Bunu sənin özün də çox yaxşı bilirsən. Ədəbiyyata hobbi kimi baxmısansa, ilk öncə özün unudulmağa, sonra bir az qocalan kimi vaxtilə bütün əzbər bildiyin şeirləri unutmağa məhkumsan. Əslində, bu barədə danışmaq bir az yersizdir. Hər şeyi zaman göstərir. Sinənə döyüb özünü ağa adlandırmaqla deyil ki. Ədəbiyyatın özü ələk kimi elə adamları seçib ələyir ki, sənin özün nə qədər ədalətli olsaydın belə, sənə bu ixtiyar verilmiş olsaydı, bu qədər dəqiq ola bilməzdin. Ona görə də bunu zamana və elə ədəbiyyatın özünə buraxmaq lazımdır. Onsuz da o heç vaxt yanılmayacaq.

**-Ötən il deyirdin ki, yaşıdlarım arasında öz potensialımda kimisə görmürəm. Bəlkə görmək istəmirsən? Doğrudanmı yaşıdlarının hamısı səndən istedadsızdır?**

- Hələ də öz sözümün üstündəyəm. Sevinirəm ki, bu mənim inkişafda geriləmədiyimi göstərir. Mən heç nədə eqolu davrana bilmirəm. Sadəcə gərək bir yandan da olanı deyəsən. Bəlkə səhv deyirəm? Mənlə eyni yaşda bir nəfəri nümunə çək ki, səndən daha yaxşı yaza bilir. Nə var 35 yaşında şeir yazmağa? Təsəvvür elə, 35 yaşın var, 20 ildi yazıb-pozursan, hələ bir deyirsən ki, Elromandan yaxşı şeir yazıram. Bir zəhmət yaxşı yaz da. Sən o yaşda şeiri təkcə yazmalı deyilsən e. Nəsə hoqqa fikirləşib eləməlisən, amma dəqiqdi ki, təkcə yazmalı deyilsən. Şairlə futbolçunun inkişaf prosesini paralel qiymətləndirmək olar. Hər iki sahədə də eynidir, 20 yaşında parıldadınsa, bu səni daha çox dəyərli edəcək. 40 yaşında haranla qol vurursan vur, nəyə şeir yazırsan yaz, xeyri yoxdur, sənin "srok"un keçib.

## *Pleysteyşn oynamağı şeir yazmağından qat-qat yaxşıdı*

**-Yaşıdlarının bəzisi səni plagiatlıqda ittiham edirdi. Səhv etmirəmsə, Ələsgər Əhməd də belə demişdi.**

- Sonradan yazdıqlarını demirəm, amma Ələsgər Əhmədin ilk kitabındakı şeirləri oxuyanda deyirsən ki, kaş ki belə yazmaqdansa, kimdənsə plagiat edib yazaydı. Ümumiyyətlə, plagiata qalanda gərək şair özü-özünü plagiat eləməsin. Başqasından eləsən də, hardasa keçmək olar. Ələsgər hələ də özünün bütün şeirlərində özünü plagiat edir. İşin pis tərəfi ondadır ki, plagiat məsələsi onun təkcə mətni ilə bağlı yox, aldığı bir çox qərarlarda da özünü biruzə verir. Hərdən oturub bir-birimizə şeir oxuyuruq. Səmimi deyirəm, bir də görürsən elə bir misra oxuyur, kürəyinə vurub deyirəm ki, halaldır, necə tapmısan bunu? Sonra meyxana deyirik, görürəm ki, yox e, bunun meyxana deməyi şeir yazmağından əlli dəfə yaxşıdı. Sonra nə bilim, gedirik pleysteyşın oynayırıq, görürəm ki, bunun pleysteyşn oynamağı da şeir yazmağından qat-qat daha yaxşıdı. Ümumiyyətlə, onun ən zəif bacarığı şeir yazmağıdır. Adam gərək bacardığı işdən bərk yapışa. Başa düşürəm, bir dəfə alınanda bir dəfə alınmaz. Amma görəndə ki, bu nisbət birə qırxdır, gərək özün də ağıllı başla düzgün qərar verə biləsən.



**-Bir müddət öncə şeirlərin kulisdə yazarlar arasında müzakirəyə çıxarıldı. Həmin şəxslərin fikirlərinə öz münasibətini bildirsən maraqlı olar.**

-Rəvan Caviddən başqa hər birinin fikirləri ilə razıyam. Ən dəqiq təhlili Fərid Hüseyn yazmışdı. Elə dəqiq təhlil edə bilmişdi ki, sanki şeiri birlikdə yazmışıq, harda nəyi demək istədiyimdən də xəbəri var. Rəvan heç orda nə deyibsə, özü də bilmir. Kulisdə açıqlamaları həmin yazarlardan kim alır bilmirəm, amma hər kim alırsa, görür heç cürə oxunaqlı başlıq çıxarmaq mümkün deyil, axırda da Rəvanı danışdırır. Amma adamın Allahı var, dedikləri ilə hər nə qədər gopa basıb səmimi olmasa da, başlıq üçün qəşəng material verə bilir. Məsələn, mənim də saytım, əlimdə yaxşı pulum olsaydı, Rəvan üçün puldan buraxıb ayrıca maaş verərdim ki, sən Allah, səndən heç zad istəmirəm, yazı yazma, işləmə, bircə elə 2-3 kəlmə nəsə de ki, biz də ordan başlıq çıxaraq, həmin mətndə adı keçən hamının yaşayışı sual altına düşsün.

**-Yarasalar şeirini bəyənmişdim. Müzakirə zamanı dediyim kimi, məhsuldar görünmək fikrin yoxdur? Halbuki zaman keçdikcə bəzi şeirləri adam kaş ki, dərc etdirməzdim deyir. Çünki insanlar yaxşı şeir qalır kənarda, sənin zəif bildiyin, bəlkə də imtina etdiyin şeirə istinad edir.**

- Artıq sənin də dediyin kimi, məhsuldar görünmək qərarını özüm də çoxdan almışam. Elə olur ki, 5 ay heç nə yazmıram. Niyə özümü nəyəsə məcbur etməliyəm ki? Tam dəqiq deyirəm, ilk kitabımdakı şeirlərin hərəsindən bir gündə on dənəsini yazıb ata bilərəm. Amma bir səhvi bilməyərəkdən etmək başqadır, bilərəkdən etmək başqa. Əvvəl bilmədən də olsa, oxucularıma şeir adı ilə söz yığını təqdim eləmişəm. Bunu indiki gündə bilərək eləsəm, bu mənim ayıbım olar.

**-İlk kitabın haqqında danışaq. Dizayn və.s baxımdan daha çox ərgənlik məhsuluna bənzəyirdi. Bu kitabın günahını yumaqçün yaxın vaxtlarda hər hansı kitabını təqdim etmək fikrin var?**

- İlk kitabımdan özüm də gileyliyəm. Kitabın içi özümü yandırır, çölü özgəni. İçimdə elə bil ki, övlad yetişdirmişəm, naxələf çıxıbmış kimi bir hiss var. İkinci kitabımın üzərində uzun müddətdir işləyirəm. Aprel-may aylarında satışda olacaq. Yeni kitabımı Ahmet Kayaya ithaf edəcəm. Spoyler də vermək istəmirəm, amma onu deyim ki, son illərin ən uğurlu şeir kitabı olacağına əminəm. Bu dəfə yaş fərqi yoxdu.

**- Rəşad Məcid deyəsən səni çox istəyir. Hiss etdiyim qədər səni bəzi "kruq"lardan və.s.dən qorumağa çalışır. Bəzən jestləri, bəzən eşitdirdiyi hər hansı bir sözlə.**

-Özü də bunu bir dəfə demişdi. "525-ci" qəzetin redaksiyasında işçilərə yeni müxbir vəsiqələrini verəndə mənə demişdi ki, "Elroman, səni çox istəyirəm". Yəni mən də ordan bilirəm çox istədiyini. Bir insan hansısa bir kitabın müəllifi kimi də, qəzet redaktoru kimi də, hansısa bir müəssisənin işçisi kimi də sevilə və ya sevilməyə bilər.

Ümumiyyətlə düşünürəm ki, hamı tərəfindən sevilən insan yaxşı insan ola bilməz. Rəşad Məcidin gənclərə qarşı necə həssas yanaşdığından və onlarla həvəslə işlədiyindən hamının xəbəri var. Çoxu deyə bilər ki, mən filan yerdəyəmsə, deməli özüm layiqəm ki, həmin yerdəyəm və sairə. Amma bunu deyən vaxt bir az da vicdanlı olmaq lazımdır. Sən o filan yerdə olmamışdan qabaq baş verən hansı hadisələr səni o yerə gətirdi? Yaxşı, lap deyək ki, həmin hadisələrdə baş rol özünsən, bəs köməkçi rol kimdir? Hətta bəzən də elə olur ki, köməkçi rol baş rol üçün onun özündən daha çox şey edir. Gərək heç kəsin əziyyətini yerə vurmayasan. Qaldı ki, qorumağa, yaxşı edir qoruyur. Elə hamı məni "kruq"lardan qorusa yaxşıdır, fərqi yoxdu, kimin "kruq"u olur olsun.

**Söhbətləşdi:**
**Emin Piri**

# Gənc şairin imza günü keçirilib

**Sumqayıt Poeziya Evində gənc qazi-şair Elvin İntiqamoğlunun Xalq Şairi Sabir Rüstəmxanlının ön sözü və şair Emin Pirinin redaktorluğu ilə nəşr olunmuş "On dördüncü qızılgül" adlı ilk şeirlər kitabının təqdimatı keçirilib.**

Şəhidlərin ruhu qarşısında sayqı duruşu ilə başlayan tədbiri giriş sözü ilə Poeziya Evinin direktoru, şair İbrahim İlyaslı açaraq Elvin İntiqamoğlunun yeni nəşr olunmuş kitabı haqqında ətraflı məlumat verib. Tədbirin aparıcısı, Poeziya Evinin təşkilatçısı gənc şair Elvin Əlizadə tədbir iştirakçılarını salamlayaraq qələm dostunu kitabının işıq üzü görməsi münasibəti ilə təbrik edib. Sonra o, sözü tədbir



iştirakçılarına təqdim edib. Təqdimatda çıxış edən Prezidentin fərdi təqaüdçüsü, əməkdar müəllim, şair Ofelya Babayeva, filologiya elmləri doktoru, professor, şair Rafiq Yusifoğlu, kitabın redaktoru, qazi-şair Emin Piri, tanınmış nasir Əyyub Qiyas, əməkdar artist, şair Nazir Rüstəm, şairlərdən Ehtiram İlham, Elnur Uğur, Xaqani Abbasəli Öztürk, Solmaz Cahangirova, Mədaxil Cavadlı, Miraslan Rasim, Cabir Albantürk, Mələk Yazar, Şahin Hacıyev, nasirlərdən Şəlalə Hüseynova, Elvin Rizvangil, Nemət Mətin, gənc yazarlardan müharibə iştirakçısı Nicat Ağayev, Aygün Yaşar, Gülnar Ümid, Əsmər Hüseynxan, Günel Balakişi, Vüsal Ağa, Əlirza Paşayev, Ürvət Əfqanoğlu, Əşrəf Əşrəfli, Bəhram Bilaloğlu çıxış edərək "On dördüncü qızılgül"dən seçmə şeirlər səsləndiriblər. Oxuculardan Gülnar Əhmədova, Əlikram Əzizov, İlqar Nəsirov şairi ilk kitabının işıq üzü görməsi münasibətilə təbrik ediblər.

**Tədbirin sonunda Elvin İntiqamoğlunun şəhid baş leytenant Emil Əsədova ithaf etdiyi "Qaya-11" adlı şeirinin video-çarx şəklində səsləndirilməsi ilə başa çatıb.**

**Emin**

Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 nömrəli qərarı ilə Qaraşov Ağasən Həsən oğlunun adına verilmiş 998 kv.m torpaq sahəsinin plan-ölçü sənədləri itdiyi üçün etibarsız hesab edilir.

***

6 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsinin böyük inspektoru (rəisin növbətçi köməkçisi), ədliyyə mayoru Hüseynov Samir Hacı oğlunun adına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

"Ekoaləm və problemlər" qəzeti tərəfindən Məmmədov Kənan Məhəmməd oğlunun adına verilmiş 5 saylı vəsiqə həm onun media qanunlarına düzgün riayət etmədiyi və bu qanunlara yeni müddəalar əlavə olunduğu üçün etibarsız sayılır.

Aqil Abbas **Məzahir Əhmədoğluna** əmisi
**Əvəz Əhmədovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Ədalət" qəzetinin kollektivi **Məzahir Əhmədoğluna** əmisi
**Əvəz Əhmədovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Loğman Rəşidzadə və Əbülfət Mədətoğlu **Məzahir Əhmədoğluna** əmisi
**Əvəz Əhmədovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sabunçu rayon Ağsaqqallar Şurasının sədri Səməndər Məmmədov ailə üzvləri ilə birlikdə 271 nömrəli tam orta məktəbin direktor müavini
**Ofeliya Arazovaya**
həyat yoldaşı Araz müəllimin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Loğman Rəşidzadə, Əbülfət Mədətoğlu və Məzahir Əhmədoğlu "Yeni söz" qəzetinin redaktoru **Səbuhi Vəliyevə** qardaşı
**Əfsunun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 63
Çapa imzalanmışdır: 25.02.2022